# XANIMLAR, BAYRAMINIZ MÜBARƏK!


**Hər kəs ədalətli olacaq** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 09 (6151) 6 mart 2026-cı il | Qiyməti 40 qəpik


# İRANIN AZƏRBAYCANA QARŞI RİYAKARLIĞI

**İran Naxçıvana dronla zərbələr endirib. Adalet.az xəbər verir ki, dronlardan biri aeroportun terminallarından birinə, daha bir neçə dron isə digər yerlərə düşüb. Bir dron isə Naxçıvan şəhərində məktəbin yaxınlığına təsadüf edib.**

**Qeyd edək ki, münaqişə başlayandan bəri Azərbaycan İranla qonşuluq siyasətinə sadiq qalıb, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov İran xarici işlər naziri Abbas Əraqçıya zəng edərək, Azərbaycan ərazisindən heç bir qonşu və dost dövlətə, o cümlədən İrana qarşı istifadə edilməyəcəyi ilə bağlı Ali Baş Komandan İlham Əliyevin dəfələrlə dediyi fikirləri bir daha xatırladıb.**




**Azərbaycan Prezidenti İlham Əliyev İranın Ali rəhbəri Xameneinin öldürülməsi ilə bağlı bu ölkəyə başsağlığı verən nadir dünya liderlərindən biri olub. Prezident İranın Azərbaycandakı səfirliyini şəxsən ziyarət edib, başsağlığı verib. Azərbaycan İranla sərhəd-keçid məntəqəsindən keçidi təmin edərək, həm İrandakı digər ölkə vətəndaşlarının, həm də İran vətəndaşlarının öz ölkələrinə keçidinə şərait yaradıb.**

**Bütün bunlara baxmayaraq, molla rejimi bu gün hədəfləri arasına Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını daxil edib, Naxçıvan şəhəri və aeroportunun ərazisinə dron zərbələri endirib.**

## Müdafiə Nazirliyi: “İranın hücum aktları cavabsız qalmayacaq”



**İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən İran ərazisindən pilotsuz uçuş aparatları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan beynəlxalq hava limanına və digər mülki infrastruktura hücum aktları həyata keçirilib.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, pilotsuz uçuş aparatlarının texniki parametrləri və bu hücumların təfərrüatları araşdırılır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi hər hansı hərbi zərurət olmadığı halda, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən ölkəmizin ərazisində mülki infrastruktura qarşı törədilən hücumları qəti şəkildə pisləyir.

Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə İran İslam Respublikasının üzərinə düşür.

Azərbaycan Müdafiə nazirliyi ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi, mülki şəxslərin və mülki infrastrukturun təhlükəsizliyinin təmin olunması üçün zəruri cavab tədbirlərini hazırlayır və bu hücum aktları cavabsız qalmayacaq.

## "QARABAĞ"IN BAŞI ÜZƏRİNDƏ BİR KABUS DOLAŞMAQDADIR



**General olmağı arzulamayan əsgər yaxşı əsgər deyil, amma gələcək taleyi barədə çox düşünən əsgər ondan da pisdir. Çempion olmaq istəməyən klubun prezidenti də general olmaq istəməyən əsgərdir.**

”Qarabağ” klubunun prezidenti hörmətli Tahir Gözəl qəribə bir açıqlama verib. ”Sabah”ı tərifləyəndən sonra deyir ki, ola bilər ki, ”Qarabağ” Avroliqada, Konfransliqasında daha böyük nailiyyətlər əldə edə bilər.

Amma bizim fikrimizcə, ”Qarabağ” bu il də çempion olacaq və gücünü Avroliqada və Konfrans liqasında deyil, yenə də Çempionlar liqasında göstərəcək. Klubun sabahı haqqında da sözü yalnız Qurban Qurbanov və futbolçular deyə bilər. Yaxşı olar ki, klubun prezidenti maliyyə məsələləri ilə məşğul olsun, sponsorluğunu eləsin.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR ÇAYXANASININ SƏDRİ G***TEREŞ ÇAYXANADA KARANTİN ELAN EDİB. ÜZVLƏRİNİN HAMISININ AĞZINA İKİQAT MASKA TAXIBLAR. KARANTİN İRANDA SAVAŞ BİTƏNƏDƏK DAVAM EDƏCƏK.**



## *Süni intellektin tətbiqində ixtisar olunacaq şəxslərə dəstək verilsin*

**”Rəqəmsallaşdırma və süni intellektin bütün sahələrdə olduğu kimi, əmək hüququnun həyata keçirilməsi və müdafiəsi mexanizmlərinə də təsirini nəzərə alaraq, texnoloji dəyişikliklərə hazırlıq məqsədilə regionlar üzrə əmək bazarının öyrənilməsi, işçilərin hüquqlarının qorunmasına yönəlmiş kollektiv tədbirlər planının hazırlanması, süni intellektin tətbiqi nəticəsində ixtisar olunacaq və ya adaptasiya çətinliyi yaşayacaq şəxslərə dəstək mexanizmlərinin yaradılması olduqca zəruridir”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsinin müzakirəsi zamanı Ombudsman Səbinə Əliyeva deyib.

Ombudsman qeyd edib ki, bununla əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi əsas şərtlərdəndir.


***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***


# İRAN SARSAQLADI



***Əslində biz İranın sarsaqlamasını az qala qırx ildi bilirik, Ermənistan bizim torpaqları işğal eləyəndən. Amma biz həmişə qonşu münasibətlərimizi qorumağa çalışmışıq. İran da fikirləşir ki, biz ondan çəkinirik. Azərbaycan heç kimdən çəkinmir. Azərbaycan gücünü-qüdrətini və diplomatik səviyyəsini Vətən Müharibəsində göstərdi. Nəinki göstərdi, hətta Azərbaycanı sevməyənlərin gözünə soxdu. İndi İran bütün dünyayla üz-üzədi. Təkcə Amerika, İsrail deyil, NATO dövlətləriylə də. İrana az-çox xoş münasibət bəsləyən Azərbaycan idi. Hələ bir gün bundan qabaq Cənab Prezident İran səfirliyinə getdi və İran xalqına başsağlığı verdi, bu da onların cavabı.***

***Hələ əsrin əvvəllərində Sabir yazırdı:***
***Ağladıqca kişi qeyrətsiz olur,***
***Necə ki ağladı İran oldu.***

**Bax:səh-2**

*Əbülfət MƏDƏTOĞLU*

## HAMIMIZIN EHTİYACI OLAN İŞIQ

**Bax:səh-8**

# İlham Əliyev Təhlükəsizlik Şurasının iclasını keçirdi



**Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə martın 5-də Təhlükəsizlik Şurasının iclası keçirilib.**

Adalet.az xəbər verir ki, dövlət başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

-Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir.

Birinci dəfə deyil ki, İran dövləti Azərbaycana və azərbaycanlılara qarşı terror aktları həyata keçirir. Hamımız yaxşı xatırlayırıq ki, bir müddət bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyi terror aktına məruz qalmışdır. Səfirliyə hücum çəkmiş İran xüsusi xidmət orqanları tərəfindən təlimatlandırılmış şəxs Azərbaycan vətəndaşlarına qarşı qanlı terror aktı törədib. Bunun nəticəsində bir vətəndaş həlak olub, bir vətəndaş isə ağır yaralanıb. Onu da bildirməliyəm ki, Azərbaycanın xüsusi xidmət orqanlarının əliyalın nümayəndəsi avtomat ”Kalaşnikov”la, ”Molotov” kokteyli və balta ilə silahlanmış terrorçunu zərərsizləşdirib. O vaxt da bizdə şübhə yox idi ki, bunu törədən İran dövlətidir. Çünki bu terror aktı həm səfirliyin içində, həm səfirliyin ətrafında, təqribən 40 dəqiqəyə qədər davam edirdi. Bu 40 dəqiqə ərzində bir dənə də olsun nə təhlükəsizlik, nə polis nümayəndəsi səfirliyə yaxınlaşmayıb. Aydın məsələ idi ki, Azərbaycanı qorxutmaq, Azərbaycana qarşı çirkin əməllərini həyata keçirmək üçün bu terror aktı İranın dövlət qurumlarının ən rəhbər mərtəbələrindən sifariş edilmişdir. Bildiyiniz kimi, o vaxt Azərbaycan bu hadisəyə çox sərt reaksiya vermişdi, Azərbaycan səfirliyi İrandan təxliyə edilmişdi, bütün diplomatik əlaqələr dayandırılmışdı. İran tərəfi bizdən üzr istəməyə, öz günahını etiraf etməyə məcbur olmuşdu. O terror aktını törədənə bizim təkidimizlə ən ağır cəza da verilmişdi. Hətta uzun müddət bu cəzanı həyata keçirməyə maraq göstərməyən, hətta cinayətkarı xilas etməyə çalışan İran dövləti məcbur olub terrorçunu Azərbaycan nümayəndələrinin gözü qarşısında edam etmişdi. Bu dəfə də cavab eyni olacaq. Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin.

Dəfələrlə İran tərəfinə, xüsusilə keçən il baş vermiş toqquşmalardan sonra bildirilmişdir ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Biz buna imkan verməyəcəyik, necə ki, heç vaxt bu günə qədər imkan verməmişik. Düzdür, keçən ilin yay aylarında və ondan sonrakı dövrdə İrandan bizə əsassız ittihamlar irəli sürülürdü. İranın dövlət qurumlarının nəzarətində olan media resursları Azərbaycanı ləkələmək, İranda yaşayan soydaşlarımızın fikrini dəyişdirmək üçün Azərbaycana qarşı çirkin, şər-böhtan kampaniyası aparırdı. Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir. Yəni bizi ləkələmək, bizi şərləmək, gözdən salmaq İran ictimaiyyəti qarşısında bu məqsədi güdürdü. Çünki bunun heç bir əsası yox idi. Azərbaycan nə o vaxt, nə də bu dəfə İrana qarşı olan əməliyyatlarda iştirak etmir və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar. Onların törətdiyi bu terror aktı bütün başqa çirkin amillərlə yanaşı, böyük nankorluq nümunəsidir. Son hadisələr baş verən kimi biz onlara xəbər göndərdik, başsağlığı verdik. Xarici işlər naziri mənim göstərişimlə həmkarı ilə danışdı. Mən onların səfirliyinə gedib başsağlığı vermək üçün öz mövqeyimi bildirdim. Halbuki məndən başqa heç bir dövlət başçısı İranın heç bir səfirliyinə getməyib. Yəni bunu qiymətləndirməmək, bunu yerə vurmaq, özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir. Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar. Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı ”Dəmir yumruq” vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək. Ona görə bu məsələ ilə bağlı tədbirlər planı hazırlanmalıdır. Bütün göstərişlər verilmişdir. İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırıldı, etiraz notası veriləcək, digər diplomatik addımlar atılacaq. Sərhədlə bağlı müvafiq göstərişlər verildi.

Onu da bildirməliyəm, bu gün səhər mənə məlumat verildi ki, İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək. Ona görə diplomatik yollarla bütün lazımi tədbirlər görüləcək. Bizim Silahlı Qüvvələrimiz - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr bir nömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar. Hələlik bu qədər.

Biz Azərbaycan xalqını proseslərin gedişatı ilə əlaqədar məlumatlandıracağıq. Müdafiə Nazirliyinin açıqlaması artıq mətbuatda dərc edilib. Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim ”Dəmir yumruğ”umuzu görəcək.

# Kəmaləddin Heydərov BMMT-nin sessiyasında iştirak etdi

**3 mart 2026-cı il tarixində Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) İcraiyyə Şurasının növbədənkənar sessiyası keçirilib.**

Adalet.az xəbər verir ki, onlayn formatda baş tutan tədbirdə Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, BMMT-nin Baş katibi Ərgüc Kələntərli, İcraiyyə Şurasının üzv dövlətlərinin nümayəndələri iştirak ediblər.

Növbədənkənar sessiyanın açılışında çıxış edən Baş katib Ə.Kələntərli BMMT-nin cari fəaliyyəti, institusional sabitliyin təmin edilməsi və inzibati proseslərin bərpası istiqamətində görülmüş işlər barədə geniş hesabat təqdim edib.



Baş katib Təşkilatın qərargahının Cenevrədəki ”Millətlər Dairəsi”nə köçürülməsi və beynəlxalq nüfuzunun möhkəmləndirilməsi istiqamətində atılan addımları xüsusi vurğulayaraq, regional ofislərin yaradılmasının BMMT-nin qlobal təmsilçiliyinin genişləndirilməsi baxımından əhəmiyyətindən danışıb.

Növbədənkənar sessiyada Təşkilatın kadr potensialının gücləndirilməsi, mandatının tam əhatəli icrası üçün kompleks reaksiya yanaşmasının tətbiqi, üzv dövlətlərdə həyata keçirilən humanitar layihələrin cari vəziyyəti, büdcə dayanıqlığının təmin edilməsi məqsədilə hazırlanan adaptiv büdcə modeli və üzvlük haqlarının yenilənmiş cədvəli müzakirə olunub.

Sessiya çərçivəsində yaxın gələcək üçün nəzərdə tutulan mühüm tədbirlər, o cümlədən 2026-cı ildə keçiriləcək BMMT Baş Assambleyasının 27-ci və İcraiyyə Şurasının 59-cu sessiyalarının təşkili, 2027-ci ildə BMMT-nin himayəsi altında keçirilməsi planlaşdırılan ilk genişmiqyaslı beynəlxalq sahə təlimləri barədə ətraflı məlumat verilib.

Növbədənkənar sessiyanın sonunda İcraiyyə Şurası tərəfindən 2026-cı ilin büdcəsi, Daimi Katibliyin yeni strukturu və Təşkilatın maraqlarının hüquqi müstəvidə qorunmasına yönəlmiş qərarlar qəbul edilib və sessiya işini şəffaflıq prinsiplərinə sadiqlik bəyanatı ilə yekunlaşdırıb.

# Qarabağ və Şərqi Zəngəzurda məşğulluq proqramları genişləndirilir

**İşğaldan azad edilmiş ərazilərə köçürülən sakinlərin aktiv məşğulluq proqramları ilə əhatə olunması tədbirləri davam edir.**

Bu barədə Adalet.az-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib.

Qeyd edilib ki, işğaldan azad olunmuş ərazilərimizdə fəaliyyət göstərən işəgötürənlərlə keçirilən növbəti görüşdə onlardan artıq 8673 şəxsin məşğulluğu təmin olunub, o cümlədən 754 sakin üçün isə özünüməşğulluq proqramı üzrə kiçik bizneslər qurulub. 383 sakin isə işəgötürənlərlə birgə təşkil olunan peşə kurslarına cəlb edilib.

Görüşdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Minatəmizləmə Agentliyi və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin nümayəndələri iştirak edib. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda icra olunan məşğulluq proqramlarının getdikcə genişləndirildiyini qeyd edib. O, azad edilmiş doğma yurdlarına köçürülən sakinlərdən əmək qabiliyyətli şəxslərin bu proqramlarla əhatə olunduqlarını bildirib. Nazir müavini məşğulluq proqramlarının uğurlu icrasında işəgötürənlərlə fəal əməkdaşlığın önəmini vurğulayıb.

İşğaldan azad edilmiş ərazilərə köçürülən və köçürülməsi nəzərdə tutulan vətəndaşların məşğulluğunun təmin olunması üçün işəgötürənlərlə birgə görülən işlərin nəticələri, bu istiqamətdə qarşıda duran vəzifələr müzakirə olunub.

AQİL ABBAS

# İRAN SARSAQLADI

***Əslində biz İranın sarsaqlamasını az qala qırx ildi bilirik, Ermənistan bizim torpaqları işğal eləyəndən. Amma biz həmişə qonşu münasibətlərimizi qorumağa çalışmışıq. İran da fikirləşir ki, biz ondan çəkinirik. Azərbaycan heç kimdən çəkinmir. Azərbaycan gücünü-qüdrətini və diplomatik səviyyəsini Vətən Müharibəsində göstərdi. Nəinki göstərdi, hətta Azərbaycanı sevməyənlərin gözünə soxdu. İndi İran bütün dünyayla üz-üzədi. Təkcə Amerika, İsrail deyil, NATO dövlətləriylə də. İrana az-çox xoş münasibət bəsləyən Azərbaycan idi. Hələ bir gün bundan qabaq Cənab Prezident İran səfirliyinə getdi və İran xalqına başsağlığı verdi, bu da onların cavabı.***

***Hələ əsrin əvvəllərində Sabir yazırdı:***

***Ağladıqca kişi qeyrətsiz olur,***
***Necə ki ağladı İran oldu.***

***Və bu qeyrətsizliyi onu viran da qoydu. İranın milli təhlükəsizliyinə cavabdeh olan ETTELAATın başı Azərbaycana narkotik daşıyanların müşayiətinə o qədər qarışdı ki, ölkənin təhlükəsizliyi yadından çıxdı. Hələ müharibənin şıdırığı vaxtında cənub bölgəsində dörd iranlı Azərbaycana narkotik keçirmək istəyərkən bizim Dövlət Sərhəd Xidmətinin əsgərləri ilə atışdılar və üstlərindəkini atıb qaçdılar. Ölkə müharibə edir, amma vətəndaşları narkotik qaçaqmalçılığı ilə məşğuldu.***

***Bu günlərdə Türkiyə televiziyasında bir ekspert maraqlı bir fikir söylədi, o qədər xoşuma gəldi ki: "İran vətəndaşları üçün İran ölkədi, amma biz türklər üçün Türkiyə Vətəndir".***

***İndi Azərbaycan bizim üçün Vətəndir, Vətənimizə çəp baxanı elə axırda çəpgöz edərik.***

***Türkiyəyə də raket atıb, sonra and içib ki, mən atmamışam. Azərbaycanda belə bir məsəl var: "P.. deyil, babam edib". Hər kim edibsə, babasının elədiyini özünə yedirdərlər.***

***Və İran unutmasın ki, orda 40 milyondan artıq Azərbaycan türkü yaşayır. Onlar da ayağa qalxsa darmadağın olmaqda olan İran bir dövlət kimi, bir ölkə kimi Daranın gününə düşər, ya da Keyxosrovun.***

***Və İran unudur ki, türklər bir ölür, min dirilir!***

***Tanrı Türkü qorusun!***

# Azərbaycan-İtaliya biznes və investisiya əlaqələri müzakirə edildi



**Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) uzun müddətdir əməkdaşlıq etdiyi İtaliyanın özəl səhmlərin idarə olunması üzrə aparıcı şirkətlərindən biri olan ”Fondo Strategico Italiano” (FSI) və onun təşəbbüsü ilə müxtəlif sektorları təmsil edən, eləcə də Azərbaycan bazarında əməkdaşlıq imkanlarını dəyərləndirən italyan şirkətlərinin nümayəndə heyətinin ölkəyə səfəri çərçivəsində ”Azərbaycan - İtaliya biznes və investisiya əlaqələri” mövzusunda tədbir keçirilib.**

Adalet.az bu barədə ARDNF-yə istinadən xəbər verir.

ARDNF-nin inzibati binasında baş tutmuş tədbir iki ölkə arasında strateji investisiya tərəfdaşlığının dərinləşdirilməsi, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə birbaşa işgüzar əlaqələrin qurulması və dayanıqlı iqtisadi əməkdaşlıq platformasının yaradılması məqsədi daşıyıb. Tədbirdə bir sıra dövlət qurumlarının rəhbər nümayəndələri, eləcə də Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) dəstəyi və koordinasiyası ilə cəlb olunmuş özəl sektorun yüksək səviyyəli təmsilçiləri iştirak ediblər. Tədbirin açılış mərasimində ARDNF-nin İcraçı direktoru İsrafil Məmmədov, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Anar Axundov və İtaliya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Luka Di Canfrançesko çıxış ediblər. Daha sonra AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev və ”FSI”-in baş icraçı direktoru Maurizio Tamagnini isə təqdimatla çıxış edərək iki ölkə arasında investisiya əməkdaşlığının prioritet istiqamətləri barədə ətraflı məlumat veriblər. Çıxışlarda Azərbaycan və İtaliya arasında iqtisadi münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri, prioritet sektorlar üzrə investisiya imkanları, əlverişli biznes mühiti və institusional əməkdaşlığın genişləndirilməsi məsələlərinə toxunulub. Tədbir müddətində iştirakçılar arasında qarşılıqlı müzakirələr aparılıb, konkret sektorlar üzrə əməkdaşlıq imkanları dəyərləndirilib və ikitərəfli görüşlər təşkil olunub.

# Leyla Əliyeva: Əgər Xəzər çətin vəziyyətdədirsə, demək ki, dünya ekosistemi təhlükə altındadır

**Xəzər dənizi qlobal ekosistemin güzgüsüdür. Adalet.az xəbər verir ki, bu barədə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasında bildirib.**

IDEA İctimai Birliyinin rəhbəri deyib ki, istənilən fəaliyyət müzakirə olunarkən, ətraf mühitin qorunması hər zaman prioritet olmalıdır.

O qeyd edib ki, dünya tarixi enerji keçidi dövrünü yaşayır: "Bəli, təbii qazın qlobal enerji təhlükəsizliyində mühüm rolunu qəbul edirik. Lakin ölkəmiz daha təmiz enerjiyə doğru irəliləməlidir. Fosil yanacaqların hava, su və vəhşi təbiətə vurduğu zərəri görməzlikdən gələ bilmərik".

Leyla Əliyeva vurğulayıb ki, hər il hava çirklənməsi milyonlarla insanın həyatına son qoyur, uşaqların böyük əksəriyyəti zəhərli hava ilə nəfəs alır, okeanların əhəmiyyətli hissəsi isə insan fəaliyyəti nəticəsində çirklənməyə məruz qalır.



IDEA rəhbəri çıxışının əsas hissəsini Xəzər dənizinə həsr edib: "Xəzər dənizi təkcə bizim və sahilyanı ölkələrin problemi deyil. Əslində, Xəzər daha geniş qlobal ekosistemin güzgüsüdür. Əgər Xəzər çətin vəziyyətdədirsə, demək ki, dünya ekosistemi də təhlükə altındadır".

O əlavə edib ki, Xəzər dənizinin səviyyəsinin ildən-ilə azalması ciddi narahatlıq doğurur: "Ancaq mən pozitiv düşüncəyə inanıram. Əminəm ki, birlikdə çalışaraq Xəzərin səviyyəsinin yenidən qalxmasına nail ola bilərik və onun Aral və Urmiya kimi yox olmasına imkan verməmərik. Lakin hərəkətə keçmək üçün zaman məhz indidir".

Leyla Əliyevanın sözlərinə görə, Xəzər dənizinin heyvanat aləmi təhlükə altındadır: "Son yüz ildə Xəzər suitilərinin sayı 1 milyondan 200 minə düşüb".

O qeyd edib ki, milyonlarla insanın yaşayışı, limanlar və gündəlik iqtisadi fəaliyyətlər də bu prosesdən təsirlənir.

Leyla Əliyeva çıxışı zamanı Azərbaycanın "yaşıl enerji" istiqamətində atdığı addımlara da toxunub: "Ölkəmiz bərpa olunan enerji layihələrinə fəal şəkildə sərmayə yatırır və "yaşıl enerji" mərkəzinə çevrilməyi hədəfləyir".

Leyla Əliyeva IDEA İctimai Birliyinin həm Azərbaycanda, həm də beynəlxalq səviyyədə təbiətin qorunması istiqamətində geniş layihələr həyata keçirdiyini xatırladıb: "Layihələrimiz milyonlarla ağacın əkilməsi, nəsli kəsilməkdə olan heyvan növlərinin qorunması və gənclərin ekoloji maarifləndirilməsini əhatə edir".

# "Biz bu ədalətsizliyə məruz qalanda heç kim onu aradan qaldırmadı..."

**"Bütün insanlar bir dünyada yaşayır. Dinsizi, imansızı, ateisti, deisti, xristianı, pravoslavı, Allahsızı, imanlısı. Bu dünya təkcə Yer planeti deyil, həm də fəlsəfi baxımdan ontoloji məna daşıyır. Yəni dünya mövcud olan hər şeydir - kainat, həyat, insan və zaman. Biz bu mənalar sistemində yaşayırıq. Dünya yaxşılıq, pislik, ədalət və ədalətsizlik kimi anlayışlarla qarşılaşdığımız bir sistemdir və bu mənalar hər bir insanın dərk etdiyi formada qiymətləndirilir. Hər insanın özünün bir iç dünyası var. Nə baş verirsə, o iç dünyada baş verir və insan özünü ona uyğunlaşdırır. İnsanlar dünyanı da o cür uyğunlaşdırmaq və elə görmək istəyirlər. Vahid qəbul olunmuş bir insan kriteriyası olmadığına görə biz də dünyada yaxşılıq və pisliyin qarşı-qarşıya durduğu sistemdə yaşamağa məcburuq".**

Bunu Adalet.az-a açıqlamasında "Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, vahid sistem qurmaq üçün bütün insanların müdrik olması lazım gəlir, bu isə qəti şəkildə mümkün deyil: "Dini baxımdan dünya müvəqqəti imtahan yeri kimi qiymətləndirilir, amma bu imtahandan çoxu kəsilir. Ona görə də son ədaləti bu dünyada az görürük. Siyasi mənada dünya beynəlxalq sistem deməkdir. Dövlətlər, güc balansı, müharibələr, ittifaqlar, mərkəzlər, maraqlar və s. Məsələn, United Nations dünya nizamını qorumaq üçün yaradılıb. O nizam həqiqətən nizamla qorunurmu? Subyektiv fikrimcə, xeyr. Səbəb isə budur ki, bu dünya gücün və maraqların toqquşduğu bir sistemdir. Müasir texnologiyalar artıq elə həddə çatıb ki, insan faktoru, insan dəyəri və insanın təsir imkanları tədricən minimuma enir və bu, qaçılmazdır. Çünki insanlar paralel olaraq o inkişaf tempindən geridə qalır. Burada mənəvi boşluqdan söhbət gedir və bu da nizamın pozulmasına gətirib çıxarır. Fyodor Dostoyevsky deyir ki, insanlar Tanrını deyil, onun yaratdığı dün-



yanı, yeni ədalətsizliyi qəbul etmir". R.Hüseynov deyib ki, biz bu ədalətsizliyə zaman-zaman məruz qalmışıq və heç kimsə onu aradan qaldırmadı:

"Hətta ədalət dəyərlərindən bəhs edən dövlətlər belə, dövlət olaraq üzləşdiyimiz çoxşaxəli və genişmiqyaslı ədalətsizliyə müdaxilə etmədi. Lakin biz özümüzə gəldik, milli kimliyimizi dərk etdik və bunun üçün çox ağrılı bir yol keçdik. O uzun yolda ədalətimizi bərpa etmək üçün müdrikcəsinə siyasi planlarımızı həyata keçiririk. Bunun üçün bütün mənəvi dəyərləri özündə cəmləşdirmək lazım idi. Bunun üçün ağıllı olmaq lazım idi, güclü olmaq lazım idi, qətiyyətli, prinsipial və ədalətli olmaq lazım idi. Dövləti idarə edən şəxsiyyət bütün bu müsbət keyfiyyətləri özündə cəmləşdirərək tarixi bir ədalət yazdı. Həmin tarixi ədalət minilliklər boyu siyasi tarix konsepsiyasında yer alacaq və dünyanın siyasi konspekti kimi istifadə olunacaq. Bu ədalət bizimdir, bu haqq bizimdir.Biz xalq olaraq ümidsizliyə qapıldığımız bir dövrü keçdik. Qəzəbli və hər şeydən imtina etmiş, passiv yolun başlanğıcında idik. Sonradan aktiv mövqe tutduq, diplomatik akademiya yaratdıq və "bu dünyada ədalət tərəfdarı olacağıq" şüarı ilə yeni bir yola başladıq. Nəticədə xalqımızın hüquqlarını və haqlarını bərpa etdik. O yeni yol İlham Əliyevin düşündüyü və həyata keçirdiyi bir zəfər yolu idi. Əslində biz gördük ki, problem dünyanın özündə deyil, dünyada yaşayan insanların davranışındakı qüsurlardadır. Qlobal və beynəlxalq miqyasda mövcud olan bu qüsurları biz öz davranışımızla aradan qaldırdıq. Dəfələrlə cənab Prezident beynəlxalq tribunalardan bu haqsızlığa son qoyulmasını, bu ədalətsizliyin diplomatik mədəniyyət çərçivəsində aradan qaldırılmasını tələb etdi. Lakin bu baş vermədi. Həmin tələblər o zaman zəiflik kimi qəbul olunurdu. Halbuki heç kim anlamırdı ki, bu, vicdanın ən yüksək formada təqdimatı idi. Bəli, biz qlobal ədaləti idarə edə bilmədik. Amma öz ədalətimizi və haqqımızı davranışımızla, vicdanımızla və ləyaqətimizlə idarə edərək bərpa etdik. Dünya nizamını qoruması öz üzərinə götürən United Nationsın insan hüquqlarının müdafiəsi ilə bağlı rəsmi öhdəlikləri var. Lakin bu öhdəliklərin heç biri yerinə yetirilmədi. Bir veto hüququ ilə ədalətli qərarların qarşısını almaq, əslində, ən böyük ədalətsizlikdir". O, bildirib ki, lakin "Dəmir yumruq", dəmir iradə, dəmir qətiyyət və dəmir müdriklik bizə qarşı olan ədalətsizliyə bir həmlə ilə cavab verdi və ədalət vetosu qoydu:

"Sosial ədalətsizliklər insan qərarlarının nəticəsidir. Təbiətən insan safdır. Uşaq ədalətsizliyi görəndə dərhal "bu düz deyil" reaksiyası verir. Amma cəmiyyətə qoşulduqdan sonra dəyişilə və pozula bilir. Biz cəmiyyətimizi saflaşdırmışıq və arzu edirik ki, pozulanlardan deyil, vicdanlı olanlardan olaq. Vaxtında və yerində hər prosesi düzgün qiymətləndirə və qərar verə bilək. Necə ki, 44 günlük Vətən müharibəsində qərar verdik. İndi Azərbaycanda sağlam ağıl və düzgün düşüncə sahibləri bu düşüncədən çəkinməlidir ki, pozulmuş sistem ailəsinə daxil olmasın. Orada olanları artıq itirdik və hadisələr göstərir ki, onların geri qayıdışı mümkün deyil. Onlar üçün ölkədə hər cür şərait yaradıldı. Dialoq, siyasi həmrəylik, milli həmrəylik istiqamətlərindən istifadə imkanı verildi. Lakin bu imkanlardan imtina edənlər hələ də mövcuddurlar. Axı onlara necə etibar etmək olar.Hazırda dünyada yeni dünya qurmaq istəyənlər artıq heç bir hüquq və ədalət normalarını tanımırlar. Biz isə yeni qazandığımız, bərpa olunan ədalətimiz və vicdanımızla öz dövlətimizi, böyük düşüncə sahibi İlham Əliyevin ətrafında sıx birləşməklə qorumalıyıq. İndi siyasi fanatizm və populizm vaxtı deyil. İndi siyasi sağlamlıqla reallığı analiz etmək vaxtıdır. Hər şey Azərbaycan üçün. Hər şey Vətən üçün".

**Vasif ƏLİHÜSEYN**

## Deputat: "Qadınlar ilk uşaq dünyaya gələndən sonra aliment almaq üçün boşanırlar"



**"Azərbaycanda nikahların və boşanmaların vəziyyəti ürəkaçıcı deyil. Acınacaqlı durum var. 2025-ci ilin 9 ayı ərzində 40 min nikahdan 17 mini boşanma ilə nəticələnib".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsinin müzakirəsi zamanı deputat Fazil Mustafa deyib.

Onun sözlərinə görə, ən dəhşətlisi budur ki, son 9 ayda Bakıda bütün qeydə alınmış nikahların 56%-i boşanma ilə nəticələnib: "Yəni, 100 nəfər evlənən olubsa, onun 56-sı boşanıb. Bu, olduqca ciddi məsələdir. Ağırlığı kişinin üzərinə qoyub aliment kəsirlər. Bir çox vaxt qadınlar məqsədli şəkildə ilk uşaq dünyaya gələndən sonra aliment almaq üçün boşanırlar. Mediasiya Şurasın səlahiyyət verməliyik ki, məhkəməyə bu qadınların və ya kişilərin niyyəti ilə bağlı rəy versinlər və aliment kəsilməsi məsələsində ədalətli davransınlar. Çünki bir çox hallarda ailənin dağılmasının səbəbkarını ayırd eləmək olmur".

## "Məzun iş axtarmalı deyil, iş yeri açmalıdır"



**Bu gün əsas trend odur ki, məzun iş axtarmamalıdır, məzun iş yeri açmalıdır. Bu gün "Sabahın alimləri" olaraq ayrı-ayrı layihələri təqdim edirsiniz. Siz layihələrinizi innovasiyaya çevirmək üçün məhsula çevirə bilməlisiniz. Məhsulunuz səmərə gətirərsə, o zaman innovasiyadır.**

Adalet.az xəbər verir ki, bunu elm və təhsil nazirinin müavini Firudin Qurbanov "Sabahın alimləri" XV Respublika Layihə Müsabiqəsinin milli final mərhələsinin rəsmi açılış mərasimində deyib.

O bildirib ki, "Sabahın alimləri" layihəsi elm, yaradıcılıq, innovasiyalarla bağlıdır: "Müasir dövrdə daha çox müasir texnologiyaları inkişaf etdirən ölkələr ABŞ, Çin, Yaponiya və Cənubi Koreyadır. Bu ölkələr texnoloji sistemin beşinci səviyyəsində yaşayır. Texnoloji sistemin altıncı səviyyəsi 2035-ci illəri əhatə edəcək.

Qeyd etdiyim ölkələr altıncı texnoloji sistemə yaxınlaşıblar. Bu gün ən yüksək texnoloji istiqamət süni intellektlə bağlıdır. Hazırda dünyada 600 mindən çox robotlaşmış sistemlər, 4 milyondan çox robot var. Bu gün 10 min işçiyə Cənubi Koreyada 1100 robot düşür.

Süni intellekt insanlara düzgün yol göstərməyə çalışır. O, mənfi obraz yox, müsbət obrazdır. Sizdən tələb olunur ki, süni intellektə düzgün sual verəsiniz və o sizə düzgün yol göstərsin".

## Ötən il Ombudsmanın müraciətləri əsasında 21 məhkum əfv edilib



**Ombudsman il ərzində məhkumların və onların ailə üzvlərinin əfv barədə müraciətlərini nəzərə alaraq, müntəzəm qaydada Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasına təkliflərini göndərib və Komissiyanın iclaslarında iştirak edib.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsinin müzakirəsi zamanı Ombudsman Səbinə Əliyeva deyib.

"Ombudsmanın müraciətləri əsasında ümumilikdə 900 məhkum, 2025-ci ildə isə 21 məhkum əfv edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsinə dair təşəbbüsü dövlətin humanizm siyasətinin ardıcıl və sistemli şəkildə davam etdirilməsinin bariz nümunəsi oldu.

Bu təşəbbüs əsasında Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş sayca 13-cü olan Amnistiya aktı ümumilikdə 20.000-dən çox şəxsi əhatə etməklə, bu zamana qədər qəbul edilmiş ən geniş miqyaslı amnistiya aktı kimi tarixə düşdü", - deyə S.Əliyeva qeyd edib.



Səxavət Məmməd

# ABŞ-İsrail-İran müharibəsi: İran ətrafında əslində nə baş verir?

**İran - İsrail/ABŞ müharibəsi gözlənildiyi kimi tərəflərin bir-birinə ağır zərbələri ilə davam edir. ABŞ və İsrail İranın paytaxtını, rəhbər şəxslərini hədəf alır; hərbi obyektlərə raketlərdən və aviabombalardan zərbələr endirir. İran tərəfi isə Fars körfəzindəki ABŞ-nin və digər Qərb ölkələrinin hərbi bazalarını, İraq Kürdüstanını və İsraili hədəfə alıb. Bunu qeyd etməsəm, irad tutula bilər: ABŞ və İsrail hərbi əməliyyatlar zamanı təkcə hərbi obyektləri yox, eyni zamanda mülki obyektlərə də zərbələr endirib. Qızların oxuduğu məktəbin vurulması danılmaz faktdır. İsrail ərazisində də mülki obyektlərin vurulması barədə faktlar var.**

**Gələk müharibənin hazırkı vəziyyətinə. İlk gün də qeyd etdim ki, İranın məqsədi təkcə İsrail və ABŞ-yə cavab vermək yox, eyni zamanda müharibəni şaxələndirməkdir. Müharibəni şaxələndirmək nəyə lazımdır?**

**Əvvəla qeyd edim ki, İran endirdiyi zərbələrlə nəinki ərəb ölkələrini, eyni zamanda Yunanıstanı, Böyük Britaniyanı, Fransanı da proseslərə qoşub. Təbii ki, adı çəkilən ölkələr İrana hücum etmir. Misal üçün, Fransa imzaladığı müqavilələr gərəyi ərəb ölkələrini müdafiə edir. İran Hizbullahı prosesə qoşmaqla ABŞ və İsrailin gücünü parçalamağı hədəfləyir. Belə ki, İsrail tərəfi məcburiyyətdən Livana qarşı hərbi əməliyyatlar həyata keçirir. Colan təpələri istiqamtinə isə əlavə qüvvə toplayır. Eyni zamanda, hazırkı Suriya hakimiyyəti Hizbullahdan gələ biləcek təhlükəni önləmək üçün Livan sərhədinə minlərlə raket və canlı qüvvə cəmləyib və bunu da narkotiklə mübarizə adı altında həyata keçirdiyini bəyan edir. Dolayısı ilə, İran bu məsələdə istədiyinə nail desək, yanılmarıq.**

**Müharibənin ilk günü qeyd edirdim ki, İranın Ərbili vurmasının əsas səbəblərindən biri kürd qruplaşmalarına verilən mesaj idi, həm də İraqdakı şiə qruplarını aktivləşdirməyə xidmət edirdi. Yeri gəlmişkən, bəzi kürd qrupları İran sərhədini keçməyə cəhd edib və onların dronlarla, minaatanlarla sıradan çıxarılması yönündə video görüntülər yayılıb.**

**ABŞ tərəfinin də kürd qruplarını silahlandıracağı yönündə iddialar var. ABŞ-nin onsuz da buna gedəcəyi gözlənilən idi. Ona görə də İran qabaqlayıcı addımlar atırdı. Qeyd edirdim ki, bu müharibə uzun müddət kontaktsız şəkildə davam edə bilməz. Quru əməliyyatları olacaqsa, bu mütləq şəkildə İraq ərazisində olacaq. İraqda kürd qrupları da, şiə qrupları da kifayət qədər güclüdür. İndidən quru əməliyyatlarının son dərəcə ağır olacağını təxmin etmək mümkündür. Əgər kürd qrupları hərəkətə keçərsə və təhdid yaranarsa, onlara qarşı Türkiyənin prosesə qoşulmaq ehtimalı var. Nəzərə almaq lazımdır ki, kürd problemi Türkiyə, Suriya və İraqın ortaq problemidir.**

**Kürd qrupları İran daxilində hansısa problem yarada bilərmi? Mümkün variantdır. Ancaq onu da qeyd etməkdə fayda var ki, İran Müdafiə Nazirliyinin quru qoşunları, SEPAH, SEPAH-a bağlı bəzi korpuslar və sayı milyondan çox göstərilən "Bəsic"lər var. Faktiki, İranın canlı qüvvələri hazırda fəaliyyətsizdir. Onların döyüşlərə hazırlaşdığı ehtimalı yüksəkdir. Ərazisi böyük olan ölkələrin manevr imkanları da çox olur. Ona görə də İran daxilinə münaqişənin sıçraması ilə prosesin kontroldan çıxma ehtimalı yüksək görünmür. Ancaq İraqdakı şiələr, türkmənlər və Suriyadakı türkmənlər də müharibəyə cəlb olunarsa, bu, son dərəcə qanlı bir savaşla nəticələnəcək.**

**Müharibədən əvvəl Hindistan baş nazirinin İsrailə səfər etməsi, ardınca Talibanın Pakistan sərhədində aktivləşməsi onu göstərdi ki, ABŞ və İsrail "Taliban kartı"ndan da istifadə etmək istəyib. Ancaq Pakistanın ağır zərbələri Talibanı susqunluğa məhkum etdi. Reallıq ondan ibarətdir ki, Taliban İran sərhədində də aktivləşə bilər. Hesab edirəm ki, İran üçün, dolayısı ilə Pakistan üçün ən böyük baş ağrısı Bəluclar ola bilər. Hindistan-Pakistan arasında toqquşma baş verərsə və Bəluclar da aktivləşərsə, bunun əvvəlcədən ssenariləşdirildiyi ortaya çıxacaq. Bəluclar isə təkcə İran və Pakistanın yox, eyni zamanda Əfqanıstanın da əsas problemidir. Bu məsələ aktivləşərsə, ABŞ və İsrail də İranın qüvvələrini parçalamış olacaq. Yəni eyni zamanda həm kürd qrupları, həm də bəluclarla döyüşmək məcburiyyəti yaranacaq.**

**ABŞ və İsrailin əlində kifayət qədər güclü raketlər, aviasiya vasitələri və HHM sistemləri var. Ancaq geridə qalan günlər onu göstərdi ki, İran təkbaşına hər iki ölkə ilə başa-baş savaş apara bilir. Nəinki başa-baş savaş aparır, müharibəni də şaxələndirir. Əsas məsələ odur ki, İran öz coğrafiyasında döyüşür. Sual yarana, yaxud irad tutula bilər ki, İranın ali dini lideri, ordunun strateji postda oturan 40-dan çox rəhbər şəxsi öldürüldü. Nəticə var? Bu, müharibənin seyrini, gedişini dəyişibmi? Qətiyyən. Ümumiyyətlə, Şərqlə Qərbin müharibə fəlsəfəsi fərqlidir. Şərqdəki müharibələrdə insanlar öləndə "şəhidlik" statusu qazanır. Yəni ölməyə hazır olan, cənnətə gidecəyini düşünən insanı ölümlə təhdid etmək nə qədər məntiqlidir?**

**Hesab edirəm ki, ABŞ və İsrail eynən Rusiyanın Ukraynada qısa müddətdə nəticə əldə edəcəyini düşündüyü kimi prosesə başladılar. Bunu yazmağımın müəyyən səbəbləri var. Artıq ABŞ okeanın o üzündən sursatlar daşımağa başlayıb. Deyənlər olacaq ki, burada anormal heç nə yoxdur. Bəli, onsuz da bunun anormal olduğunu yazmıram. Yəni bir əməliyyat planlananda nə qədər sursatdan, hansı silahlardan istifadə ediləcəyi əvvəlcədən müəyyən edilir. Yeri gəlmişkən, 12 günlük İran-İsrail toqquşmasının 9-cu günündən etibarən İsrail tərəfi helikopterlərlə İran dronlarını "ovlamağa" başlamışdı. Biz yazanda ağız əyirlər, Qərbin analitikləri də bunu HHM sistemlərinin raketlərinin tükənməsi ilə əlaqələndirirdilər. Artıq İsrail İran dronlarının ovuna müharibənin 3-cü günündən helikopterlərlə çıxmağa başlayıb. İsrail də fərqindədir ki, proses uzanacaq.**

**Hesab edirəm ki, İranın müqaviməti artdıqca və davam etdikcə, ABŞ və İsrail tərəfi yeni şeylər düşünmək məcburiyyətində qalacaqlar. Əlavə olaraq qeyd edim ki, ABŞ-nin kürd qruplarını aktivləşdirməsi məsələsi də bir növ "tükənmə" ehtimalı ilə bağlıdır. Qeyd etdiyim kimi, sursat tükənməyən sərvət deyil. Rusiya-Ukrayna müharibəsi ilə bağlı NATO-nun keçmiş baş katibi dəfələrlə bildirmişdi ki, onların anbarları boşalır. Avropanın bir neçə ölkəsi də bunu etiraf etmişdi. Patriot raketləri ilə bağlı ABŞ-nin açıqlamaları məlumdur. Ona görə də bəluc, taliban və kürd faktoru əsas karta çevriləcək.**

**Müharibədən öncə də dəfələrlə yazırdım ki, İran Hörmüz boğazını bağlayacaq. Bir çoxları buna istehza ilə yanaşırdı, "Çinə görə etməz" deyirdi. Bu insanlar bir şeyi anlamır ki, ölüm-dirim savaşına girən ölkə hansısa ölkənin iqtisadiyyatını düşünməz.**

# "Bir həftədən sonra İranın nə ilə müqavimət göstərəcəyi maraqlıdır"

**"İsrail və ABŞ zərəbələri qarşısında İranın hava hücumundan müdafiə qoşunları kifayət qədər zəif təəssürat bağışlayır. Amma İranın dron və raket zərbələri qismət effektivdir. Bəzi zərbələrin qeyri-dəqiq olmasını və hədəfdən kifayət qədər böyük miqyasda yayınmasını nəzərə almasaq, bəzi raketlər hədəflərinə, o cümlədən də ABŞ-nin hərbi bazalarının olduğu ölkələrin ərazisində yerləşən hədəflərə gedib çatır və müəyyən ziyanlara, dağıntılara səbəb ola bilir".**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib.

O, bildirib ki, Hömrüz boğazının bağlanmasının xəbərlərinin dərhal ardınca ABŞ aviasiyası intensiv bir şəkildə İranın hərbi dəniz qüvvələrinə qarşı əməliyyatlara başladı və qısa müddətdə yeddi gəminin batırıldığına dair məlumatlar əldə edildi:

"İranın hərbi siyasi rəhbərliyində 50-dən çox insanın məhv edilməsinə baxmayaraq İran öz müqavimət potensialını hələ də qoruyub saxlayır. Müharibənin ilk günündə təxminən raket potensialının iyirmi faizini istifadə edən İran, eyni intensivliklə maksimum bir həftəyə qədər ABŞ və İsrailə qarşı, o cümlədən onların yaxın Şərqdə və İran ətrafında yerləşən ölkələrdəki hərbi bazalarına zərbə imkanlarını qoruyub saxlayacaq. Bir həftədən sonra İranın nə ilə müqavimət göstərəcəyi maraqlıdır. Əgər biz "Şahid" və "Mühacir" PUA-larını nəzərə almasaq, o zaman İranın gələn həftənin sonundan sonra daha çox öz qüvvələrini qorumaq üçün hansı addımları atacağı da maraq doğurur".



Ə.Verdiyev deyib ki, İran nə qədər tez ABŞ-nin tələblərini yerinə yetirməyə razı olsa, bir o qədər itkiləri az olacaq:

"Xatırladıram ki, hər iki tərəf mülki obyektə zərbələr endirib. Bunlardan biri Tehrandakı Qızlar məktəbi və digəri isə mülki xəstəxana olduğu bildirilir. Amma İranın zərbələri nəticəsində çoxsayda ticarət mərkəzləri, otellər və ABŞ ilə əlaqəsi olmayan digər obyektlərə də zərbələr endirib ki, bu da digər ölkələrin İrana qarşı müharibəyə qoşulması ehtimalını artırır. Həmin ölkələr də bu barədə artıq bəyanat səsləndirsələr də real olaraq döyüş əməliyyatlarında hələlik birbaşa iştirak etmirlər".

Hərbi ekspertin sözlərinə görə, İran qonşuluqda olan bir çox ölkələri özünə düşmən etməyi bacardı:

"Halbuki həmin ölkələr öz ərazilərində ABŞ bazalarını yerləşdirməkdə əsas məqsədləri İrandakı molla rejiminin təhdidlərindən qorunmaqla birbaşa əlaqəli idi. İstənilən halda intensiv və genişmiqyaslı müharibə davam edir. Müharibəyə ABŞ yeni bombardımançı "B-2 Spirit" təyyarələrini də daxil edib. Bu müharibədə İranın qələbə qazanmaq şansı sıfra bərabərdir. Ona görə də nə qədər tez İran ABŞ şərtlərini qəbul edərsə, bir o qədər də itkilərin, dağıntıların, fəlakətlərin miqyası bir qədər də az olar".

**Ömər**

# "Əgər bu müddət ərzində istəyinə nail olmasa, vəziyyət daha da gərginləşəcək..."



**"İran və ABŞ arasında davam edən müharibənin dərhal dayandırılıb tərəflərin danışıqlar masasına qayıtması üçün beynəlxalq təşkilatların hərəkətə keçməsi önəmlidir. Xüsusən BMT-nin müdaxiləsi və böyük güclərin təşəbbüsü lazımdır. İranın Yaxın Şərqdə ərəb ölkələrində yerləşən ABŞ hərbi bazalarını vurması, hətta diplomatik nümayəndəliklərə zərərin vurulması kimi hallar vəziyyəti daha da gərginləşdirir. Nəticədə ərəb ölkələrinin də müharibəyə qoşulmasına şərait yaranır".**

Bunu Adalet.az-a açıqlamasında siyasi şərhçi Tural İrfan deyib.

O, bildirib ki, Bu da müharibənin geniş coğrafiyaya yayılması deməkdir:

"İranda siyasi liderlərin aradan görülməsinin sistemin çökməsinə səbəb olacağı ehtimalı zəif görünür. Əksinə Yaxın Şərqdə nüfuza sahib olan liderlərin qətli İslam aləmini çalxalayır. Pakistan, Hindistandan bəri bir çox ölkələrdə ABŞ və İsrailin əleyhinə nümayişlər, etirazlar baş qaldırır, bəzi hallarda səfirliklərə və diplomatik nümayəndəliklərə də hücumlar baş verir. Hörmüz boğazının bağlanması, Səudiyyə Ərəbistanında neft istehsalı mənbələrinin vurulması dünya iqtisadiyyatına təsirsiz ötüşməyəcək, neftin qiymətinin dəyişməsi ilə digər problemlər də meydana çıxacaq. ABŞ isə bəyan edir ki, müharibə maksimum dörd həftə davam edə bilər. Beləliklə, əgər bu müddət ərzində istəyinə nail olmasa, vəziyyət daha da gərginləşəcək".

T.İrfanın sözlərinə görə, İranın və proksi qüvvələrinin İsrailə hücumları Yaxın Şərqdəki proseslərdə mənfi rol oynayacaq:

"İranda ABŞ ilə razılaşmağa hazır olan liderin ortaya çıxması zəminində müharibənin dayanacağı ehtimal olunur. Sözü gedən lider hakimiyyətin içindən də çıxa bilər. Lakin bu çox çətindir və buna ehtimal azdır.

Bombardman altında əhalinin ayaqlanması ehtimalı da azdır. Görünən odur ki, ABŞ hakimiyyətin dəyişməsinə qısa müddətdə nail ola bilməyəcək. Şəxslərin aradan götürülməsi sistemin sıradan çıxması demək deyil. Yeganə yol etibarlı vasitəçi vasitəsi ilə danışıqlar masasına qayıtmaqdır. Bunu təmin etmək üçün də əsas məsuliyyət BMT-nin üzərinə düşür".

**Vasif**

# "Bu qərar rəqəmsallaşma prosesini daha planlı və koordinasiyalı edəcək..."

**"Rəqəmsallaşma artıq imic və ya texnoloji dəb çərçivəsini aşarasq, iqtisadi modelin əsas dayaqlarından birinə çevrilir. Xaricə tez-tez səfər edənlər yəqin təsdiq edər ki, inkişaf etmiş hesab olunan bir çox dövlətlərlə müqayisədə Azərbaycanda elektron xidmətlərin əlçatanlığı, dövlət xidmətlərinin inteqrasiyası və rəqəmsal platformaların gündəlik həyata tətbiqi daha çevik və sistemli qurulub".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

"Bu gün imzalanan fərmanla Rəqəmsal İnkişaf Şurasının yaradılması isə prosesi növbəti mərhələyə keçirir. Yəni siyasətin mərkəzləşdirilmiş koordinasiyası, süni intellekt və innovasiya sahəsində vahid strateji yanaşma və normativ bazanın təkmilləşdirilməsi kimi məsələləri nəzərdə tuturam. Ümid edirəm ki, bu qərar rəqəmsallaşma prosesini daha planlı və koordinasiyalı edəcək və ölkənin texnoloji inkişafına real təkan verəcək", - deyə o, bildirib.

**Sübhan**

*Rüstəm Hacıyev*



# İran münaqişəsi regionda təhlükə yaradacaq..?

**ABŞ və İsrailin İrana qarşı başladığı müharibə, getdikcə Yaxın Şərqə doğru irəliləməkdədir. "Hizbulla" İsrailə raket zərbəkəri endirir, TSAXAL cavab olaraq, Livanın cənubunda hərbi əməliyyatlar keçirir, İran amerikan və ingilis hərbi bazalarına, həmçinin Səudiyyə Ərəbistanın və Qətərin neft-qaz yataqlarına raket zərbələri endirir.**

**Hörmüz boğazı və Oman körfəzi ətraflnda ən azı üç tankeri aldığı zərbədən ziyan görüb. İranın İsrail HHQ-i qərərgahına da raket zərbələri endirməsi barədə məlumatlar yayılıb.**

**Görünən odur ki, Yaxın Şərq dünya müharibəsi ərəfəsindədir. Müharibənin qığılcımları onun əhatəsoni həm şərqə, həm də qərbə doğru genişləndirə bilər.**

**İranın maliyyələşdirdiyi "Hizbullah" və "Ənsar Allah" təşkilatları bu müharibədə İranın tərəfində dayanacaqlarını bəyan ediblər. Daha bir terror təşkilatı kimi tanınan "Hüsi"lər də Qırmızı dənizdə gəmilərə hücumlarını bərpa edəcəklərini bildiriblər. Livanın iranpərəst qüvvələri Əli Xomeyninin intiqamını almaq məqsədiylə İsdrail ərazilərinə dron və raketlərlə hücum edirlər.**

**Hərbi ekspertlər vəziyyətin daha da gərgiləşməsi, müharibənin əhatəsinin genişlənə bilməsi riskinin artacağını proqnozlaşdırırlar.**

**ABŞ prezidenti daha əvvəl İranın yeni rəhbərliyinin onunla görüşmək istədiyini və onların bu istəklərini qəbul etdiyini bəyan etsə də, İran rəsmiləri Ağ Ev rəhbərinin bu bəyənatını təsdiqləmirlər. Əksinə, qətlə yetirilən Ali din rəhbərlərinin intiqamını alanadək mübarizə aparacaqlarını bilddirirlər.**

**On illərdi İranın hərbi texniki və maliyyə dəstəyi ilə fəaliyyət göstərən "Hizbullah" təşkilatı İranı itirməmək üçün, təkcə İsrailə deyil, həmçinin Liviya üçün də daha ciddi təklükələr yarada bilər.**

**Beləliklə, ABŞ prezidenti Donald Trampın Yeni Yaxın Şərq yaratmaq konsepsiyası hansı nəticələrə gətirib çıxara biləcəyi sualı hələ də açıq qalmaqdadır.**

**Dünya xəritəsində yeni dövlətlər meydana çıxacaqmı? Və ya, Yaxın Şərqdə hansısa dövlətin rolunun artırılmasının şahidi olacağıqmı sualının cavabları hələ ki, açıq qalır...**

## "Pakistan-Əfqanıstan müharibəsi Çinin birbaşa maraqlarına toxunur..."

**"Böyük Britaniya müstəmləkə siyasətindən imtina edərkən yeni yaranan dövlətlər arasında sərhədləri elə müəyyənləşdirib ki, 100 il sonra da münaqişələr davam edir. Afrikanın bir qrup ölkəsi arasında sərhəd düz xətlə çəkilib, Pakistanla Hindistan arasında Kəşmir iki hissəyə bölünüb, Pakistanla Əfqanıstan arasındakı sərhəd isə 1893-cü ildə "Dürand xətti" deyilən prinsiplə müəyyənləşib ki, hər iki tərəf indiyənə qədər bir-birini sərhəd pozuculuğunda ittiham edir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, nə qədər ki, iki ölkə arasında sərhədin müəyyələşməsiylə bağlı razılıq yoxdur, Pakistanla Əfqanıstan arasında gərginlik azalmayacaq:

"Hazırki müharibə uzun sürməyə bilər, Türkiyə iki dövlət arasında atəşkəsə çalışır, xarici işlər naziri Hakan Fidan pakistanlı və əfqan həmkarlarıyla telefonla danışıb. Atəşkəs müvəqqəti xarakter daşıyacaq. Bölgədəki gərginlik Pakistan və Əfqanıstandan keçməsi planlaşdırılan nəqliyyat dəhlizlərini sual altında qoyur".

Politoloq bildirib ki, Çin Pakistanla strateji tərəfdaş olmaqla yanaşı Pekinin Əfqanıstanın resurslarından və nəqliyyat imkanlarından istifadə etmək planları var:

"Pekin Talibanla müxtəlif müqavilələr imzalayıb. Qərb liderləri Pekindən xahiş edirlər ki, Çin lideri Si Cinpin rusiyalı həmkarı Vladimir Putinə təsir edərək, Kreml sahibinin Ukraynaya qarşı işğalçı müharibəsini dayandırsın. Si Cinpin bunda maraqlı deyil. Çünki, Rusiya-Ukrayna müharibəsi Çinin iqtisadi gücünə təhlükə yaratmır, əksinə Pekin Rusiyadan ucuz neft və qaz alır.

Pakistan-Əfqanıstan müharibəsi isə Çinin birbaşa maraqlarına toxunur. Ona görə də, mümkündür ki, Pekin də Ankara kimi bu iki dövlət arasında gərginliyin azaldılması üçün vasitəçilik təşəbbüslərinə başlasın. Ancaq vasitəçilik təşəbbüsünün uğur qazanması yenə Əfqanıstan-Pakistan sərhədinin qeyri-müəyyənliyinə dirənəcək".

**Vasif**

# Ali Məhkəmə: Şəxs yalnız məhkəmə hökmü qüvvəyə mindikdən sonra məhkum sayıla bilər

**Təqsirsizlik prezumpsiyası şəxsin barəsində qanuni qüvvəyə minmiş ittihamedici hökm olmadan onun təqsirliliyinə dair təsdiqedici ifadələrin işlədilməsi və ya məlumatların yayılmasını qadağan edir. Bu qadağa ibtidai istintaq və məhkəmə istintaqının aparıldığı dövrü də əhatə edir. Bu o deməkdir ki, yalnız şəxsin məhkum edilməsi barədə məhkəmənin hökmü varsa və həmin hökm qanuni qüvvəsini almışsa şəxs cinayət əməlini törətməkdə təqsirli bilinir.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikası Ali Məhkəməsi ilk dəfə olaraq təqsirsizlik prezumpsiyası hüququnun pozulması ilə bağlı mühüm məqamları "Şəxsiyyət hüquqlarının müdafiəsi" haqqında Plenum Qərarında açıqlayıb.

Təqsirsizlik prezumpsiyasının əsas məqsədi cinayət mühakiməsi üzrə icraatı həyata keçirən şəxslərə (təhqiqatçı, müstəntiq, prokuror, hakim) əsassız təzyiq və təsirin qarşısının alınmasına, şəxsin obyektiv şəkildə mühakimə olunmasına nail olmaqdır.

Bu baxımdan, xüsusən mediada yazılar dərc edilərkən də bu məsələyə diqqət yetirilməli, şəxsin təqsirliliyinə dair qanuni qüvvəsini almış hökm olmadan onun tərəfindən hər hansı cinayətin törədilməsi ilə bağlı təsdiqedici ifadələrdən çəkinilməlidir.



Konstitusiyanın 63-cü maddəsi ilə təminat altına alınmış təqsirsizlik prezumpsiyasının pozulması 2 halın eyni anda mövcudluğu ilə şərtləndirilir: şəxsin barəsində qanuni qüvvəyə minmiş ittihamedici hökmün olmaması; şəxsin cinayət əməlinin törədilməsində təqsirliliyinə dair təsdiqedici ifadələrin işlədilməsi və ya məlumatların yayılması

Məsələn. Mediada "A adlı şəxsin B şəxsinə münasibətdə dələduzluq edərək, onun 10.000 manat məbləğində vəsaitini talamışdır." və ya "A adlı vəzifəli şəxs B adlı şəxsin işlə təmin edilməsi məqsədi ilə ondan 100.000 manat məbləğində rüşvət almaqla, korrupsiya cinayətini törətmişdir." məzmunda məqalənin dərc edilməsi, "A" adlı şəxs barəsində qanuni qüvvəyə minmiş məhkəmənin ittihamedici hökmü yoxdursa, onun təqsirsizlik prezumpsiyasını pozur. Təqsirsizlik prezumpsiyası hüququna qanunsuz müdaxilə edilmiş şəxs həm bu hüququn müdafiəsi üsullarının tətbiqi, həm də bu hüququn pozulmasından irəli gələn mənəvi zərərin kompensasiyası tələblərini irəli sürə bilər.

Təqsirsizlik prezumpsiyası hüququnun pozulması şəxsin şərəfinin, ləyaqətinin və işgüzar nüfuzunun ləkələnməsi ilə nəticələndiyindən, onun müdafiəsi üsullarını da şərəf, ləyaqət və işgüzar nüfuzun müdafiəsi üsulları (biri və ya bir neçəsi tətbiq oluna bilər) təşkil edir: pozuntunun təsbit edilməsi; pozuntunun qarşısının alınması (məlumatın yayılmasının qarşısının alınması, qadağan edilməsi); pozuntunun aradan qaldırılması (yayılmış məlumatların təkzib edilməsi, silinməsi, onlara düzəliş edilməsi və ya cavabın verilməsi, üzr istənilməsi, hüquq pozuntusu barədə məhkəmə qərarının mediada dərc edilməsi və s.); digər üsullar. (məsələn, şərəf, ləyaqət, şəxsi və işgüzar nüfuzu ləkələyən məlumatları yaymış şəxsin, yəni cavabdehin müəyyən edilməsi mümkün olmadıqda hüquq pozuntusu barədə məhkəmə qərarının mediada dərc edilməsi üsulu).

Şəxs, təqsirsizlik prezumpsiyası pozulduğu andan sadalanan tələbləri irəli sürə bilər. Şəxs barəsində sonradan ittihamedici hökm çıxarılaraq qanuni qüvvəsini alsa belə, tələb hüququ aradan qalxmır. Çünki, cinayət əməlinin törədilməsi ilə bağlı təsdiqedici ifadələrin işlədildiyi və ya məlumatların yayıldığı vaxt qanuni qüvvəyə minmiş hökm mövcud olmamışdır.

Təqsirsizlik prezumpsiyası hüququnun cinayət mühakiməsi icraatının hansı mərhələsində pozulması isə vurulmuş mənəvi zərərin həcmi baxımından əhəmiyyətlidir. Məsələn, ibtidai araşdırma mərhələsi ilə müqayisədə cinayət işi üzrə birinci instansiya məhkəməsində ittiham hökmünün çıxarılmasından sonra şəxsin cinayəti törətməsinə dair təsdiqedici məlumatların yayılması ona daha az həcmdə mənəvi zərərin vurulmasına səbəb olacaqdır.

# "Rusiya-Ukrayna müharibəsi Çinin iqtisadi gücünə təhlükə yaratmır..."

**"Böyük Britaniya müstəmləkə siyasətindən imtina edərkən yeni yaranan dövlətlər arasında sərhədləri elə müəyyənləşdirib ki, 100 il sonra da münaqişələr davam edir. Afrikanın bir qrup ölkəsi arasında sərhəd düz xətlə çəkilib, Pakistanla Hindistan arasında Kəşmir iki hissəyə bölünüb, Pakistanla Əfqanıstan arasındakı sərhəd isə 1893-cü ildə "Dürand xətti" deyilən prinsiplə müəyyənləşib ki, hər iki tərəf indiyənə qədər bir-birini sərhəd pozuculuğunda ittiham edir". Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. Onun sözlərinə görə, nə qədər ki, iki ölkə arasında sərhədin müəyyələşməsiylə bağlı razılıq yoxdur, Pakistanla Əfqanıstan arasında gərginlik azalmayacaq:**



"Hazırki müharibə uzun sürməyə bilər, Türkiyə iki dövlət arasında atəşkəsə çalışır, xarici işlər naziri Hakan Fidan pakistanlı və əfqan həmkarlarıyla telefonla danışıb. Atəşkəs müvəqqəti xarakter daşıyacaq. Bölgədəki gərginlik Pakistan və Əfqanıstandan keçməsi planlaşdırılan nəqliyyat dəhlizlərini sual altında qoyur. Çin Pakistanla strateji tərəfdaş olmaqla yanaşı Pekinin Əfqanıstanın resurslarından və nəqliyyat imkanlarından istifadə etmək planları var. Pekin Talibanla müxtəlif müqavilələr imzalayıb". O, bildirib ki, Qərb liderləri Pekindən xahiş edirlər ki, Çin lideri Si Cinpin rusiyalı həmkarı Vladimir Putinə təsir edərək, Kreml sahibinin Ukraynaya qarşı işğalçı müharibəsini dayandırsın:

"Si Cinpin bunda maraqlı deyil. Çünki, Rusiya-Ukrayna müharibəsi Çinin iqtisadi gücünə təhlükə yaratmır, əksinə Pekin Rusiyadan ucuz neft və qaz alır. Pakistan-Əfqanıstan müharibəsi isə Çinin birbaşa maraqlarına toxunur. Ona görə də, mümkündür ki, Pekin də Ankara kimi bu iki dövlət arasında gərginliyin azaldılması üçün vasitəçilik təşəbbüslərinə başlasın. Ancaq vasitəçilik təşəbbüsünün uğur qazanması yenə Əfqanıstan-Pakistan sərhədinin qeyri-müəyyənliyinə dirənəcək".

**Vasif ƏLİHÜSEYN**

# Su Kanal İdarəsi qəzanı aradan qaldırmır...

**Biz görmüşük ki, bir qəza baş verən kimi aidiyyəti xidmət sahəsi bir neçə saat ərzində o qəzanı aradan qaldırır. Amma Suraxanı Su Kanal İdarəsi belə deyil.Çünkı qəza ilə bağlı məlumat verilir, günlər , həftələr keçsə də gəlib mövcud nöqsanları aradan qaldırmırlar. Fakta istinad edək. Suraxanı rayonu Yeni Günəşli yaşayış sahəsinin " D" massivindəki 13 nömrəli binada kanalizasiya xəttində yaranmış qəzadan sonra zirzəmini çirkab sular basıb.**

Oradan çəkdiyimiz görüntüləri də ələqədar qurumun diqqətinə çatdırırıq.Zirzəmini çirkab sular basması ilə bağlı 13 -cü binanın sədri Fərman müəllim dəfələrlə Su Kanal İdarəsiini məlumatlandırıb, sifarişlər verib. Axırıncı dəfə isə martın 1-də aidiyyəti quruma müraciət edib.Çünki çirkab suyun səviyyəsi tədbir görülmədiyinə görə günbəgün artır.Marrın 2- də isə zirzəmidən gedən istilik xəttində qəza yaranıb. "Azəristiliktəchizat" ın Suraxanı rayon sahəsinin əməkdaşlara çirkab suyun əlindən zirzəmiyə girib qəzanı aradan qaldıra bilmirlər.

Sahə rəisi Məhəmməd müəllim deyir ki, gərək Su Ka-



nal İdarəsi çirkab suları təmizləsin bundan əməkdaşlarımız təmir işləri apara bilsin.

**O sular təmizlənməyənə qədər zirzəmidə təmir işləri görə bilməyəcəyik.Ona görə də baş vermiş qəza ilə əlaqədar " Azəristiliktəchizat" ın əməkdaşları 13 nömrəli binanın1-ci blokundan 5- ci blokuna kimi istiliyin verilməsini dayandırıblar.Binanın sakinləri isə bu soyuq havada istilik almadığına görə aidiyyəti qurumdan narazılıq edir , yuxarı təşkilatlardan kömək istəyir. Əgər Su Kanal İdarəsi mövcud nöqsanları vaxında aradan qaldırsaydı, binaya istilik verilməsi də dayandırilmazdı.Bir sözlə, hər iki adını çəkdiyimiz qurum zəhmət çəkib qəzanı aradan qaldırmalıdır. Çünki bina sakinləri hər ay həmin təşkilatlar su pulu, istilik pulu ödəyir!!!**

**Emil FAİQOĞLU**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Kəndinə oxşayan adam...

...Dünyada o adam xoşbəxtdir ki, heç kimə yox, öz kəndinə, öz elinə, öz torpağına oxşayır... Təbii ki, öz torpağına oxşayan insanı Allah və el-oba da çox istəyir... Mənim tanıdığım və lap çox istədiyim yazıçı, şair, publisist, dramaturq, böyük ziyalı, böyük insan Seyran Səxavət də belə şəxsiyyətlərdəndir. Çünki Seyran Səxavət göy üzü kimi təmiz, bulaq suyu kimi duru bir yazardı. Elə mənim ailəm, övladlarım və nəvələrim də buna görə onu çox istəyirlər. Allah and olsun, onlar Seyran müəllimi həyatda görməyiblər, ancaq televizorda görüblər.

Səmimi, bal kimi şirin danışdığına görə onu çox istəyirlər. Bunu Seyran qardaşımız da gözəl bilir. Çünki mənə zəng edib, hal-əhval tutanda birinci balalarımı, nəvələrimi soruşur. Və bu səmimiyyətinə görə, mənim də balalarım ona "Seyran Səxavət yox, Seyran əmi" - deyirlər. Onu əmiləri Qürbət qədər, Elxan qədər çox istəyirlər. Və bir də ona görə çox istəyirlər ki, onların dayısı, uzun müddət Füzuli rayon Məhkəməsinin sədri işləmiş Məmməd Kərimovla möhkəm dost olublar. Məmməd Kərimov Azərbaycan məhkəm sistemində xüsusi çəkisi olan, ən ədalətli hakimlərdən biri olub və bu gün də Füzuli camaatı onu böyük hörmətlə xatırlayır. Çünki harda hakim işləyibsə, heç vaxt haqqı nahaqqa verməyib.



Seyran müəllimlə Məmməd Kərimovun dostluğu rəhmətə gedən kimi davam edib. Seyran Səxavət rayona gələndə ona çox adam qonaqlıq vermək istəyirdi. Ancaq ən çox çörək kəsdiyi insanlar Məmməd Kərimov, poçtalyon Qadir və Adil Hacıyev idi. Onlar üçü bir yerdə "Cənlibel"də və Füzulinin digər gözəl məkanlarında o qədər çörək kəsiblər ki! Seyran Səxavətin böyük yazıçı kimi bir-birindən gözəl şeirləri, hekayələri, romanları, povestləri, müsahibələri var. "Daş evlər", "Nekroloq", "Qızıl teşt", "Qaçaqaç" , "İt intervüsü" və ən nəhayət " Ağdamda Qədir Rüstəmovla atüstü söhbət"...

Bu bədii əsərlərin hər biri Azərbaycan ədəbiyyatında ədəbi hadisədir. Və bir də Seyran Səxavətin nəinki əsərləri, hətta hər cümləsi, hər deyimi belə ədəbi hadisədir. Bizim böyük müəllimimiz, BDU-nun professoru, yazıçı-publisist, tənqidçi rəhmətlik Qulu Xəlilov hər dəfə mühazirələrində deyərdi ki, Azərbaycan dilinin zənginliyin, şirinliyin və koloritin bilmək istəyirsinizsə, mütləq Süleyman Rəhimovu, Mirzə İbrahimovu, Əli Vəliyevi oxuyun. Biz də həmin yazıçıların romanlarını, povestlərini, hekayələrini oxuyub gördük ki, Qulu müəllim düz deyirmiş, onlar Azərbaycan dilini nə qədər zənginləşdirib, nə qədər şirinləşdiriblər. Bax Seyran Səxavətin də əsərləri Azərbaycan dilini belə zənginləşdirib, bal qatıb. Çünki o, xalqın dilində yazır və danışır.

Seyran Səxavət deyir ki, bir dəfə mamamgildə (Qarabağda atanın bacısına mama deyirlər) idim. Gördüm çöldə hamı danışır, amma bir qadına danışmağa imkan vermirlər. Buna mamam dözməyib dedi: "Aaz, imkan verin bu gəlin də sözün desin dana. Axı, söz ağzında iyləndi"! Bir dəfə bunu dilimizlə bağlı yığıncaqda dedim. Dedim ki, professor siz deyilsiniz ey, professor mənim mamamdı...

Seyran Səxavət Azərbaycan mətbuatı tarixində şedevr bir müsahibə qələmə alıb: "Ağdamda Qədir Rüstəmovla atüstü söhbət. "Bu yazı ötən əsrin 70-ci illərində "Ulduz" jurnalında dərc olunub. Çox unikal və qeyri-adi bir müsahibədir. Orada bir epizod yadıma düşür: " Qədir, sən və vaxt sevinirsən?" Cavab verir: "Balalarım sevinəndə mən də sevinirəm!..." Nə qədər səmimi və nə qədər orijinal bir cavab! Əgər bir ata övladın sevindirə bilmirsə, bundan acı həyat yoxdur. Övladın üzü gülürsə, bax onda ata xoşbəxt olur.

Bu müsahibə yenidən çap olunmalı və jurnalistika fakültələrində tədris olunmalıdır. Çünki bu gün mediada belə müsahibələr yoxdu... Çox şirin, səmimi danışan adam görmüşəm, amma Seyran Səxavət kimi şirin danışan adam görməmişəm. Onun televiziyalardakı çıxışına baxan və dinləyən hər adam onun bal kimi şirin söhbətinə heyran olur... Belə ki, onun hər çıxışı, hər söhbəti möhtəşəm bir mənzərə yaradır. Düşünürsən ki, ancaq bu sözləri Seyran Səxavət deyə bilər.

Seyran müəllimin çox hikmətli deyimləri var. Birini yada salaq: "İnsan hər şeyə yaltaqlana bilir, ancaq ölümə yaltaqlana bilmir...". Vallah, Seyran müəllim, insan ölümə də yaltaqlanır, amma bu dünyada olduğu kimi, Allahı aldada bilmir. Bəzi adamlar elə bilirlər ki, Allaha yaltaqlanıb Cənnətə düşəcək, yaxud da ölümdən xilas olacaq! Ancaq belə deyil; hər bir əməlin haqq-hesabı var!

Seyran müəllim, Siz 80 il şərəflə, kişi kimi yaşamısınız. Və heç bir qüvvə Sizi əyə bilməyib! Çünki həmişə haqqın, ədalətin, dürüstlüyün, insanlığın, sevginin, işığın yanında olmusunuz. Və ən nəhayət xalqın içində olmusunuz , dövlətə və xalqa namusla xidmət etmisiniz. Və heç vaxt paxıllıq, xəyanət nə olduğunu bilməmisiniz, qələmə xəyanət etməmisiniz! Ona görə də xalq öz kəndinə, öz torpağına və özünə oxşayan adamı - Seyran Səxavəti çox istəyir. Manaf Ağayevin sözü olmasın, "səni bağrıma basıb öpürəm"! Səksənin mübarək!!! Amma sizə səksən yox, maşallah, əlli yaş vermək olar! Çünki ruhunuz, ürəyiniz, qəlbiniz təmizdir! Sizin barənizdə 75-də yazdım, 80-də yazıram və Allah ömür versə, 90-da da yazaram!!!

## Pul insanı korlamır...



**Elə adamlar var ki, əlinə pul gələndən sonra dəyişir. Daha doğrusu, varlanandan bir azca keçən kimi gözü ayaqlarının altını görmür. Hətta ən çətin gündə ona kömək edən adama belə yuxarıdan aşağı baxır, saymır.Bernad Şounun gözəl bir deyimi var: "Pul insanı korlamır, sadəcə onun kim olduğunu göstərir.**

Və bir də əsli- kökü olan adamlar nə qədər varlansalar da , heç vaxt dəyişmirlər, əksinə bir qədər də sadə və səxavətli olurlar. Mən yadıma bir hadisə düşür. Ötən əsrin 90-cı illərində İmişlidə pambıq zavodunun direktoru vardı: Məmi Atakişiyev.Çox alicənab, mərd , səxavətli və vətənpərvər bir ziyalı idi. Hər gün onun yanına maddı köməklik üçün yüzlərlə adam gəlirdi. Onların arasında şəhid ailələri, qazilər , məcburi qaçqın və köçkünlər, xəstə adamlar daha çox idi. O böyük insan qəbula gələnləri təbəssümlə , sevgi ilə qarşılayar, kömək edər, bir adamı diqqətdən kənar qoymazdı.Bir dəfə olsun belə kömək istəyən adamlara alnın turşutmadı.Hamı da bu mehriban və səmimi insana yaxşılığına görə dualar edir, ölənlərinə rəhmət oxuyardı. Onun kimi çoz Pambıq Zavodların direktoru vardı.Amma onlar Məmi müəllim kimi deyildi.Bunu biz demirik . O bölgədən olan bütün insanlar danşırlar. Və o yaxşılıq heç kəsin yadımdan çıxmayıb! Xeyirxah işlərinə görə bu gün də hamı ona dua edir.Bu hadisəni ona görə yada saldım ki, pul əsli- kökü olan adamları dəyişdirmir. sadəcə pul görməmişlərin kim olduğunu göstərir!!!

## Adam var ki...



**On bir ayın sultanı Ramazan artıq həyatımıza daxil olub və biz bu gün onun sevincini yaşayırıq. Deyirlər ki, bu ayda edilən duaları Allah daha tez qəbul eləyir. Nə gözəl! Allah bütün olunan dualarımızı qəbul etsin. İndi nə qədər insan bu gözəl ayda Oruc tutur, dualar edir, xeyirxah işlər görür!!! Bunlar hamısı çox gözəldir.**

Amma Oruc tutan adamın gərək gözü, dili, qulağı , əli də Oruc olsun! Əgər Oruc tutub tamahını özünə tabe edirsənsə, bu, çox yaxşıdır. Ancaq Oruc tutub, qeybət edirsənsə, gözünlə zinaya yol verirsənsə, əlinlə rüşvət alırsansa, qulağın pis sözlər eşidirsə, yalan danışırsansa elə bu, hardasa, Orucun pozulması deməkdir! Adam var ki, Ramazanda Oruc tutmur, ancaq on iki ay Orucdur.

Yəni tamahının əsiri deyil, kiminsə haqqına girmir, qeybət eləmir, zinaya yol vermir, bir sözlə, hamıya , yetimə- yesirə, aca- yalavaca, kasıblara, şəhid ailələrinə, qazilərə , xəstələrə kömək edir. Bunu hamı görür,lakin özü bu xeyirxah işlə bağlı bir kəlmə də danışmır və Allah da həmişə belə insanların mükafatın verir. Bax ,Oruc tutanda belə savab işlər görmək lazımdır. Belə insanların duaları da Allah-təala tərəfindən hər vaxt qəbul olunur!!!

## Xaşın ürəyə ziyanı var, ya yox?



**Bizim millətin ən çox sevdiyi yeməklərdən biri də xaşdır. Onun ən yaxşı yeyilmə vaxtı payız və qış aylarıdır. Adam var soyuq aylarda hər gün olmasa da, həftədə iki-üç dəfə xaş yeyir.**

Məşhur bir kardioloq bir dəfə dedi ki, tez - tez xaş yeyən adamlar ANJ-u olunsa, onların ürək damarlarının tam tutulması faktları ortaya çıxar. Amma bəzi həkimlər buna, yəni xaş yeməyə fərqli yanaşır.Düzdür, bu yeməyin tərkibində çoxlu miqdarda xolesterin var.Lakin onun tərkibində insan orqanizmi üçün xeyirli maddələrdə var.

Hələ üstəlik , xaş sümükləri möhkəmləndirir.Ona görə də , belə xəstələrə həkimlər bir çox hallda xaş yeməyi məsləhət görürlər. Kardioloq - həkim, tibb elmləri üzrə fəlsəfə doktoru Rafiq Yusifli deyir ki, xolesterin insan bədənində elə- belə yaranmır.Qara ciyərdə gedən maddələr mübadiləsi zamanı pis və yaxşı xolesterin yaranır.

Heç bir qida insan orqanizminə ziyan deyil.Sadəcə olaraq onu normaya uyğun qəbul eləmək lazımdır. Ən gözəl və dadlı yemək belə normadan artıq deyiləndə insanı narahat edir. Böyük Nizami Gəncəvi çox gözəl deyib:" Bir inci saflığı varsa da suda,Artıq içiləndə dərd ver o da..." İndi bax xaş da belədir. Normaya uyğun yeyiləndə heç bir narahatlıq olmur, ancaq qırmızı xətti keçəndə narahatlıq başlayır! Ümumiyyətlə,hər insan öz qida rasionuna diqqət yetirməlidir. Xüsusilə də, səhhətində problemi olanlar, ürək-damar, diabet və mədə- bağırsaq xəstələri pəhrizə əməl etməli, həkim məsləhətinə qulaq asmalıdırlar!!!

## Sakinlər kommunal borcu ödəmirlər



**Ötən əsrin 80- ci illərində inşa edilmiş doqquz mərtəbəli əksər kooperativ binalarda yaşayan sakinlərin bir çoxu kommunal xidmətlərə olan borclarını ödəmirlər. Bunun da obyektiv və subyektiv səbəbləri var. Amma gəlin, onunla razılaşaq ki, pul ödənilməməsinin başlica səbəbi subyektiv amillərdir.**

İşığın, qazın, suyun pulu əksər sakinlər tərəfindən ödənilir. Çünki o borclar ödənilməyəndə mənzillərə bu enerjilərin verilməsi bir qayda olaraq dayandırılır. Təəssüf ki, istilin verilməsində yığılan borclara görə, onu dayandırmaq mümkün deyil. Belə ki, istilik sayğacı yoxdur və belə vəziyyət yarananda gərək bütün binanın, yaxud da blokun istiliyi kəsilsin. Bu addım da atılanda digər pul ödəyən abonentlərin hüquqi pozulur və onlar haqlı narazılıq edirlər.

Bunlar hamısı aydındır. Ancaq aydın olmayan odur ki, Yeni Günəşli yaşayış sahəsinin"D" massivi, bina 13-ün sakinlərinin əksəriyyətinin istiliyə və məişət tullantılarının daşınmasına, həyətin təmizlənməsinə, binanın və blokların işıqlandırılmasına böyük məbləğdə borcları var. Bu barədə Mənzil Tikinti Kooperativinin sədri Fərman müəllim öz narahatlığını bildirdi. O dedi ki, binamızın Lift İdarəsinə və Mənzil Kommunal Təsərrüfatı Birliyininə borcu var. Sakinlər borcu ödəmədiyinə görə,bəzən məlum qurum məişət tullantılarını aparmır və nəticədə antisanitariya yaranır. Biz sakinlər arasında nə qədər maarifləndirmə işləri aparsaq da ,bunun elə bir nəticəsi olmur. Ən yaxsı halda 144 mənzildən .30-40 məişət tullantılarına olan borcları ödəyir.

Ayrı sakinlərlə söhbətimiz zamanı onlar deyirlər ki,imkanımız yoxdur,pensiya alanda pul verərik. Amma heç imkanı olanlar da , məişət tullantılarına olan borcların ödəmir və nəticədə sədr kimi mən çıxılmaz vəziyyətə qalıram! Aidiyyəti qurumlar isə bizdən borcların tələb edir. Camaatı da başa düşürük ey, gərək onlar bizi başa düşsünlər!!!

## Bazarlara yolunuz düşsə...



**Hələ Novruz bayramına bir ay qalmış bütün kənd təsərrüfatı və ərzaq məhsullarının qiyməti artıb. Bunun üçün Məşədi İbad demişkən "Tarixi- Nadiri" yarısına qədər oxumaq lazım deyil.**

Elə sadəcə Bakının hər hansı bazarına baş çəkmək kifayət edir! Mən də Su çərşənbəsi günü ən ucuz qiymətə məhsullar satılan 8- ci Kilometr bazarına üz tutdum. Qoz , fındıq, badam, şabalıd, kişmis, eləcə də mer- meyvələr, kartof, soğan, ət və ət məhsulları , balıq çox baha qiymətə satılırdı.

Adı günlərdə kiloqramı 3 manat, 3 manat 50 qəpiyə satılan köbələk, Su çərşənbəsində 4 manat, 4 manat 50 qəpiyə satılırdı. Hələ bayrama bir ay var , ha! Görün bayrama bir həftə qalmış bu məhsulların qiyməti nə qədər olacaq? Yəni bütün bazarlarda qiymətlər od tutub yanır.

380 manat pensiya alan insanlar bu bahalıqda hansı pulla bayram sovqatı ala bilər? Söhbət ondan gedir ki,həmişə olduğu kimi, bazarlarda və marketlərdə sünü qiymət artımı var. Və insanlar da bundan çox narazıdırlar. Aidiyyəti dövlət qurumları isə bu mənzərəni görür və hər bayramda olduğu kimi susur.8- ci Kilometr bazarının ətrafında küçə ticarəti də tüğyan edir. İcra orqanları isə buna göz yumur! Çox təəsüf !!!

Emil FAİQOĞLU



# Uşağa ad qoymaqla bağlı yeni qayda

**Uşağın vətəndaşlıq və ad almaq hüququ yeni qanunla müəyyən edilir.**

Adalet.az xəbər verir ki, bu barədə məsələ Milli Məclisin iclasında müzakirəyə çıxarılan "Uşaq hüquqları haqqında" yeni qanun layihəsində əksini tapıb.



Qanun layihəsinə əsasən, hər bir uşaq doğulduqdan sonra onun doğumu Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq qeydiyyata alınır və o, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, vətəndaşlıq əldə edir.

Uşağa ad Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq verilir. Mövcud qanuna əsasən isə, uşağa ad valideynlərinin qarşılıqlı razılığı ilə, valideynləri olmadıqda isə qəyyumluq orqanlarının razılığı və ya göstərişi əsasında verilir.

Ailə Məcəlləsinə əsasən isə, uşağa ad valideynlərin razılığı ilə verilir, ata adı atasının adına görə verilir.

Uşağın soyadı, bir qayda olaraq, valideynlərin soyadı ilə müəyyən edilir. Uşağın valideynlərinin soyadları müxtəlif olduqda uşağa valideynlərin razılığı ilə atanın və ya ananın soyadı verilir. Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Valideynlər arasında uşağın ad və soyadına münasibətdə razılıq olmadıqda yaranan fikir ayrılığı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həll olunur.

Atalıq müəyyən olunmadıqda uşağa ad ananın göstərişi ilə, ata adı bu Məcəllənin 46.3-cü maddəsinə uyğun olaraq uşağın atası kimi qeydə alınan şəxsin adına görə, soyad isə ananın soyadına görə verilir.

Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq III oxunuşda qəbul edilib.

# "Yaxın şərqdə yaşananlar isə Azərbaycanın enerji təhcizatının əhəmiyyətini daha da artırır"

**"Avropanın illik qaz tələbatı 500 kubmetrdən çoxdur. Azərbaycan isə 2025-ci ildə hasil etdiyi 51,5 milyard kubmetr təbii qazın 12,8 milyard kubmetrini TAP ilə Avropaya ixrac edib. Bu isə Avropa təlabatının cəmi 2,5%-i deməkdir. Sual yaranır. Bəs onda niyə Avropa ölkələri belə kiçik paya görə Azərbaycandan qaz idxalına bu qədər maraq göstərirlər?".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, bunun bir məntiqli cavabı var:

"Azərbaycan öz enerji resurslarindan siyasi alət kimi heç bir ölkəyə qarşı istifadə etmir. Etibarlıdır. İmzasına sahibdir. Ərazisi və kəmərləri təhlükəsizdir. Yəni ki, həcm baxımından az olsa da, onun qaz təhcizatı davamlıdır, dayanıqlıdır, risklər minimaldır. Elə buna görə də bu gün Gülüstan sarayında TAP AG şirkətinin icraçı direktoru Luka Skiepatti deyib kİ, Trans-Adriatik Boru Kəməri, yəni TAP üzrə kommersiya fəaliyyətinin başlanmasından bu günə qədər infrastrukturdan istifadə edən qaz daşıyıcılarının sayı 3-dən 47-yə yüksəlib. (Qaz ixrac etdiyimiz ölkələrin sayı isə 16-ya çatıb və onların 10-u Avropa İttifaqının üzvüdür.) Yaxın şərqdə yaşananlar isə Azərbaycanın enerji təhcizatının əhəmiyyətini daha da artırır. Qaz qiymətlərinin dinamikasına gəldikdə isə hər min kubmetr üçün 700 dollar, hətta min dollara qədər yüksəlmə ehtimalı vardı. Təbii ki, bu iqtisadi əsaslı deyil, hərbi-siyasi əsaslı ehtimaldır. Amma bütün hallarda bu yüksəlişin uzunmüddətli olacağını düşünmürəm".

**Vasif ƏLİHÜSEYN**

# "Bu, Trampın ABŞ daxilində mövqelərini xeyli gücləndirəcək"

**"Diplomatiyanın "qızıl qayda"sıdır: danışıqlar masasından minimum nəticəylə qalxmaq üçün stol arxasına maksimum tələblərlə əyləşməlisən! Hazırda böyük gərginliklərlə müşayiət olunan ABŞ-İran danışıqlarında da hər iki tərəf eyni qaydanı tətbiq edir. Reallıqda isə ABŞ-yə İranın hərbi nüvə proqramını dayandırmaq, İrana isə iqtisadiyyatını çökdürmüş sanksiyalardan tezliklə yaxa qurtarmaq gərəkdir! Hər iki tərəf də qarşısındakının nəyə daha çox ehtiyacının olduğunu, daxili siyasi vəziyyətini və anlaşma zamanının xeyli daraldığını gözəl anlayır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şükürlü deyib.

Onun sözlərinə görə, özünü təkcə ABŞ-nin yox, bütün dünyanın xilaskarı sayan, narsist xarakterli prezident Tramp üçün əvvəlki amerikalı prezidentlərin çox çalışdıqları, ancaq bacarmadıqları bir problemi həll etmək - İranın nüvə silahına sahib olmasının qarşısını almaq fövqəladə dərəcədə üstünlük gətirəcək bir məsələdir:

"Çünki respublikaçı və ya demokrat olmasından asılı olmayaraq, ABŞ-də yaxşı anlayırlar ki, şiə məzhəbli İranın nüvə silahı əldə etməsi zəncirvari qaydada sünni məzhəbli Türkiyə, Səudiyyə Ərəbistanı və Misirin də nüvə texnologiyasına sahiblənmək istəyini stimullaşdıracaq və beləcə, birdən-birə İslam coğrafiyasının 5 aparıcı ölkəsinin nüvə dövlətinə çevrilməsinə gətirib çıxaracaq. Bu isə təkcə İsrailin sonu deyil, zəngin sərvətlərə və strateji coğrafiyaya sahib Yaxın və Orta Şərqin gələcəkdə xristian və yəhudilərin təsirindən tam çıxması deməkdir.



İranın nüvə proqramını dayandırmağı bacarsa, Tramp bütün xristianları və yəhudiləri müsəlmanlardan xilas etdiyi təbliğatıyla ABŞ-dəki Konqres seçkilərində respublikaçıların qələbəsini təmin etməyə və impiçment təhlükəsini də aradan qaldırmağa müvəffəq ola bilər".

O, bildirib ki, Trampın ABŞ-də mövqeyinin güclü olması isə indi hamıdan çox Rusiya prezidenti Putinə gərəkdir:

"O Putinə ki, Trampın timsalında ABŞ-ni Rusiyanın nəinki Ukraynada, gələcək dünya nizamında da rolunu və maraqlarını qəbul edən potensial müttəfiq kimi görür, eyni zamanda, İranın nüvə silahına sahib olmasının Rusiyanın bütün cənub sərhədlərini təhlükəyə atacağını da yaxşı dərk edir. Bu baxımdan, gözlənilir ki, Cənubi Qafqazda - Azərbaycanla Ermənistan arasındakı sülh mühitinin yaradılmasında və Ukraynanın bölüşdürülməsi planlarında müşahidə olunan Tramp-Putin əməkdaşlığı İranın nüvə məsələsinin həllində də təkrarlansın. Uzun illər Omanda aparılan ABŞ-İran məxfi danışıqlarında əsas müzakirə predmetlərindən biri İranın indiyədək zənginləşdirdiyi uranın hissə-hissə Rusiyaya daşınması, ancaq İranın mülkiyyətində qalması, rəsmi Tehranın isə mülki nüvə enerjisindən istifadə hüququnun saxlanması təklifi idi və İranın digər müttəfiqi Çin də nəzarətin Rusiyaya verilməsinə etiraz etmirdi. Ali Dini Lider Xameneyinin nüvə silahıyla bağlı fətvasının mövcudluğuna baxmayaraq, hazırda İranın danışıqlarda hansı həddədək geri çəkildiyi, nəyə razılaşıb-razılaşmadığı məlum deyil və hələlik ABŞ-İsrail tandeminin təhdidlərinə eyni üslubda cavab verməklə danışıqlar prosesini daha bir müddət uzatmağa, Tramp üçün daralan zaman aralığında əlverişli şərtlərlə saziş imzalamağa çalışdığı aşkar görünür".

E.Şükürlü deyib ki, İran ətrafına indiyədək görünməmiş miqyasda hərbi qüvvə cəmləşdirən amerikalılar da uğursuz hərbi əməliyyatın Trampın mövqeyinə çox ciddi zərbə olacağının fərqindədilər:

"Xüsusən də Çinin verdiyi texnologiyaların ABŞ bazalarına, təyyarədaşıyan gəmilərinə yaratdığı təhlükə və Hörmüzün bağlanacağı qorxusu amerikalıları irimiqyaslı əməliyyatlara başlamaqda tələsməməyə, ancaq "maksimum təzyiq" siyasətini davam etdirməyə sövq edir. ABŞ-İsrail tandemi 2025-ci ilin iyunundakı 12 günlük savaşda, eləcə də bu ilin yanvarındakı kütləvi iğtişaşlarda İrana ciddi zərbə vursalar da, çevriliş etməyi və Vilayəti-fəqih sistemini yıxmağı bacarmadılar. ABŞ kəşfiyyatının hesabatlarında açıq şəkildə vurğulanır ki, yeni hərbi əməliyyatların da sistem dəyişikliyinə gətirib çıxaracağı gözlənilmir: kritik situasiyada ideoloji dövlət olan İran artıq xeyli yaşlanmış liderini mübhəm və mistik bir ssenariylə əvəzləməyə - varis əməliyyatına gedəcək, mövcud sistemsə özünü daha gənc və islahatçı dini liderin timsalında qoruyub saxlayacaq. Əgər amerikalılar Ukraynanı qurban etmək hesabına Putin Rusiyası ilə yaxınlaşmağı bacardıqları kimi, İranla da nüvə mövzusunda əlverişli sövdələşmə imkanı əldə edəcəklərsə, bu, Çinə ucuz neft və digər xammal satışını həyata keçirən daha bir ölkənin qapılarının ABŞ kapitalının üzünə açılması demək olacaq və Trampın ABŞ daxilində mövqelərini xeyli gücləndirəcək".

**Eldar**

*Səməndər Məmmədov,*
*Prezident təqaüdçüsü,*
*yazıçı-publisist*

# Bizi sevindirən həkimlər



**Mənim yaxşı, savadlı və vətənpərvər həkimlərimizə böyük hörmətim olub və bu gün də var. Onların arasında bir neçəsi ilə dostluğumuz davam eləyir. Və mən çox vaxt onun şahidi olmuşam ki, onlar neçə-neçə xəstəni Allahın köməyi ilə ölümün pəncəsindən xilas ediblər.**

**Son vaxtlar mənim də səhhətimdə müəyyən problemlər yaranıb. Ona görə də Milli Onkologiya Mərkəzində müalicə götürürəm. İlk gündən mərkəzin həkimləri mənə çox böyük diqqət və qayğı ilə yanaşdılar. Sözün düzü, həkimlərin belə səmimi münasibətinə heyran qaldım. Məni müalicə edən həkim-onkoloq Anar Məmmədov çox savadlı, səmimi və vətənpərvər bir ziyalıdır.**

**Öyrəndim ki, Anar həkim İmişli rayonundandır. İnanın, o, pasiyentlə elə şirin və səmimi söhbət edir ki, adam bir anlıq ağrı-acını unudur. Düşünürsən ki, nə yaxşı belə gənc həkimlərimiz var. Onlar həm savadlıdır, həm də son dərəcə sadə və səmimidir. Heç şübhəsiz ki, həkimin səmimi söhbəti, insanın qəlbini ələ alması dava-dərmandan da çox pasientə şəfa verir. Onlar pərvanə kimi bizim başımıza dolanırlar.**

**Tibb bacısı Fərqanə xanım da çox gözəl və istiqanlı insandır. Mənə və digər xəstələrə böyük sevgi, diqqət və qayğı göstərdiyinə görə həkim-onkoloq Anar Məmmədova, tibb bacısı Fərqanə xanıma, bir sözlə, Milli Onkologiya Mərkəzinin bütün tibb personalına öz minnətdarlığımı və təşəkkürümü bildirirəm. Onlar bizə şəfa verir, həyata qaytarır və ailəmizi sevindirir. Allah da onları sevindirsin və qorusun!!!**

# *"Bu isə Azərbaycan qaz ixracatının kəskin artmasına səbəb olacaq"*




**"Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasında çıxış edən Prezident İlham Əliyev Azərbaycanın yeni qaz hasilatı potensialına toxunaraq bildirib ki, "Abşeron", "Ümid" və eləcə də "Şahdəniz" yataqları əlavə istehsala imkan yaradacaq.Belə ki, yaxın illərdə "Abşeron"da tammiqyaslı işlənmə mərhələsinin başlanması yatağın hasilatını 3 dəfə artıracaq. "Ümid" yatağının ikinci mərhələsi üzrə qaz hasilatına başlanması da gözlənilir".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, bildirib ki, bütün bunlar ilə yanaşı, 2028-ci ildə "Şahdəniz"in yeni mərhələsi üzrə hasilata start veriləcək:

"Azərbaycanda yeni enerji bumu gözlənilirmi? Azərbaycan Prezidentinin çıxışında qeyd olunduğu kimi, yaxın illərdə təbii qaz hasilatının əhəmiyyətli dərəcədə artacağı gözlənilir. 2025-ci ildə Azərbaycanda 51,5 milyard kubmetr təbii qaz hasil edilib. 2024-cü ildə bu göstərici 50.3 milyard kubmetr idi. Hasilatın 14,1 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 27,9 milyard kubmetri "Şahdəniz"in, 1,6 milyard kubmetri "Abşeron" yatağının, 7,9 milyard kubmetri isə SOCAR-ın payına düşüb. Qaz ixracına gəldikdə isə, xarici ümumi satış 25,2 milyard kubmetr olub. Bundan 12,8 milyard kubmetr Avropaya, 9,6 milyard kubmetr Türkiyəyə, 2,3 milyard kubmetr Gürcüstana, 0,5 milyard kubmetr isə Suriyaya ixrac edilib. Göründüyü kimi, Azərbaycanın artan qaz hasilatı ixracatın da həcminə təsirsiz ötüşmür".

Onun sözlərinə görə, planlaşdırılan və ya gözlənilən artımlar isə Azərbaycan qaz ixracatının kəskin artmasına səbəb olacaq: "Bu daha çox ölkəyə, daha çox qaz tədarükü deməkdir. Digər tərəfdən, yaşıl enerji hasilatının artması daxili istehlakda təbii qaz qənaətinə və daha çox ixracata imkan verəcək. Bu isə dövlət gəlirlərinin artırılması baxımdan vacibdir. Qaz ixracatı strateji olmaqla yanaşı, ölkəyə daxil olan valyutanın həcmini artıracaq.Bu baxımdan, Azərbaycan yaxın illərdə təbii qaz ixracatını kəskin artıra biləcək. Bu isə Cənub Qaz Dəhlizinin ötürmə imkanlarının genişləndirilməsini daha prioritetləşdirir".

**Vasif ƏLİHÜSEYN**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# HAMIMIZIN EHTİYACI OLAN İŞIQ

## "İşığın ayaq səsləri" kitabı barəsində ilk təəssüratım

**Hər dəfə içimə hakim olan bir fikri özüm üçün təkrarlayıram. Bu fikir də ondan ibarətdir ki, biz yaşadığımız zaman kəsiyində təkcə maddiyyatın deyil, həm də mənəviyyatın işığında özümüzü normal bir varlıq kimi hiss edirik. Yəni maddi durum mənəvi çalarların fonunda bizi daha mükəmməl göstərir. Və biz də o mükəmməlliyin içərisində həm özümüzü, həm çevrəmizi, həm də Allahımızı daha açıq gözlə görür, dərk edir, eyni zamanda şükranlığımızı ifadə edirik.**

Bu fikrimi ona görə bir daha yazıma ön söz kimi gətirdim ki, oxucu mənim nədən, niyə və hansı istəklə yeni nəşrlərə, yeni kitablara, ümumiyyətlə, tər sözə könül verdiyimin səbəbini bilsin. Axı, hər şeyin təri, yəni ən safı daha çox göz, könül oxşayır. O, adamı bir İlahi gözəllik kimi özünə çəkir, onun ruhunu əzizləyir, hətta bəzən ona hakim də kəsilir. Belə olan halda o ruhi dünyadan, sehrli aləmdən çıxmaq mümkün olmur. Lap bəzən buna heç cəhd də etmirsən. Çünki o ruh aləmində özünü daha rahat, daha xoşbəxt, necə deyərlər, təpədən dırnağa sözün içərisində görürsən...

Onun hər qələm nümunəsi, hər nəsri, hər nəzmi mənim üçün həmişə maraqlı olub. Və ilk tanıdığım gündən diqqətimi çəkən əsas cəhətlərdən biri bu xanım yazarın sözündəki saflıqdır, təzəlikdir. Mən onun şeirlərini də, nəsr əsərlərini də oxuyanda elə bilmişəm ki, özüylə üzüzə oturub söhbət edirəm. Və yaxud o danışır, mən dinləyirəm. Çünki onu oxuyanda nə cümlələrin arasında, nə misraların arasında dil büdrəmir, fikir dolaşmır. Təbii axar oxucunu, yəni məni sözün nöqtəsinə qədər alıb aparır. Və o getdiyim söz axınında eşitdiklərimin hamısı bir elat məclisində, bir kənd yığnağında, bir təbiət guşəsində adamların etdikləri söhbətin əks-sədasdır. Elə bilirsən ki, özün də ordasan, özün də o söhbətləri dinləyirsən. Səni də o saflığa çəkib gətirən təbiilik və dil zənginliyidir.

Son günlər sosial mediada böyük maraqla barəsində fikirlər səslənən bir kitab var yazı masamın üstündə. Kitabın adı da, tərtibatı da o qədər bir-birini tamamlayır ki, adam özünü işığın içində hiss edir. Və vərəqləri çevirdikcə işıq bürüyür səni, hətta özün də bükülürsən o işığa. Çünki bu işıq Tanrının yanından gəlir, Allahın bəndələrə yönələn işığıdır söz şəklində. Məhz söz şəklində olan Tanrı işığına səs donu biçir müəllif. O işığı sözə çevirir və əlini göylərə açıb pıçıldayır:

*Öz könlümün ağası mən,*
*Tək eşqinə qulam, Allah.*
*Yer üzünə bəxş etdiyin*
*Sevginəm, duyğunam, Allah.*

*Məna-məna pərdələnən*
*Zikrim, sevgim, duam da Sən.*
*Yerlə göyü görüşdürən*
*Yağışın, dolunam, Allah.*

*....................................*

*Ömür beşikmi, tabutmu?*
*Nə götürdüm, nə unutdum.*
*Əllərinlə qələm tutdum,*
*SƏN sirr, mən sualam, Allah.*
*Bir sorğuya cavab minsə,*
*Cavablar günahı yensə,*
*Ömür ölümlə bitsə də,*
*Hər "yox" da "var" ollam, Allah.*

Bir parçasını təqdim etdiyim şeirdəki işığı yəqin ki, gördünüz və mənim yanılmadığıma da şübhəniz qalmadı. Çünki müəllifin özü də "Əllərinlə qələm tutdum"- deyir. Məncə, bundan böyük şahid, bundan böyük təsdiqləyici tapmaq barədə düşünmək absurd olar. Və bax Allaha müraciətlə başlayan bu kitabda bir xeyli şeirlər var ki, onlar özü-özlüyündə vurğuladığım Tanrı işığının zərrələridir.

O işıq müəllifin Tanrıya getdiyi yolu da göstərir. Yerdən göyə uzanan bu yolla ürəyini əlinə alıb gedən müəllif yazır:




*Günahımla, suçumla,*
*Savabımla, borcumla,*
*Ürək adlı boxçamla*
*Qapına gəldim, İlahi!*

*Bir ömürdə gül əkdim,*
*Sevinc verib qəm çəkdim,*
*Yerdən öncə mələkdim,*
*Aldandım gəldim, İlahi!*

.........................................

*Bir yol açılar, gəlləm,*
*Bir gün seçilər, gəlləm,*
*Bir gün öncədən billəm,*
*Deyəm ki, gəldim, İlahi!*

Zənnimcə, Tanrısı ilə bu qədər açıq, birbaşa, dilin altına çöp qoymadan danışmaq hər adama nəsib olan iş deyil. Amma xanım yazar Allaha, Onun işığına və və o işığın varlığında sözə çevrilən hikmətə o qədər inanır ki, ürəyindəkilərin, ağlındakıların hamısını misra-misra söyləyir. Və burda bir nüans da var ki, onun söylədikləri əslində Allahın bildikləridir, Allahın ona verdikləridir. O, sadəcə, işığı söz, misra formasında qaytarır Müəllifinə.

Kitabdakı şeirlərin ayrı-ayrı bölmələr altında təqdim edilməsinə baxmayaraq, hamısında ovqat da, yaradıcı mühit də bir-biriylə bağlıdır. Bilmirəm, mən bunu həqiqətənmi duymuşam, yoxsa bu bir vəhy olubmu mənimçün, amma bildiyim odur ki, mən bu şeirlərin daha çox müəllifin qayğılı, özünə qapanan, bir küncə çəkilən vaxtının pıçıltıları olduğuna əminəm.

Bilirəm ki, bu şeirlər həmin sükutun, tərki-dünyalığın barı-bəhəridir. İndi özünüz də diqqət yetirin, görün indi oxuyacağınız şeir hansı məqamın, hansı mühitin diqtəsidir.

*Bu nə eşq, nə sevda imiş,*
*Yol nə yerdə, nə göydəymiş.*
*Dərdin özü dərman imiş,*
*Rəbbin yolun bulanlara...*

*Gələn gedəndən çox imiş,*
*Bilgi bilәndən çox imiş,*
*İnsan Tanrının sirriymiş,*
*Sirrə sirdaş olanlara...*

*Kim deyir gedənlər dönmür?*
*Dualardan yol görünür.*
*Ölüm toy-vüsal günüdür,*
*Yurda qurban olanlara.*

Mən bu şeirin yozumunu və əvvəlki fikrimə münasibəti sizin ixtiyarınıza buraxıram. Çünki o şeirin özü mənə özünü təqdim edib. Və mən də o təqdimatın içərisində Şuşaya qayıdan bir Vətən övladının səsini eşidirəm. Özü də bu səs Şuşanın alınacağına inanan bəndənin səsidir. O səs deyir ki:

*Eşit, ay elim, ərənim,*
*Qalam, bürcüm, səngərim,*
*Gözü yol çəkənlərim,*
*Müjdə, Şuşam, biz gəlirik!*

*Ay dağlar, ay meşələr,*
*Ay intizar bənövşələr,*
*Ruhu yaşayan kişilər,*
*Müjdə, Şuşam, biz gəlirik!*

*Bu gün axşama yetərik,*
*Zəfər bayrağın dikərik,*
*Yurda qəhrəman dönərik,*
*Müjdə, Şuşam, biz gəlirik!*

Bir parçasını təqdim etdiyim bu şeir 44 günlük müharibəmizdən iki ay öncə - 2020-ci ilin iyul ayında qələmə alınıb. Bu bir vəhydir, bu bir öncədən hiss etmək, duymaqdır. Ona görə deyib və yazıram ki, bu şeirlər göy üzündən gələn işıq zərrələri kimidir. Belə olmasaydı, müəllif əsgər xanımlarına üz tutub deməzdi ki:

*Sil gözün yaşın, bil ki,*
*Bayraq tək ucadır sevgin.*
*Dur süfrə aç, sevinc payla,*
*Qayıdır qalib əsgərim!*

Bəli, əsgərin, özü də qalib əsgərin xanımı bayraq tək ucalan sevgiləri yaşadanlardır. Bu sevgilər təkcə ailəyə, fərdlərə deyil, bütöv Vətənə aiddir.

"İşığın ayaq səsləri" adlanan bu kitabın hər bir səhifəsində mən bir məqamın da şahidi oldum. O da sözlə, yəni misralarla yanaşı dayanan rəssam işinin - yəni qələmlə fırçanın çiyin-çiyinə dayanması idi.

Hər bir şeirin fırça şəklini, rəsmini çəkmişdi. O məzmunu rənglərin işığında sərgiləmişdi qarşımda. Və mən o işıqda olan həssaslığı göz qamaşdırma kimi yox, düşündürmə, inandırma kimi qəbul etdim. Hətta inandım ki, "Vəsiyyət" şeirində deyildiyi kimi, "adam unudulanda ölür" fikri müdrik bir aforizmdir. O aforizmi saralıb-solub budaqlardan tökülən yarpaqlar da- xəzəllər də pıçıldayır adama.

Mən ilk təəssüratımı sözə çevirməyə çalışdığım bu kitabın barəsindəki indiki əhval-ruhiyyəmi elə kitabdakı şeirlə tamamlamaq istəyirəm. Çünki o şeirdə də mənim indiki anımın özü sərgilənir. Şeir "Şam kimi" adlanır. Müəllif yazır ki:

*"Şamı içindəki*
*piltə əridər" dedilər,*
*inanmayacaqdım,*
*doğruymuş!*
*Məni sevdiklərim,*
*qoruduqlarım bitirdi...*

**Yaradıcılığını sevə-sevə izlədiyim və hər yeni əsərinə oxucu marağı ilə könül verdiyim Sona xanım Vəliyevanın "İşığın ayaq səsləri" kitabı barəsində etdiyim bu qeydlər artıq masaüstü kitabım olan bu işıq dolu kitaba mənim qəlbən bağlandığımdan bir işartıdır. Hələ çox qayıdacam bu kitaba. Axı, hamımızın işığa ehtiyacı var.**

## "Uşağın əlindən telefonu almaq asandır, amma..."

**"Son dövrlər rəqəmsal mühit həyatımızın ayrılmaz hissəsinə çevrilib. Sosial şəbəkələr artıq sadəcə ünsiyyət vasitəsi deyil - burada düşüncələr formalaşır, təsirlər yaranır, dəyərlər dəyişir. Xüsusilə uşaqların və yeniyetmələrin bu mühitə çox erkən yaşda daxil olması məsələyə daha ciddi yanaşma tələb edir".**

Adalet.az xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, uşaqların rəqəmsal təhlükəsizliyi artıq seçim deyil, zərurətdir: "Çünki internet mühiti həm imkanlar yaradır, həm də risklər daşıyır. Bir tərəfdən uşaqlar informasiya əldə edir, öz bacarıqlarını inkişaf etdirir, digər tərəfdən isə zərərli məzmun, psixoloji təzyiq və müxtəlif manipulyativ təsirlərlə qarşılaşa bilirlər. Bu reallığı görməzdən gəlmək olmaz. Dünyada bir çox ölkə artıq bu istiqamətdə konkret addımlar atır. Yaş məhdudiyyətləri, məlumatların qorunması, valideyn nəzarət alətləri və platformaların məsuliyyətinin artırılması məsələləri geniş müzakirə və tətbiq olunur. Azərbaycanın bu prosesə qoşulması və sistemli yanaşma sərgiləməsi təqdirəlayiqdir. Burada əsas məsələ yalnız məhdudiyyət qoymaq deyil. Əsas məqsəd uşaqları rəqəmsal mühitdən uzaqlaşdırmaq yox, onları bu mühitdə təhlükəsiz və məsuliyyətli şəkildə davranmağa hazırlamaqdır. Ona görə də təhsil proqramlarında rəqəmsal savadlılıq və kibertəhlükəsizlik mövzularının yer alması çox vacibdir. Uşaq bilməlidir ki, hansı məlumatı paylaşmaq olar, hansı yox, hansı xəbərə inanmaq lazımdır, hansına yox".

Deputat bildirib ki, məktəblərdə mobil telefon istifadəsi ilə bağlı qaydaların müəyyənləşdirilməsi balans tələb edən məsələdir. Onun sözlərinə görə, texnologiya düzgün istifadə olunanda faydalıdır, amma nəzarətsiz qalanda diqqət yayındırır və asılılıq yarada bilir:

"Ona görə də həm nizam-intizam, həm də təhlükəsizlik qorunmalıdır. Valideynlərin rolu burada xüsusi əhəmiyyət daşıyır. Uşağın əlindən telefonu almaq asandır, amma onunla danışmaq, izah etmək və doğru istiqamət göstərmək daha vacibdir. Rəqəmsal mühitdə sağlam davranış ailədən başlayır. "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında" Prezident İlham Əliyevin imzaladığı Sərəncam bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Sənəd özündə bir çox olduqca mühüm məsələləri ehtiva edir. Heç şübhəsiz ki, bu sahədə atılan addımlar gələcək nəsillərin daha sağlam, daha düşüncəli və daha məsuliyyətli formalaşmasına xidmət edəcək. Uşaqlarımızın təhlükəsizliyi və rifahı hər birimizin ortaq məsuliyyətidir və bu istiqamətdə ardıcıl siyasət aparılması cəmiyyətimizin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir".

**Sübhan**

## Xırdalandan Bakı-Şamaxı avtomobil yoluna 3 fərqli yerdən tunellər inşa ediləcək

**Bakıətrafı ərazilərin bəzilərində sıx məskunlaşma müşahidə olunur və illər əvvəl qurulmuş mövcud nəqliyyat şəbəkəsi sakinlərin tələbatını ödəmir. Son illərdə Xırdalan şəhərində əhali sayının sürətlə artması və məskunlaşmanın genişlənməsi əsas yollara düşən yükü daha da ağırlaşdırıb. Təkcə bu ərazidə 300 000-dən çox insan yaşayır.**

Bu barədə Adalet.az-a AYNA-dan məlumat verilib.

Bildirilib ki, hazırda Xırdalan sakinlərinin M1- Bakı-Sumqayıt yoluna bir neçə giriş-çıxışı mövcud olsa da, bu, yaranmış böyük tələbatı qətiyyən ödəmir, eyni zamanda, M1 yolunu yükləyir. Ərazi ətrafından keçən dəmir yolu xətti və sözügedən ərazinin şimal-qərb hissəsində yerləşən Ceyranbatan su anbarı yeni yolların salınmasına fiziki olaraq mane olur. Məhz bu məhdudiyyətlər səbəbindən sərnişinlər və sürücülər alternativ çıxışlar olmadığından istənilən istiqamətə getmək üçün onsuz da yüklü olan M1 magistral yoluna çıxmalı və əlavə olaraq Xırdalan şəhəri daxilində də sıxlıq səbəbindən yolda uzun vaxt keçirməli olurlar. Dövlət proqramına əsasən, Xırdalan şəhərindən M4 - Bakı-Şamaxı avtomobil yoluna dəmir yolunun altından 3 fərqli yerdən tunellər inşa ediləcək. Bununla da vətəndaşların yalnız Bakı-Sumqayıt yolundan istifadə məcburiyyəti aradan qalxacaq və ərazidən çıxış üçün rahat alternativ yollar yaradılacaq. Layihənin digər mühüm hissəsi isə Xırdalan dəmiryolu stansiyası ilə bağlıdır. Belə ki, yeni giriş-çıxışlardan biri məhz bu stansiyanın yaxınlığında təşkil ediləcək. Eyni zamanda, stansiyanın qarşısında müasir Nəqliyyat Mübadilə Mərkəzinin (NMM) inşası nəzərdə tutulur. Bu addım həm dəmiryolu stansiyasına gediş-gəlişin səmərəliliyini artıracaq, həm də ictimai nəqliyyatın əhatə dairəsini genişləndirəcək. Qeyd edilən irimiqyaslı infrastruktur layihələri Xırdalan şəhərinə yeni nəfəs və hərəkət sərbəstliyi gətirəcək. Bu yeniliklər eləcə də Hökməli, Sulutəpə, Xocasən, Müşfiqabad və 28 May qəsəbələrinin sakinlərinə, həmçinin ətrafda yerləşən universitetlərlə rahat əlaqə qurmaq üçün mühüm alternativlər formalaşdıracaq. Eyni zamanda, qeyd edilən yollarda nəqliyyat hərəkətlərinin tənzimlənməsi məqsədilə Xırdalan şəhəri - M1 - Masazır-Novxanı yolunu birləşdirən yeni avtomobil yolunun tikintisi, Xırdalan dairəsində yolayrıcının təkmilləşdirilməsi və M1 - Bakı-Sumqayıt yolundan M4 yoluna, Şamaxı istiqamətinə tunel vasitəsilə çıxışın təşkili həyata keçiriləcək.

Hazırda sözügedən layihələrin hazırlanması həyata keçirilir, istiqamətlərdən biri üzrə isə artıq tikinti işlərinə başlanılıb. Ümumilikdə, bu layihələrin 2027-2030-cu illər ərzində tam yekunlaşması gözlənilir.



# SEYRAN SƏXAVƏT - 80

# İt intervüsü

*"İnsan yalnız ölümə yaltaqlana bilmir..."*

**İtin dediklərindən**

(HEKAYƏ)

Jurnalistlik fakültəsinin birinci kursunda oxuyurdum. Sentyabrın əvvəlləri idi. Günortaüstü dərsimiz qurtaran kimi özümü verdim universitetin yaxınlığındakı redaksiyaya, düz baş redaktorun otağına girdim.

- Jurnalistəm, - dedim, sonra salam da verdim. Baş redaktor məni təpədən dırnağa süzüb, - məqalə gətirmisən? - dedi.

- Yox...

- Bəs onda nəyə gəlmisən?

- İstəyirəm ki, sizin qəzetlə əməkdaşlıq eliyəm... sonra da yavaş-yavaş gedəm qabağa.

Baş redaktorun dodağı qaçdı: - Nədən yaza bilərsən?

- Hər şeydən.

- Axı, sən hələ cavansan... adamlarla dil tapmağı bacararsanmı? Axı hər adamın öz dilini tapasan gərək...

- Mən it dili də bilirəm, - tələsik cavab verdim.

- Onda get itdən bir intervü götür, - redaktor da tələsik cavab verdi, gözünü gözümə zillədi, - xoşuma gəlsə çap eliyərəm, - yenə gözünü gözümdən çəkmədi.

- Yaxşı, - mən qəfil razılaşdım, - bir həftəyə gələrəm, - deyib qapıdan çıxdım.

Baş redaktor arxadan məni səslədi. Geri qayıtdım, elə qapının ağzındaca ayaqüstü məndən soruşdu:

- Doğrudan sən it dili bilirsən?

- Bilməsəm demərəm ki...

Baş redaktor bir az da mənə diqqətlə baxıb duruxdu, elə bil ki, mənə yazığı gəldi, soruşdu:

- Onda de görüm, it dilində Vətənə nə deyirlər?

- Leş...

- Nə?!

- L-E-Ş, - mən də onun gözünün içinə baxdım, - Leş! Başqa sualınız yoxdursa mən gedim... - qapıdan çıxa-çıxa soruşdum.

- Gözləyəcəyəm ha... - Baş redaktor sağ əlini yuxarı qaldırdı.

- Gələcəm ha...

Ordan bir başa məhləmizə gəldim, hər yanı ələk-vələk elədim. Qıllı Köpəyi tapa bilmədim. Düzünü boynuma alım ki, bir az da ruhdan düşdüm, ancaq o qədər də yox. Birdən yadıma düşdü ki, Qıllı Köpək köhnə qəbiristanlıqda yaşayır - ora üz tutdum - orda da yox idi. Qıllı Köpək bir parça yağlı əppək olub göyə çəkilmişdi. Başımı qaldırıb bir göyə də baxdım, şəhərin şimal tərəfində, yerlə göyün arasında, qara, zəhmli bir bulud dayanmışdı və bulud elə o Qıllı Köpəyə oxşayırdı. Xeyli o buluda tamaşa elədim - itin başı, boynu, quyruğu... elə bil özü idi ki, durmuşdu.

- Salamunəleyküm.

- Salam... - sevindim, - ay dayı, dostun hardadı, - dedim.

- Mənim Qıllı Köpəkdən başqa dostum yoxdu, bala, - dedi.

- Elə mən də onu deyirəm də...

- Gəl... - Kişi köhnə qəbiristanlığa üz tutdu, mən də düşdüm onun dalınca.

Bu kişi ilə Qıllı Köpəyi bu tərəfdə olanların hamısı həmişə bir yerdə görüblər və buna da adət eləyiblər. Hamı elə bilir ki, Qıllı Köpək elə bu kişinindi - ancaq Qıllı Köpək heç kəsin deyildi və özünə məxsus idi.

Birdən kişi dayandı, - istiləndim, - dedi və qurşağa qədər soyunub üzü üstə aşmış baş daşının üstündə oturdu, - harda olsa indi gələr, - dedi, - cındır və kirli torbadan bir parça quru çörək çıxarıb gəvələməyə başladı.

Birdən gözüm kişinin qurşaqdan yuxarı lütlənmiş bədəninə sataşdı, bayaqdan heç fikir verməmişəm, "bu kişinin bədəni nə yaman qıllı imiş... tüklər o qədər sıx idi ki, əti də görükmürdü - elə bil əyninə zil qara gödəkcə geymişdi - qıllı gödəkcə... Bəlkə elə ona görə də Qıllı Köpəklə dostdu, həbəlkə elə qohumdular - Qıllı Köpək... Qıllı Kişi".

Elə həvəssiz udqunurdu ki, Qıllı Kişi - deyəsən çörək çox qur idi. Deyəsən, Qıllı Kişinin oturduğu daşın böyründə Qıllı Köpək yatırdı, çünki torpaq it şəkli almışdı - bir az da hamarlanmışdı.

Qıllı Kişi ora-bura boylandığımı hiss edib dedi:

- Darıxma, ?arda olsa indi gələr, vaxtıdı, - cındır və kirli torbasından bayaq özü yediyindən də böyük bir çörək parçası çıxardıb böyrünə qoydu, deyəsən itin payı idi.

- Sənin qo?um-əqrəban yoxdu? - Qəfil soruşdum.

Üzümə xeyli tamaşa eliyəndən sonra ağır-ağır ?avab verdi:

- Bu itdən başqa ?eç kəsim yoxdu... - İtin yerinə baxdı, - ilin on iki ayını bir yerdə oluruq, - dedi, - me?rimizi bir-birimizə salmışıq... o biri itlərə qoşulmur, tək-tən?a gəzib dolaşır, axşamlar da burda görüşürük. Mən belə it görməmişəm - lap adam kimi dil bilir...

Gözaltı Qıllı Kişiyə baxdım - əynindəkilər paltardan çox çörək torbasına oxşayırdı. Elə bil Qıllı Kişinin özünü də ?ındır və kirli bir torbaya salmışdılar - an?aq torbanın ağzını bağlamışdılar - başı qalmışdı çöldə - yoxsa ölərdi və bəlkə də ?anı qurtarardı, Qıllı Köpək də o əbədi ayrılıqdan it kimi sarsılıb qalardı ulaya-ulaya...

- Xeyir olsun? - Qıllı Kişi başını qaldırmadan soruşdu, - biz dostuq, bəlkə, mən...

- Yox, yox... - tez etiraz elədim, - şəxsən özünü görməliyəm.

- Onsuz da bizim bir-birimizdən gizli sirrimiz yoxdu. Əgər onu aparmağa gəlmisənsə, getməz, - bir an dayanıb daha inamla dedi, - heç hara getməz, - elə bil özünün dediyi bu sözlərdən qürrələndi.

Qıllı Kişinin qabağında çöməlmə oturub dedim:

- Gəlmişəm ondan intervü almağa.

- Dostum olduğuna görə demirəm - çox ağıllı itdi.

- İstəyirəm qəzetə verəm onu, görən şəkli var?

- Goru var ki, kəfəni də ola... aparıb çəkdirərsən də...

- Mənimlə gedər?

- Bizi bir yerdə görsə gedər, - çox inamla dedi, - budu gəlir...

Qıllı Köpək gəldi, dostunu iylədi, qabağında quyruq buladı, darıxdığını bildirdi. Məni heç saya da salmadı - elə bil heç mən burda yox idim. Lap axırda gözlərini mənə zillədi, quyruqzad bulamadı, çöküb dostuna baxdı, yenə quyruq buladı, dostu da ona gülümsədi. Bütün bunlardan sonra Qıllı Köpək öz yerində çöməlib təzədən gözünü mənə zillədi ki, yəni buyur görək.

Mən də keçib bir daşın üstündə oturdum, qələm-kağız çıxardım:

- Özünüzü təqdim edin...

- Ham! Ham! Ham!

- İtov İt İt oğlu. - Bunu da Qıllı Kişi dedi - lap tercüməçi kimi.

- Mən başa düşürəm, sən narahat olma... - Bunu da mən dedim və sonra üzümü yenə itə tutdum:

- Peşəniz?

- Veyil-veyil gəzmək.

- Təvəllüdünüz, doğulduğunuz yer?

- Bizdə heylə şey olmur ha, biz itik.

- Ay oğul, sən bunnan adam kimi danışma ee, it kimi danış, itə aid suallar ver, - Qıllı Kişi söhbətə qarışdı, - bir də gördün quyruğunu atdı belinə çıxdı getdi.

İt və itin dostu məni çaşdırmışdı.

Susdum. Necə il idi ki, bu qəbiristanlıqda ölü basdırmırdılar, elə ona görə də bura köhnə qəbiristanlıq deyirdilər. Sükut qılınc kimi kəsirdi, mən elə indicə anladım ki, köhnə qəbiristanlığın sükutu təzə qəbiristanlıqdakından daha dərin və xoflu olurmuş. Bunları fikirləşə-fikirləşə verəcəyim sualı da axtarırdım. Və bu iki daşın arasında onu da fikirləşirdim ki, "necə bu itin yanında biabır oldum ee...".

Hələ bu azmış kimi baş redaktorun sözü yadıma düşdü: Gözləyəcəyəm ha...

Ağlıma gələn ilk sualı verdim: - Adamlara münasibətiniz?

- Açıq deyim?

- Açıq.

- İnciməzsiniz ki?

- Yox... - Çaşan kimi oldum, ancaq özümü o yerə qoymadım. - bəs dostunuz incisə? - dedim və başımla Qıllı Kişini göstərdim, - axı o da adamdı.

- O adam deyil... dostumdu...

Çönüb Qıllı Kişiyə bir də baxanda gördüm ki, itin cavabı onun xoşuna gəlib - təkləndiyimi hiss etdim və bu, mənə çox ağır gəldi.

İt darıxdı, burnunu Qıllı Kişinin üzünə sürtən kimi o, ayağa durdu, geyindi, oturdu daşın üstündə.

Cındır və kirli torbanın içindəki kişi bir itə, bir də mənə baxdı. Mən gözümü ondan yayındırıb onun yanındakı cındır və kirli çörək torbasına baxdım. Vallah, dəqiq deyə bilmirəm, mənə elə gəldi ki, torba durduğu yerdə tərpəndi, elə bildim ki, torbanın içində

Qıllı Kişinin balası var və torbanı tərpədən də odu. Gözümü cındır və kirli torbadan çəkib tamam başqa tərəfə baxdım: qəbiristanlıqdı də, bu dəfə gözümə balaca, qəşəng uşaq qəbri sataşdı - bu qəbir Qıllı Kişinin cındır və kirli torbası boyda olardı. Baş daşı isə çox böyük idi - uşağın balaca qəbrinə də, elə özünə də ağırlıq eləyirdi - ürəyimdə bu ağırlığa etiraz etdim:

"Uşaq qəbrinin baş daşı gərək elə uşağın özü boyda olsun... Axı, niyə ayrıca uşaq qəbiristanlığı olmasın?.. Burda da balaca-balaca, toppuş-toppuş uşaq qəbirlərinə böyük-böyük qəbirlər böyük-böyük nəzarət eləyirlər və uşaq qəbirlərinin azadlığını əllərindən alırlar - bəlkə elə uşaq qəbirləri oynamaq istəyir..."

Bir də Qıllı Kişinin cındır və kirli torbasına baxdım və bu dəfə torbanın tərpəndiyini gözümlə gördüm - inandım ki, torbanın içində uşaq var və bu uşaq da, daha böyük cındır və kirli torbanın içindən başı çıxmış Qıllı Kişinin balasıdı.

İt səsinin yoğun yerinə salıb bir ağız hürməsəydi, hələ bu xəmir çox su aparacaqdı - yəni mən gec "ayılacaqdım".

- Adamlara münasibətiniz...

- Adamlar qudurub, - it cavab verdi.

- Axı, qudurmaq it peşəsidi - it qudurar, adam yox...

- Qudurmuş adam qudurmuş itdən min dəfə quduz olur. Biz itlər tək-tək qudururuq, siz isə... Bir də gördün bir ölkənin adamları qudurdu cumdu o biri ölkənin üstünə... Adamları yer üzünə belə göndəriblər. - Mırıldadı. - Siz bizi də aldatmısınız, - dişlərini qıcıyıb hürdü. - Siz bizi də aldatmısınız...

- Biz?

- Siz... Biz canavar nəslindənik, eşidirsən, ay adam, canavar nəslindən. Qabağımıza sür-sümük atdınız, öyrəşdirdiniz özünüzə, sonra da yiyə durmadınız, saldınız bizi çöllərə. Yal verdiniz, biz də başladıq yala hürməyə... yala hürə-hürə qurd oğlu qurd çönüb oldu it oğlu it...

- Tamah sizə güc gəlib də, nəfsinizi saxlaya bilməmisiniz!

- Düz sözə nə hürəsən, düzdü. Nəfsimizə görə nəslimizdən keçdik. - Mırıldadı. - Adam əlində sümük görən tənbəl, nəfsli canavarların hamısı gəlib adamın qapısında it oldu. Əsl canavarlar isə hələ indi də dağlarda, meşələrdə şahlıq eləyirlər. Bir dənə bədəsil canavar tapmazsan - canavar elə canavardı. Təkcə biz itlər nəslimizə satqın çıxdıq, axırda da gəlib it olduq.

Bir canavarın dərisi dünyanın bütün itlərinə dəyər; canavar dərisidir, bilirsən ki, bunun üçündə qurd oğlu qurd olub.

Bu sözlərdən sonra gördüm ki, itin gözlərindən yaş axır - it ağladı, ağladı və sonra gəlib gözlərini dostunun pırpız saçlarına və tüklü üzünə sürtdü - gözünün yaşını silirdi. Sonra da üzünü göyə tutub bir-iki ağız uladı. Qıllı Kişi sağ əli ilə əvvəlcə onun başını sığalladı, sonra sinəsinə sıxdı - it kimi qucaqlaşdılar, çünki adamlar belə qucaqlaşmırlar...

Bu səhnə mənə çox ağır gəldi və darıxdırdı. Bir az aralıdan keçən bir topa it də dayanıb biz üçümüzə tamaşa eləyirmiş. Bu it topasını hamıdan qabaq Qıllı Köpək gördü və tez də özünü, elə bil ki, bir balaca yığışdırdı.

Əvvəlcə onlara fikir vermədi. Dəstədəki itlərdən biri hürdü və bizə tərəf bir-iki addım atıb dayandı. Qıllı Köpək ildırım kimi yerindən qopdu. İt topası bir anın içindəcə şam ağaclarının qalınlığında gözdən itdi və Qıllı Köpək geri qayıdıb əvvəlki yerində - Qıllı Kişinin yanında çömbəldi, dostuna, sonra da mənə nəzər salıb tərpənməz oldu - elə bil it heykəli idi.

Qıllı kişinin gözündəki zəif işığı elə bil bir az artan kimi oldu - bəlkə də dostu ilə öyünürdü - hər halda mənə elə gəldi. "İt heykəli" yerindən tərpəndi və təzədən it oldu, quyruğunu bulayıb dostunun onunla öyünməyinə belə cavab verdi. Bir anlıq itə və itin dostuna qibtə elədim və bu hisslər tez də keçib getdi.

Qıllı Köpəyin it topasını qovduğundan xeyli sonra sap uzaqdan həmin itlərdən birinin boğuq səsi gəldi və Qıllı Köpək tez qulaqlarını şəkləyib it hürənə baxdı. Bu anı nəzərimdən qaçırmadım - deyəsən, Qıllı Köpək gülürdü, çünki Qıllı Köpəyə baxıb Qıllı Kişi də gülümsədi.

Üçümüz də köhnə qəbiristanlığın köhnəlmiş sükutunu su kimi ağzımıza alıb durmuşduq. Bir-birinə boy verən şam ağacları da susmuşdu. Ürəyim sıxılırdı. Birdən itin dostu dilləndi:

- İt dilini harda öyrənmisən?

- Xarici dillər institutunda oxuyanda, - dedim.

- Vaxt gələcək ki, it dili ən işlək dil olacaq. - Qıllı Kişi gözünü mənə zillədi.

- Niyə ki? - həm soruşdum, həm də etiraz elədim.

- Sən hələ cavansan, - Qıllı Kişi dirsəkləndi, - vaxt gələcək bütün dünya it dilində danışacaq... mən ölü, sən diri.

- Axı, hansı əsasla belə danışırsan? Özün də adam... - səsimi də bir balaca ucaltdım.

- Adamlar bir-biri ilə it kimi davranır, düzdü? Əgər adamlar bir-biri ilə it kimi davranırsa, əvvəl-axır it dilində də danışacaq də... Dil davranışdan doğan şeydi, axı..

Bu məntiq məni bir az sındırdı, bunu Qıllı Kişi də hiss elədi və sözünü belə yekunlaşdırdı: - Vaxt gələcək... bəlkə də, it dili beynəlxalq dil statusu alacaq... Dünya ora gedir ee...

Ürəyimdə Qıllı Kişi ilə barışsam da, özümü o yerə qoymadım və onu da dərk elədim ki, əsas elə ürəkdi də...

Üzümü yenə itə tutdum: - Sənin əslin haradı?

- Bizdə heylə şey olmur ha, itik də it...

- Küçük vaxtlarını necə xatırlayırsan?

- Bizdə yaddaş olmur ha. Mən küçük görmüşəm, ancaq özümü balaca görməmişəm.

- Necə dolanırsan?

- İt günündə...

- İtin içində şeytan olur?

- Yox. Şeytan biz itlərdən iyrənir - bəlkə, ona görə... Bir də ki, şeytan adamlarla oturub-durur... Bizdən iyrənir, bizi bəyənmir.

- Səndən ən çox kim qorxur?

- Pişik.

- Bəs sən ən çox kimdən qorxursan?

- Adamdan...

Bu dəfə üzümü itin dostuna tutdum:

- Bəs sən ən çox kimdən qorxursan?

- Adamdan... - dedi - elə hamıdan.

- Bəs səndən kim qorxur?

- Heç kəs... - Qıllı Kişi elə bil utandı.

Mən ikisinə də müraciət elədim:

- Deməli, ikiniz də adamdan qorxursunuz?

İkisi də başını tərpətdi.

- Bu məndən çox qorxur - it dostunu göstərdi.

- Niyə ki?

- Axı o həm də adamların dilini bilir...

Qıllı Kişidən soruşdum: - Adamlar arasında dostun var?

- Yox bezmişəm onlardan...

İtdən soruşdum: - İtlər arasında dostun var?

- Yox, bezmişəm onlardan...

İkisi də oxşarından bezib... İt itdən, adam adamdan...

Elə bil bir-birinin ağzına tüpürmüşdülər. İt çömbəldiyi yerdən durdu, adamın qucağına sığındı. Bir azdan adam istisiylə it istisi bir-birinə qarışdı - adam bu istini daha tez hiss elədi və başa düşdü ki, hava bir balaca soyuyub. İti bu vəziyyətdə narahat eləmək istəməsəm də, növbəti sualı verdim: - Sən heç ömründə ictimai faydalı əməklə məşğul olmusan?

İt dostunun quğacındakı it rahatlığından çox asanlıqla əl çəkdi, gəlib xüsusi bir əda ilə əvvəlki yerində çömbəldi, başını dik tutub dedi:

- Mən dövlət işində işləmişəm.

- Nəəə? - Təəccübləndim və bunu gizlətmədim də.

- Sərhədçi olmuşam - poqraniçnik, dövlət sərhəddini qorumuşam. Bir başa KQB-yə tabe idik. Siz adamlar dövlət adamı deyirsiniz ee, dövlət adamı - mən də dövlət iti olmuşam.

Maraq məni götürdü: - Bəs onda niyə bu günə düşmüsən?

İt mırıldadı: - Bir gün zastavaya çox hörmətli bir adam gəldi. Komandirlə o ki var yeyib-içdilər, axırda da komandir keflənib məni bağışladı qonağa, qara günlərim də ondan sonra başladı...

- Bəs sonra - əlüstü soruşdum.

- Sonra da elə bil ömrümdə ikinci dəfə it oldum... Sahibim hündür boy, enlikürək, keçəl bir kişi idi. Mənim dilimi tapa bilmirdi, evi də həmişə qonaqlı-qaralı olurdu. Yeməkdən korluğum yox idi.

Mənə taxtadan qəşəng bir it damı da tikdirmişdi. Dediyim kimi, yeməkdən korluq çəkməsəm də, menyü tamam dəyişmişdi - it nə qədər sür-sümük yeyər axı? Sahibim ipə-sapa yatmadığımı görüb, məni zəncirlədi. Zəncir yoğun və ağır idi. Mənim yeməyimi çox vaxt özü gətirərdi düz həyətin aşağısındakı it damına. Ancaq hiss edirdim ki, hürməməyimdən çox narazı idi.

Mən sahibimi də başa düşürdüm. Əslində it hürmølidi də... həyətdə gəzişən toyuq-cücədən, ailə üzvlərindən və səmadan başqa heç nə görmürdüm - bağ-bağat dörd tərəfdən hündür daş hasarla əhatə olunmuşdu. Ömürlük bu dörd divar arasında qalacağımı fikirləşdikcə qan-tər məni basırdı, gözlərim qaralırdı - bu yerdə it lap adam kimi kədərləndi və susdu.

Çönüb Qıllı Kişiyə baxdım və dəhşətə gəldim - kaş siz də bunu görəydiniz - gördüm ki, itin gözündəki kədərlə Qıllı Kişinin üzündəki kədər eynidi, - oxşardı - sifətlər də bir-birini təkrar eləyirdi. Mən heç vaxt belə şey görməmişdim; əgər itin başını kəsib, adamın başının yerinə qoyan olsaydı, heç nə dəyişməzdi. Ürəyimdən keçdi ki, bir güzgü olaydı, mən də öz sifətimə baxaydım...

Ancaq köhnə qəbiristanlıqda güzgünə gəzirdi - ölülər güzgüyə baxmırlar... Ölülərin güzgüsü olmur ha... Ölülərin bir ayrı güzgüsü var, özü də bədənnümə güzgüdü - bu, baş daşlarıdı. Ölülər bu güzgüdə heç vaxt özlərini görə bilmirlər. Ölülərin bədənnümə güzgüsündə adları yazılır, doğulduqları və öldükləri il yazılır, bu güzgüdə "toyunuz mübarək, ölülər" - yazılmır - bu da belə güzgüdü.

Bu daş güzgüdü - daş güzgülər ancaq qəbri göstərə bilir. Bir də qəbrin içindəki ölünü - diqqətlə baxsanız, görərsiniz.

İstədim Qıllı Kişiyə deyəm ki, sir-sifətdən bir-birinizə yaman oxşayırsınız, demədim, qorxdum ki, inciyər bu incimiş. Amma desəm də, deməsəm də, bu, belə idi.

**(ardı 11-ci səhifədə)**



Araz Hüseynov

## Kişilər ağlamaz, kişilər susar...

**Ramiz Rövşənin təbirincən desək, kişilər bir olmur. Ağlayanı da var, ağlamayanı da. Ağlayan yəqin ki, mentalitetimizə görə gizlin ağlayar. Bu gün xəstəxanada kardiologiya şöbəsində ürək xəstələrini müşahidə etdim, ürək xəstələri, ürək xəstəliyini tapanların əksəriyyəti kişilər idi. Statistika götürsələr, infarktdan əziyyət çəkənlərin böyük əksəriyyəti kişilərimizdir.**

**Buradan tez qənaətə gəlib, deyə bilərik ki ailə qayğısı, problemlər kişilərin üzərindədir ona görə. Xeyir, kifayət qədər də ailənin, övladlarının qayğısını tək çəkən qadınlar da var.**

**Sual yaranır ki, niyə məs kişilər?**

**Çünki kişilər ağlamır. İçin - için ağlayır. İçlərində ağlayırlar. O, göz yaşlarını içlərinə axıdırlar.**

**Bu hardan gəlir axı?**

**Bizim uşaqlığımızdan bizə təlqin edirlər. Oğlan uşağı yıxılıb, dizi sıyrılanda deyirlər kişi ağlamaz. Bu bəlkə də Mirzə Ələkbər Sabirin "kişi ağladıqca qeyrətsizləşir" mövqeyindən gəlir. Hətda atalar ən şirin nemət övlad itirən də belə ağlamırlar.**

**Bu bilirsiniz nə deməkdir?**

**Bir başa infarkt olmaqdı.**

**Kişinin övladı, valideynləri ölür, o necə qəlbdir ki ağlamasın?! Kişilər ağlayar, onun da ürəyi ürəkdir. Ancaq qadınlar ağlaya bilər. Hətda ona da deyimlər qoşublar, qadın ağlayanda gözəl görünür, gözəlləşir.**

**Türk, əcnəbi filmlərini seyr etsinlər. Hər bir kinoda kişinin yaxın adamları öldükdə özündən asılı olmayaraq gözlərindən yaş gəlir. "Kişilər ağlamaz" deyənlər onları başa düşməyən ləyaqətsiz, ürəksiz adamların fikridir. Mən bu fikirlə razılaşmıram. Kişi də insandır, kövrəkdir, ağlaya da bilər. Burda qeyri-adi heç nə yoxdur. İnsanlar necə, hardan belə bir deyim qənaətinə gəliblər, bilmirəm. Hətda insan adi musiqinin təsirindən belə ağlaya bilər.**

**Ağlamaq lazımdır ki, çiynindəki yükləri və stressi göz yaşlarına çevirib yüngülləşəsən. Ürək xəstəsi olmayasan.**

**Nüsrət Kəsəmənli demişkən**

**"Kişilər ağlamaz" demə əzizim,**
**Kişinin göz yaşı içinə axar.**

**İçinizdə ağlamayın, sağlam qalın Kişilər!**

# DÜNYAM MƏNİM...

**Birbaşa mövzuya keçirəm. Ona görə birbaşa mövzuya keçirəm ki, indi adamların səbri daralıb. O qədər kəmhövsələ olublar ki, sözü, cümləni sona qədər dinləməyə özlərində güc tapmırlar. Bax, elə mənim özüm də indiki anda, indiki məqamda çox danışıb, fikirlərimi şaxələndirib oxucunu yormaq istəmirəm. Onsuz da oxucuların indi hansı durumda olduğuna yaxşı bələdəm və bilirəm ki, nə yazsam da, nə desəm də ancaq fikirlərin mübtədaxəbərinə diqqət yetirəcəklər. Və beləcə, yalnız sözün, fikrin görünən tərəfinə qapı açıb, diqqət yetirib onunla da işlərini bitmiş hesab edəcəklər. Mən isə belə istəmirəm!..**

Bir də ki, kimdi mənim istəyimlə hesablaşan. Yaradan öz böyüklüyü ilə hər kəsi özünə tabe edib, öz itaətinə, öz ayağına gətiribdi. İstər daxilində, qəlbində Tanrı sevgisi olsun-olmasın, bəndə ən çıxılmaz durumda yenə qeyri-ixtiyari olaraq üzünü Tanrıya tutur. İçindən Tanrıya yalvarış, Tanrıya biət, Tanrıya kömək və son güvənc hissi baş qaldırır. Bax, ona görə də mən tanıdığım-tanımadığım yaxın-uzaq adamların hamısının dünyasına bir addım yaxınlaşanda öncə fikirləşirəm ki, onun içində Tanrı sevgisi var, yoxsa yox?! O adamla, o bəndə ilə ən azından bir cərgədə yanaşı dayanmaq olar, yoxsa yox?!

İnsanın hərəkəti də, duruşu da, danışığıda, baxışı da, nəfəsi də, hətta qeyri-ixtiyari hərkətləri də onun içini səhifələməyə, iç dünyasına yol tapmağa imkan verən şərtlərdəndir. Bax, bu mənada dilində Tanrı adı, içində, əməlində naqislik olanların çox qısa zamanda faş olması, açıqlanması, görünməsi heç də təsadüf deyil. Yəni hardasa bu dediyim fikir bir atalar sözünü yadıma salır. Müdriklər, ağıllı adamlar deyiblər ki, "dostunu göstər, sənin kim olduğunu deyim".

İndi mən də sevincin, kədərin kim və yaxud nə olduğunu bilmək üçün hara və necə üz tutacağımı düşünə-düşünə ağlımdan, ürəyimdən gəlib keçənləri öz-özümə pıçıldayıram. Kənardan baxan elə bilər ki, havalanmışam və yaxud da nəyisə təkrarlayıram. Amma yox! Əksinə, mən təkrardan daha çox yeniliyi qəfil və yaxud da gözlənilmədən baş verən, özünü təqdim edən qeyri-adilikləri çox sevirəm. Düşünürəm ki, hər gün yeni nəyisə görmək, hər gün təzə nəyinsə şahidi olmaq daha maraqlıdır. Çox təəssüf ki, mənim bu istəyim özünün parametrləri, forma və məzmunu ilə nə qədər yazdıqlarıma, diqtə etdiklərimə uyğun gəlsə də, amma mahiyyət baxımından o qədər də ürəkaçan deyil. Çünki...

Tanıdığım, yaxından bələd olduğum, hətta bəzən özüm qədər dəyərləndirdiyim insanların Cənnət və Cə-



hənnəm anlayışı ilə bağlı fikirlərini dinləyəndə, eşidəndə öz-özümə bu fikir sahiblərinin məntiqlərinə bir az şübhə ilə yanaşmışam. Ona görə ki, içərisində olduğum, yaşadığım reallığı xəyalla, lap elmi dildə desəm, fantaziya ilə eyniləşdirmək, müqayisə etmək, fərqləndirmək məni o qədər də razı salmayıbdı. Bu o demək deyil ki, mən ateistəm, Cənnətin və yaxud da Cəhənnəmin mövcudluğuna şübhə ilə yanaşıram. Xeyr! Mən sadəcə durduğum, dayandığım yerin özünü görürəm. O yerə baxıb dəyər verməyə, qiymətləndirməyə, ifadə etməyə çalışıram. Və ən doğma adamlarımın belə Cənnət arzusuyla etdiyi hərəkətlər, atdığı addımlar mənə yapışmır. Mənə bir az kobud ifadə etsəm, heç nə vermir. Çünki bu, məqsədli, hesablanmış addım olur. Amma hər şeyin gözəli təbii olandı. Yəni Cənnətə getmək, cənnətməkan olmaq üçün gecə-gündüz ancaq məqsədli şəkildə, hesablanmış, düşünülmüş formada nələrisə etmək və ürəyinin, hisslərinin tələbinə qadağa qoymaq məncə doğru deyil. Və deməli, o addımı atanların istədiyi cənnətə düşəcəyi də mənə doğru gəlmir. Axı onlar özlərini o qədər istəklərdən, o qədər xoş anlardan, hətta sevgilərdən məhrum ediblər ki, Cənnətə düşsünlər!.. Ancaq Tanrı bütövlüyü, tamlığı dəyərləndirib və bizi buna yönəldibdi. Biz də Allah bəndəsi olaraq sevincimizdən, sevgimizdən kəsib Cənnətə düşmək yolunda guya mübarizə aparmağımız, yumuşaq desəm, divara atılan daş və yaxud da sabun köpüyüdü mənim üçün. Kimsə və yaxud da kimlərsə necə düşünür düşünsün, mənim cənnətim də, cəhənnəmim də içimdə olduğum andı - yaşadığımdı, yaşatdıqlarımdı!..

Bəli, bu yazını bilgisayara diqtə etdiyim zaman çərçivəsində iki xəbərin ovqatını yaşadım. Onlardan biri sevincli, necə deyərlər, mənim bir valideyn kimi ovqatımı yüzə-yüz xoş anlar üzərində kökləyən xəbər idi. Nəfəs dərməmiş, o xəbəri hələ ruhumun bütün nöqtələrinə çatdırmamış ikincisi özünü çaparaq yetirdi. Bu da ailəmlə bağlı idi. Onun sızıltısı, onun acısı bir an öncə gələn xəbəri kölgələdi. Bax, mən onda cənnəti, cəhənnəmi yaşadım. Bax, mən onda Tanrının mənə yazdığını nədən ibarət olduğunu bir daha anladım. Və birmənalı şəkildə bildim ki, bir saat, bir gün, bir ay, bir il və daha nə bilim hansısa zaman kəsiyində Cənnətin və ya Cəhənnəmin məni gözlədiyini düşünmək mənim üçün absurddu. Çünki mənim cənnətim də, cəhənnəmimdə içində olduğum andan ibarətdir.

Sizi deyə bilmərəm və sizin düşüncələrinizə də başqa bir nəzərlə baxmıram. Ona görə də öz gerçəkliklərimin kölgəsində oturub öz Tanrıma üzümü tutub deyirəm:

**- Nə yazmısan, nə vermisən, onu yaşamışam, onu yaşayıram. Və verdiyin ömür boyu da yaşamağa məhkumam. Bilirəm ki, yazdığın, verdiyin mənim haqqım, mənim qismətim, mənim taleyim, mənim bəxtimdi. Və bir də bilirəm ki, o yazdıqların, o verdiklərin elə mənim Cənnət və Cəhənnəmimdi. Kim şübhə edir, kim şəkk edir, kim inanc və inam gətirir, bu onun öz işidir. Mənim bir bəndə olaraq şəksiz-şübhəsiz, inamlı-inancsız bildiyim Sənin yazdığın və mənim yaşadığım Cənnət və Cəhənnəmimdi! Kim istəyirsə, qapım onun üzünə açıqdır. Gəlsin, Cənnəti və Cəhənnəmi birlikdə yaşayaq!..**

ƏBÜLFƏT MƏDƏTOĞLU

## "Bakcell" müştəri xidmətlərində rəqəmsallaşmanı genişləndirir




**İnnovasiya lideri "Bakcell" müştəri xidmətlərində proseslərin daha sürətli və təhlükəsiz şəkildə həyata keçirilməsi məqsədilə "SİMA" texnologiyası əsasında biometrik verifikasiya həllini tətbiq edib.**

Yeniliyə əsasən, rəsmi satış nöqtələrində həyata keçirilən nömrə və cihaz satışı, nömrənin addan ada keçirilməsi, eləcə də nömrənin dublikatı xidmətinə dair əməliyyatlar zamanı müştərilərin identifikasiyası "SİMA" tərəfindən təqdim edilən üz tanıma texnologiyası əsasında icra olunur.

"SİMA" üzərindən tətbiq edilən biometrik verifikasiya təhlükəsizlik səviyyəsinin daha da gücləndirilməsinə xidmət edir və proseslərin icrasını sadələşdirir. Eyni zamanda, kağızsız sənəd dövriyyəsi sayəsində xidmət müddəti əhəmiyyətli dərəcədə qısalır və müştəri təcrübəsi optimallaşdırılır.

"Bakcell" müştəri xidmətlərində rəqəmsal həllərin tətbiqini mərhələli şəkildə genişləndirməyi planlaşdırır.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan "Bakcell" süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir. "Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# Ötən ay Azərbaycan türk dövlətləri ilə 500 milyon dollarlıq ticarət aparıb

**Bu ilin yanvar ayında Azərbaycan və türkdilli ölkələr arasında ticarət dövriyyəsinin dəyəri 503 milyon 356 min ABŞ dolları təşkil edib.**

Adalet.az Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 9,4 % azdır.

O cümlədən, ay ərzində Qazaxıstanla ticarət dövriyyəsinin dəyəri 33 milyon 32 min ABŞ dolları olub ki, bunun da 10 milyon 260 min ABŞ dolları ixracın, 22 milyon 772 min ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə bu istiqamətdə ticarət dövriyyəsi 34 %, o cümlədən ixrac 80,2 %, idxal isə 19,9 % artıb.

Özbəkistanla ticarət dövriyyəsinin dəyəri 25 milyon 528 min ABŞ dolları olub ki, bunun da 5 milyon 490 min ABŞ dolları ixracın, 20 milyon 38 min ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə bu istiqamətdə ticarət dövriyyəsi 75,1 %, o cümlədən ixrac 2,1 dəfə, idxal



isə 67,5 % artıb. Qırğızıstanla ticarət dövriyyəsinin dəyəri 2 milyon 671 min ABŞ dolları olub ki, bunun da 2 milyon 239 min ABŞ dolları ixracın, 432 min ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə bu istiqamətdə ticarət dövriyyəsi 3,3 dəfə, o cümlədən ixrac 24,4 dəfə artıb, idxal isə 41 % azalıb.

Türkiyə ilə ticarət dövriyyəsinin dəyəri 431 milyon 732 min ABŞ dolları olub ki, bunun da 268 milyon 159 min ABŞ dolları ixracın, 163 milyon 573 min ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə bu istiqamətdə ticarət dövriyyəsi 10,7 %, o cümlədən ixrac 13 %, idxal isə 6,6 % azalıb.

Türk Dövlətləri Təşkilatının müşahidəçi üzvü olan Macarıstanla ticarət dövriyyəsinin dəyəri 3 milyon 754 min ABŞ dolları olub ki, bunun da 467 min ABŞ dolları ixracın, 3 milyon 286 min ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə bu istiqamətdə ticarət dövriyyəsi 34,3 % azalıb, o cümlədən ixrac 48 dəfə artıb, idxal isə 42,4 % azalıb.

Digər müşahidəçi üzv ölkə olan Türkmənistanla ticarət dövriyyəsinin dəyəri 6 milyon 639 min ABŞ dolları olub ki, bunun da 1 milyon 758 min ABŞ dolları ixracın, 4 milyon 881 min ABŞ dolları idxalın payına düşüb. Son 1 ildə bu istiqamətdə ticarət dövriyyəsi 74,8 % azalıb, o cümlədən ixrac 41,5 %, idxal isə 79 % azalıb.

(əvvəli 9-cu səhifədə)

# İt intervüsü

Qıllı Kişi daş güzgünün üstündən durdu, əllərini göyə qaldırıb ürəkdən gərnəşdi - gendən baxan elə bilərdi ki, bu kişi Allahdan nə isə istəyir. O, əllərini aşağı salıb üzümə baxdı - onun üz-gözündə yazılmışdı: "nooldu, qurtarmısan?" Deyəsən, it də yorulmuşdu, elə mən də bir balaca yorulmuşdum.

Vaxt keçirdi, itə dedim: - Səni ilk dəfə kim döyüb, özü də nə üstündə?

- Məni ilk dəfə elə həmin keçəl kişi döyüb, - özü də bərk... - susdu.

- Nə üstə? Axı durduğu yerdə adam iti döyməz ki...

- Döyər... - it yenə mırıldadı. - Dediyim kimi zəncirin hesabına həyətbacaya öyrəşmişdim. Sərhəd-zad yadımdan çıxmışdı. Keçəl kişi də mənə etibar eliyirdi - hərdən açıb buraxırdı məni həyətə. Bəzi vaxtlar da qonaqları ilə bağçada gəzəndə məni göstərib nəsə deyirdi, uzaqdan yaxşı eşitmirdim, ancaq hiss eliyirdim ki, məndən danışır.

Bizim qonşuluğumuzda, hasarın o üzündə bir it də var idi, o, tez-tez hürürdü, səsi də yaman xoşuma gəlirdi. O, hürəndə mən də hərdən ona cavab verirdim. Bir gün keçəl kişi yenə zəncirimi açdı, məni darvazadan çölə çıxardı. Çöl tərəfdən darvazanın ağzında çömbəldim. Sahibim mənə xeyli nəzər yetirəndən sonra darvazanı açıq qoyub getdi evə.

Yaz vaxtı idi. Bir azdan çömbəlməkdən bezdim və üzümü qonşunun hasarına tərəf tutub bir dəfə hürdüm. Qonşunun iti öz işvəli səsilə cavab verdi. Bir az keçmiş quyruğunu bulaya-bulaya gəldi yanıma, elə qəşəng it idi ki... Bir-birimizə qoşulub getdik gəzməyə. Evimizdən xeyli aralanıb özümüzü verdik qalınlığa...

Üç gün üç gecə bir yerdə olduq... Düzü heç qayıtmaq istəmirdik. Ancaq qayıtdıq. Darvazanın balaca qapısından içəri girdim - həyətdə heç kəs yox idi. Getdim dinməz-söyləməz girdim yerimə və it olsam da başa düşdüm ki, bərk yorulmuşam. Başımı qabaq pəncələrimin üstünə qoyub yatmamışdan qabaq qonşunun hasarına tərəf hürdüm və həmişə olduğu kimi artıqlaması ilə cavabımı aldım: sən ordan hür, mən burdan...

Axşamüstü sahibim gəlib çıxdı.

Evdən nəsə soruşdu - belə başa düşdüm ki, məni soruşur. Sonra həyətin ayağındakı it damına tərəf gələndə mən onun qabağına yüyürdüm. O isə məni damın yanına gətirib zəncirlədi. Sonra da lapatka sapı ilə kasıb itini döyən kimi döydü məni - zəncir ağır, ağac yorğun, keçəl kişi əsəbi... Hər şey cəhənnəm, iti döyərlər də, noolar...

Ancaq keçəl kişi məni döyəndə qonşunun səs-küyə gəlib darvazanın o balaca qapısından mənə baxan qəşəng itinin gözünə bir də görünə bilməyəcəkdim, bir də onların hasarına tərəf hürməyəcəkdim... - Bax bunu o keçələ heç vaxt bağışlamaram. Mən boyda köpəyi qonşunun qəşəng itinin yanında pərt elədi... O qədər dartındım ki, qayış xalta qırıldı. O hündürlükdə hasardan necə tullandığımdan xəbərim olmadı. Xeyli qaçandan sonra dayandım, geriyə baxanda gördüm qonşunun qəşəng iti.

Gözlərimi ona zilləmişdim. Qonşunun qəşəng iti ildırım sürətilə yanıma gəldi, bir-birimizi xeyli iylədik, üzümü onun üzünə sürtdüm və qəfil yoxa çıxdım. Bir də qonşunun qəşəng itini görmədim... Yəqin heç vaxt onu görməyəcəyəm... Nə başınızı ağrıdım... O vaxt qonşunun qəşəng iti ilə keçirdiyim üç yaz gününü keçəl kişi burnumdan tökdü... Qonşu iti çox qəşəng idi.

Ola bilər ki, adamların xoşuna gəlməsin, ancaq sən it olsaydın, - mənə müraciət etdi, - və qonşunun qəşəng itini görsəydin, heç vaxt ondan ayrılmaq istəməzdin. Nə isə... Lənət adama.

- Bəlkə lənət şeytana demək istəyirsən?

- Yox... Adama... Adama... Şeytan bizə neyləyib ki... Nə eləyibsə, adam eləyib, adam...

- Sonra səni yenə döyüblər, yoxsa elə...

- Elə yox... bir-iki dəfə daş atıblar... Bir dəfə də - keçən qış uşaqlardan biri qartopu ilə başıma elə vurdu ki, az qala huşumu itirmişdim.

- Elə qartopu dəyməknən?

- Yox, - it tələsik cavab verdi, - qartopunun içinə daş qoymuşdular. İçində şeytan olan adam qartopunun içinə nəsə qoymalıdı də... - O uşaq daş qoymuşdu. Başımı yana çəkərdim, heç dəyməzdi - fikirləşdim, uşaqdı də, qoy ürəyi açılsın, nə biləydim qartopunun içində daş olan kimi, uşağın içində də şeytan oturub. Hardan ağlıma gələydi? Bir də ki, it ağlıdı də... Ağlımız olsaydı adamların əlinə niyə baxırdıq ki...

- Siyastlə məşğul olursunuz?

- Siyasət it peşəsi deyil... Bayaq dedim ki, bizim içimizdə şeytan olmur, şeytan itdən iyrənir, adamlarla oturub-durur.

- Şeytanın nə dəxli var bura?

- Şeytanın o dəxli var ki, yer üzündə neçə milyard adam varsa, üç o qədər də şeytan var. Hər adama üç şeytan düşür... Səni necə başa salım. Bax, bir şeytan bir adamın içində özünün halalca səkkiz saatını işləyir.

Sonra o birisi gəlir, sonra da o birisi gəlir - elə bil ki, üç "ismen" işləyirlər də... Dövlət əhəmiyyətli obyektlərdə olduğu kimi... Siz adamlar da şeytanlar üçün dövlət əhəmiyyətli obyektsiniz...

Başa düşdün? Bunu da yadında saxla. Balaca siyasətçiləri balaca və az təcrübəli şeytanlar idarə edirlər, böyük və nəhəng siyasətçiləri isə daha təcrübəli, böyük və nəhəng şeytanlar idarə edirlər. Bax, buna görə də siyasət it meydanı deyil.

Özümə haqq qazandırmaq istədim:

- Bu sualı sənə bilirsən niyə verdim, - bayaq dedin ki, dövlət işində işləmisən, "poqraniçnik" olmusan... Dövlət işi ilə siyasət arasındakı məsafə elə çox da deyil... Ona görə... Yoxsa başqa bir fikrim-zadım yoxdu.

Üzümü bu dəfə də Qıllı Kişiyə tutdum:

- Bəs sən...

- Yox, yox. Elə mən də...

- Nə mən də? - Lap dirəndim.

Qıllı Kişi ağır-ağır dedi: - Şeytan məndən də iyrənir. Elə bilir ki, mən də itəm... yox...

Bu sözdən sonra yenə adamla itin üzünə baxdım - elə bil əkizdilər...

İtin cavabları məni alt-üst eləmişdi, yəqin ki, adam balasından belə cavabları eşitmək qeyri-mümkün idi. Və bu qeyri-mümkünlük burulğanında bir az da ürəkləndim, gözlənilməz bir sual verdim:

- Sən Diananın ölümünə necə baxırsan?

İt özünü yığışdırıb dedi:

- Adi adamlardan fərqli olaraq Diananın "payına" daha çox şeytan düşmüşdü - axı o, prinsessa idi və Diananın şeytanları adi adamların içindəki şeytanlardan gözəl idilər.

Onun ölümünə gəlincə isə Diananı məhv etməyi qərarlaşdıran və bunu həyata keçirən şeytanların içindəki baş şeytan, ərəb milyonçusunun oğlunun baş şeytanı ilə çoxdan danışıqlar aparmışdı və onlar mütləq görüşməli idilər - elə görüşdülər də... əbədi görüşdülər və heç vaxt ayrılmadılar... - İt bir an dayandı başını dik tutub lap uzaqlara baxdı. Mənə elə gəldi ki, Parisdəki körpüyə tərəf baxır. Və təbii ki, burda otura-otura Parisdəki körpünün altına "baxıb qayıtmaq" xeyli çəkdi və it qayıtdı və qayıdan kimi də dedi: - Diana dünyanın ən gözəl şeytanı idi. Qonşunun qəşəng iti bir az Dianaya oxşayırdı.

Yaxşı ki, Diana Eyfel qülləsindən yıxılıb ölmədi. Yaxşı ki, Diana elə körpünün altında öldü...

- Gəlin qısaca olaraq adam haqqında fikrimizi bir də dəqiqləşdirək.

- Şeytan adamın içindədirsə, adam da şeytanın paltarıdır. Şeytan sizi paltar kimi əyninə geyir - vəssalam!

- Axı şeytanın buna nə ehtiyacı var, şeytan elə şeytandı də.

- Səhv eləyirsən. Bax sənin içindəki şeytan qoymur ki, sən əsl həqiqəti qanasan. Şeytan - qoy sənin içindəki də eşitsin - adamı ona görə paltar kimi əyninə geyir ki, onu tanımasınlar.

Mənim içimdəki şeytan tərpəndi və səsi gəldi: - İt düz deyir!

Üçümüz də bu səsi açıq-aydın eşitdik - it də, adam da, mən də. Ancaq mən təslim olmaq istəmədim: - Bəs adamın yaratdıqları, kəşfləri, sivilizasiya - bunlar da boş şeydir?

İt də dediyinin üstündə bərk durmuşdu: - adam bu günə qədər nə yaradıbsa, hamısını özünə, təbiətə və təbiətdəki canlılara oxşadıb - təbiəti təkrar eliyib və təzə heç nə yaratmayıb. Adamın yaratdığı dünya şöhrətli adam heykəllərini sındırıb içinə baxsan, onun da içindən şeytan heykəli çıxacaq. İnanmırsan get, sındır, bax...

Mənə elə gəlirdi ki, bir də bu iti heç vaxt görməyəcəyəm, ona görə də qarşısında aciz-avara qaldığım bütün sualları vermək istəyirdim bu itə: - Adam üşüyəndə içindəki şeytan da üşüyürmü? - soruşdum.

- Adam üşüyəndə şeytan ona gülür.

- Niyə gülür?

- Şeytan adama gülür ki, "heç paltar da üşüyər?".

Bayaq keçib-gedən it topası yadıma düşdü və mənə elə gəldi ki, onların hamısı oğrudurlar - İt oğrusu...

- Adamların dilində, - üzümü yenə itə tutdum, - əzbər olan bir söz var: it oğrusu - səncə bu, nə deməkdir?

Nədənsə, Qıllı Köpək də bayaqkı itlərin getdiyi səmtə baxdı:

- Bilirəm, - dedi, - adamlar elə bilir ki, itlərin hamısı oğrudur. Haqları da var. - Bir an dayandı, - heç eşitmisən ki, it iti oğurlasın?

- Yox.

- Ancaq adam adamı oğurlayır... Adam meyit oğurlayır, dövlətdən, xalqdan oğurlayır, yerdən-göydən oğurlayır - əlinə nə keçdi oğurlayır. Oğurluq etmək üçün adamların imkanları çooox genişdir. Çox...

Bəs it neynir, qarnını doyurmaq üçün nə isə aparır... İndi daha adamların əlindən oğurlamağa da bir şey qalmayıb. İndiki itlər oğurluq eləmir ee, sümsünür... İndi özün de, hansı görkəmli oğrudu - it, yoxsa adam?

Canavar hər şeyi təbiətdən öyrənir, it isə adamdan. Belə götürəndə itin ustadı adamlardı də. Hələ yaxşı ki, itlər adamların kora-zehin "şagirdləri" olub - əgər itlər adamların tökdüyünün hamısını götürsəydi - adamxasiyyət, adamxislət olsaydılar dünya çoxdan dağılmışdı. İt olduğuma görə demirəm - bu mənim it həqiqətimdi.

Yenə Qıllı Köpəyin üzünə baxdım - Qıllı Kişiyə oxşayıb durmuşdu. Və mən bu yerdə inandım ki, əgər bu sualları Qıllı Kişiyə versəydim, itdən eşitdiyim cavabları eşidəcəkdim, mənə də inanın, bu da mənim həqiqətimdir - adam həqiqəti...

Və qalmışdım it həqiqəti ilə adam həqiqətinin arasında - yavaş-yavaş sıxılırdım.

Elə bil suallar tükənmişdi. Qıllı Köpək çömbəldiyi yerdən yenə durdu və it kimi gərnəşdi, adəti üzrə yenə dostuna diqqət göstərib quyruq bulayanda ağlıma bir sual da gəldi: İtlər niyə yaltaq olur? - dedim.

- Həəə, yaxşı yadıma saldın, - elə bil itin kefi duruldu. Çönüb quyruğuna baxdı. - Bax, quyruq nə üçündür deyə bilərsən?

- Nə bilim vallah... Quyruq haqqında elə bir dərin məlumatım olmasa da, onu deyə bilərəm ki, quyruq elə quyruqdu də, - çox zəif bir cavab verdim. Deyəsən, it də bunu hiss elədi.

- Baax, - it davam etdi, - burun iy bilmək üçündür, qulaq eşitmək üçün, nə bilim ayaqlar təhlükədən qaçmaq üçündür... Bəs quyruq nə üçündür? - Özü də cavab verdi, - quyruq da bulamaq üçündür, mən itəm, quyruğum var, bulayıram, sənin ki, quyruğun yoxdur, sən niyə olmayan quyruğunu bulayırsan həəə, ay adam?!

Quyruq bulayan it də, yaltaq adam da eyni şeydi - ikisi də nəfsinin quludu. Nəfs itin ancaq quyruğunu tərpədirsə, adam çönüb olur bütöv bir quyruq - yeni adam şəklindən çıxır. İtin tamahı bir tikənin başındadır, adamın tamahının min şəkli var. Ona görə də, it bir tikə yaltaqlanır, adam min tikə. İt doyur, adam doymur, doya bilmir. Siz gedin qurban kəsin ki, adamın tamahı it tamahı olsun. Onda yer üzündə heç kəs acından ölməz. İncimə... Adamın tamahı rus çarı Yekaterinanın dünyaya məlum quduz tamahından da itidi...

Yaltaqlıq it peşəsidi. İt peşəsinə yiyələnmək istəyən adam elə itdi və acizdi. Əgər aciz olmasaydı, başqa bir peşənin sahibi olardı - lap elə ev tikərdi və it kimi yox, adam kimi yaşayardı. Adam təkcə ölümə yaltaqlana bilmir, yoxsa yer üzündə adam əlindən tərpənmək olmazdı. Ət-ətə dayanardınız, sonra da başlayardınız bir-birinizi yeməyə - mən ömrümdə it əti yeməmişəm...

- Deyirlər, itnən dost ol, ancaq çomağını əlindən yerə qoyma - mən söhbəti dəyişdim.

İt dostuna baxdı və dedi: - Gör bu adamın əlində çomaq var? Yoxdu... Ona qalsa itlərin arasında belə bir sözü var: adamla dostluq elə dişlərin tökülənədək - yəqin adamlar bu sözü eşitməyiblər, biz də belə fikirləşirik.

- Xoşbəxtsənmi? - Mən itdən soruşdum - "dünyada məndən bədbəxt canlı yoxdur..." deyəcəyini eşitmək ümidilə soruşdum, ancaq başqa söz eşitdim, it üzümə qarşı dedi:

- Adamlardan xoşbəxtəm. Dünyada ən böyük bədbəxtlik adam olmaqdır. Adamın başı çox bəlalıdı. Deyirlər itin canı bərk olar - ancaq adamın çəkdiyi əzabi-əziyyətə biz bir gün də dözə bilmərik - hamısı da ağlının ucundan.

Ağıl adamın başında olur və başının da bəlasıdı. Bilirsən, əslində yer kürəsi bütün canlılarındı və hamıya bəs eləyərdi - o gündən ki, başladılar ağılla idarə etməyə - hər şey pozuldu, mizan-tərəzi itdi. Sənə deyim ki, ağıl adamın axırına çıxdığı kimi, adam da dünyanın axırına çıxacaq, az qalıb... Biz itlər zəlzələni hər kəsdən əvvəl hiss eləyirik.

Adam ağlı təbiətin işinə qarışan gündən yer kürəsi çürüməyə başlayıb, xəbəriniz yoxdur... Elə adamların özü də, itlər də... Dünyada ancaq itlər və heyvanlar yaşasaydı, yerin burnu da qanamazdı. Siz adamlar isə hamımızın üstündə gəzdiyi yerin şah damarını kəsmisiniz, qalıb qanı axaaxa... Görəydim, elə adam nəsliniz kəsilsin!!!

İt qarğışını ilk dəfə eşidirdim, it adamı qarğıdı, it ağzına düşdük...

İtin belə deməyi mənə bərk toxundu - necə olsa mən də özümə görə bir adamam axı... Və doğrudan da, adamlığım tutdu:

- İtsən də it! - dedim.

İtin də itliyi tutdu, mırıldadı, deyəsən, lap üstümə cummaq istədi, ancaq ani olaraq Qıllı Kişiyə baxdı, mənə elə gəldi ki, ondan icazə istəyir - üstümə cummadı və deyəsən, bir az sakitləşdi, özünü ələ aldı: - Deyirsən ki, itsən, it! Noolar it olanda, mən özüm-özümü yaratmamışam ki...

İtə noolub ki... Hərbidə işləyənlərimiz var... lap elə mədəniyyət sahəsində, sirkdə. - İt elə bil tələsirdi və onun bəzi sözlərini başa düşmək olmurdu. - Dünyanın bəzi məmləkətlərində itləri müdafiə eləyən könüllü cəmiyyətlər var... Noolub itə? Ona adam dəyib! Dünyanın ilk kosmonavtı elə it olub də, it...

Mən itin sözünü kəsməsəydim, heç adam deyildim: - Yoox ee, belə özünüzü tərifləyirsiniz,- hər təsadüfə qarşı bir gülümsədim də, itdi də...

- Mən it olsam da, olan şeyləri deyirəm. Ancaq siz adamlar... Bir də gördün ki, birisini qoydular ortalığa illər uzunu, gecə-gündüz tərifləntdilər, tərifledir - nə tərif eliyənlər doydu, nə də tərif olunan.

Neçə illər belə gedəndən sonra bir də gördün qəfil hər şey dəyişdi, kişinin ayağı büdrəyən kimi başladılar tərsinə dnışmağa, tərifçilər oldu tənqidçi-söyüşçülər. Elə sözlər, elə böhtanlar dedi ki, adamlar, dünyanın bütün itlərinin tükləri biz-biz oldu. Sənin adamlardan xəbərin yoxdur deyəsən. Tərif yaltaqlığın lirikasıdı.

Adamların dediyi, quraşdırdığı, icad eləyib yaratdığı tərifin qabağında heç nə dura bilməz - heç tərifləNən özü də... - Qıllı Kişiyə baxdı, kişi başını aramla tərpətdi, razılıq elədi. Mən isə özümdən asılı olmayaraq, bir də onların qoşa sifətinə baxdım - bir almanı yarı bölmüşdülər...

- Tərif haqqında daha nə deyə bilərsən? - bu dəfə adam ədası ilə itdən soruşdum.

- Adam torpağı çürüdəcək, tərif də adamı...

- Sənin də quyruğun var, öz şəxsi quyruğun haqda nə deyə bilərsən? - Yarı ciddi, yarı zarafat soruşdum.

- Mənim quyruğum adam quyruğunun tayı deyil - yenə mırıldadı, - mənim quyruğumun bir ucunu görürsən, - quyruğunu qaldırıb ucunu göstərdi, - bir ucu da ürəyimdədi. Hələ bundan başqa, - Qıllı Kişini göstərdi, - mənim quyruğumun tərpəndiyini görən olmayıb. - Sifəti ciddiləşdi, bir az susdu, yenə çönüb dostuna baxandan sonra əlavə etdi, - it dilində qəzet çıxsaydı, gələn dəfə də mən səndən intervü alardım... adam intervüsü....

- Çıxar, it dilində də qəzet çıxar... çıxacaq... - Bunu da Qıllı Kişi ağırağır dedi, - bəlkə də var, xəbərimiz yoxdur...

Mən də söhbətə bildiyim kimi qarışdım: - İt dilində qəzet çıxacağını deyə bilmərəm, ancaq gələn dəfə bu suallarla sənə müraciət edəcəyəm - səndən intervü götürəcəm. - Nə isə, bu sözləri deməyi özümə borc bildim.

- Zəhmət çəkmə, - Qıllı Kişi dedi, - itin dediklərinin hamısı mənim də ürəyimdəndir - bizim qəlbimiz birdir.

- Onda səndən bir-iki şey soruşum. - İtin dostuna dedim.

- Buyur.

- Sənin bədənin niyə belə qıllıdı?

- Mənim yumurta soyutması kimi ağappaq bədənim vardı, neçə illərdi çöllərdə qalmışam, evsiz-eşiksiz... bədənim başladı tük gətirməyə. Yəqin bədənim təbii şəraitə uyğunlaşmağa başlayır. Axı, mənim yaşayışım adam yaşayışı deyil.

- Niyə köhnə qəbiristanlıqda məskunlaşmısan?

- Bura döşümə yatır...

- Mən sənə kömək eləyə bilərəm?

- Allahın gücü çatmayan işə bəndəsinin gücü heç çatmaz.

- Hərdən gəlim dəyimmi sənə?

- Olmaz! - Qıllı Kişi bir kəlmə dedi.

- İndi mən gedirəm. Bəlkə mənə sözün var... adamıq də...

- Sözümü ona demişəm, - iti göstərdi, - vəsiyyət də eləmişəm...

- Vəsiyyət?

- Bəli...

- İtə niyə vəsiyyət eləyirsən ki? - Onun bu hərəkəti köpəyi selbə tutan kimi tutdu məni.

- Sən onu bilməzsən, uşaqsan...

- Yaxşı, əgər sirr deyilsə, nə vəsiyyət eləmisən? - az qala qılığına girə-girə dedim ki, görüm nə deyir.

- Demişəm ki, öləndə... məni yesin... yoxsa ortalıqda qalıb iylənərəm...

- Bəs o nə dedi? - Baxışlarını uzaqlara zilləmiş iti göstərdim.

- Əvvəlcə dedi ki, mən adam əti yemirəm... sonra ağladım, sıtqadım, yalvar-yaxar elədim - razılaşdı...

Bir də gördüm ki, köhnə qəbiristanlığın köhnə cığırı ilə evə tərəf elə addımlayıram ki, elə bil dizə qədər bataqlığın içi ilə gedirəm...

Mən köhnə tabut kimi köhnə qəbiristanlıqdan çıxdım. Köhnə tabut köhnə qəbiristanlıqdan qayıdırdı.

Köhnə tabutun içi boş idi...

...Sonra köhnə qəbiristanlığa köhnə bir qaranlıq çökdü. Köhnə ölülər köhnə qaranlığı köhnəlmiş sümüklərinin üstünə çəkib köhnə bir rahatlıq tapdı...

1998

# TEXNOLOJİ İNKİŞAFIN VAHİD RƏQƏMSAL ARXİTEKTURA PROBLEMİ



***Əlövsət Qaraca Əliyev, "Texnoloji İnkişaf Akademiyası" Elm-Təhsil-İqtisadiyyat İctimai Mərkəzinin rəhbəri, professor***

**XXI əsrin ikinci onilliyindən etibarən qlobal iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi rəqəmsal transformasiya, süni intellekt texnologiyaları və böyük verilənlər ekosisteminin formalaşması olmuşdur. Rəqəmsal iqtisadiyyat artıq ənənəvi iqtisadi modelləri üstələməkdə, dövlət idarəçiliyindən sənayeyə, maliyyə sektorundan sosial xidmətlərə qədər bütün sahələrdə struktur dəyişiklikləri yaratmaqdadır. Bu kontekstdə Azərbaycanın texnoloji iqtisadi inkişafının yeni nəsil rəqəmsal arxitektura üzərində qurulması məsələsi strateji zərurətə çevrilmişdir.**

2026-cı il 11 fevral tarixində keçirilmiş müşavirədə ölkə prezidenti, cənab İlham Əliyev tərəfindən "Azərbaycanın yeni rəqəmsal arxitekturası"nın vahid fəaliyyət planının zəruriliyini qeyd edilməsi və 27 fevral 2026-cı ildə isə 2026-2028-ci illər üzrə həmin Fəaliyyət Planının təsdiq edilməsi, bu sahənin dövlət səviyyəsində prioritet elan edilməsiylə həmin problemin aktuallığını bir daha təsdiqləmişdir.

Dövlət başçısı rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması və fiber-optik infrastrukturun genişləndirilməsini Azərbaycanın uzunmüddətli, dayanıqlı inkişafının əsas şərtləri kimi müəyyən etmişdir. Bu yanaşma texnoloji transformasiyanın milli iqtisadi təhlükəsizlik, enerji potensialı və geoiqtisadi mövqelə inteqrasiyasını nəzərdə tutur.

Prezidentin çıxışında rəqəmsallaşma, süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, fiber-optik dəhlizlərin genişləndirilməsi və dövlət xidmətlərinin vahid platforma üzərindən təşkili ölkədə uzunmüddətli dayanıqlı inkişafın əsas şərtləri kimi müəyyən edilmişdir. Bu yanaşma yalnız texniki modernləşmə deyil, həm də institusional transformasiya, koordinasiyalı idarəetmə və insan kapitalının yenidən formalaşdırılması kimi kompleks problemləri ehtiva edir. Belə ki, müasir mərhələdə qlobal iqtisadi sistem sürətli rəqəmsal transformasiya prosesini yaşayır. Rəqəmsallaşma, süni intellekt, böyük verilənlər (Big Data), bulud texnologiyaları və kibertəhlükəsizlik artıq yalnız texnoloji yenilik deyil, iqtisadi artımın, rəqabət qabiliyyətinin və milli təhlükəsizliyin əsas determinantlarına çevrilmişdir. Xüsusilə 2030-cu ilədək süni intellekt texnologiyalarının qlobal ÜDM-ə trilyonlarla dollar əlavə dəyər qazandıracağı proqnozlaşdırılır ki, bu da rəqəmsal iqtisadiyyatın strateji əhəmiyyətini daha da artırır. Bu baxımdan Azərbaycanın texnoloji iqtisadi inkişafının yeni nəsil rəqəmsal arxitektura əsasında formalaşdırılması məsələsi yalnız müvafiq sektorların texnoloji modernləşməsi deyil, həm də milli iqtisadi inkişaf modelinin yeni nəsil struktur yenilənməsi kimi çıxış edir.

Bu istiqamətdə Rəqəmsal infrastrukturun mövcud vəziyyəti və inkişaf dinamikası ilə əlaqədar qeyd oluna bilər ki, son illərdə ölkədə genişzolaqlı internet infrastrukturunun genişləndirilməsi, "Onlayn Azərbaycan" layihəsinin icrası, dövlət bulud texnologiyasının (Government Cloud) formalaşdırılması və "mygov" platformasının tətbiqi rəqəmsal transformasiyanın ilkin mərhələlərinin uğurla həyata keçirildiyini göstərir. İnternet sürətinin əhəmiyyətli dərəcədə artması, dövlət qurumlarının "dövlət cloudu"na inteqrasiyası və biometrik identifikasiya alətlərinin tətbiqi yeni nəsil rəqəmsal arxitekturanın texniki bazasını formalaşdırır.

Bununla belə, ölkədə bir çox texniki və institutsional problemlər hələ də qalmaqdadır. Belə ki, 1) dövlət qurumlarında məlumatların pərakəndə və fərqli standartlarla saxlanılması; 2) kağız əsaslı sənəd dövriyyəsinin tam ləğv edilməməsi; 3) vahid "data lake" (verilənlər hövzəsi) modelinin tam formalaşmaması; 4) rəqəmsal transformasiyanın bütün qurumlarda prioritet kimi qəbul edilməməsi; 5) kibertəhlükəsizlik risklərinin artması və s. kimi problemlərin mövcudluğu göstərir ki, əsas məsələ təkcə texnologiyaların tətbiqində deyil, həm də vahid koordinasiya mexanizminin, institusional inteqrasiyanın və hüquqi bazanın adekvatlaşdırılmasının təmin edilməsindədir.

Yeni rəqəmsal arxitektura probleminin aktuallığı bir neçə istiqamətdə özünü göstərir:

**1. Qlobal rəqabət mühiti - Süni intellektin 2030-cu ilə qədər dünya iqtisadiyyatına trilyonlarla dollar əlavə dəyər qatacağı proqnozlaşdırılır. Azərbaycan bu prosesdən kənarda qala bilməz.**

**2. Enerji və geostrateji üstünlüklər - Ölkənin artan enerji generasiya gücü və Şimal-Cənub, Şərq-Qərb dəhlizləri üzərində yerləşməsi rəqəmsal tranzit və data mərkəzləri üçün əlverişli şərait yaradır.**

**3. İqtisadi diversifikasiyanın zəruriliyi - Qeyri-neft sektorunun inkişafı və ixrac potensialının artırılması üçün rəqəmsal innovasiya əsas alət kimi çıxış edir.**

**4. Dövlət xidmətlərinin səmərəliliyinin yüksəldilməsi - Fəaliyyət göstərən və perspektiv "ağıllı" xidmət modelləri vətəndaş-dövlət münasibətlərində keyfiyyətcə yeni mərhələ formalaşdırır.**

**5. Kibertəhlükəsizlik çağırışları və kiberdayanıqlıq - Artmaqda olan rəqəmsallaşma prosesi paralel olaraq milli informasiya təhlükəsizliyi sisteminin gücləndirilməsini zəruri edir.**

Qeyd edilən problemlərin aktuallıq dərəcəsinin yüksək olması onunla əsaslandırılır ki, qlobal rəqabət mühitinin dəyişməsi nəticəsində rəqəmsal iqtisadiyyat ənənəvi iqtisadi modelləri üstələməkdədir. İKT sektorunun sürətli artımı, dövlət xidmətlərinin rəqəmsallaşdırılması və süni intellekt əsaslı qərarvermə mexanizmlərinin tətbiqi artıq inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında fərqləndirici meyar kimi çıxış edir. Azərbaycan qeyri-neft sektorunun inkişafını prioritet elan etdiyindən, rəqəmsal arxitekturanın qurulması iqtisadi diversifikasiyanın zəruri komponentinə çevrilmişdir. Bununla yanaşı olaraq ölkənin enerji və infrastruktur üstünlüklərinin olması rəqəmsal iqtisadiyyatın digər sektorlarla güclü inteqrasiyasına səbəb ola bilir. Bu aspektdə Azərbaycanın formalaşdırdığı nəqliyyat və energetika dəhlizlərinin gələcəkdə fiber-optik dəhlizlərə çevrilməsi ideyası ölkənin coğrafi mövqeyinin rəqəmsal tranzit imkanlarına transformasiyasını nəzərdə tutur. Mövcud generasiya gücünün artması və yaşıl enerji layihələrinin reallaşdırılması data mərkəzlərinin və "hökumət buludu"nun genişləndirilməsi üçün əlverişli əsas yaradır. Rəqəmsal arxitektura yüksək enerji tələbatlı süni intellekt həllərinin tətbiqi baxımından enerji təhlükəsizliyi ilə də birbaşa bağlıdır.

Ümumiyyətlə dövlət idarəçiliyinin arxutektur transformasiyası şəraitində "Elektron hökumət" modelindən "ağıllı dövlət" modelinə keçid artıq struktur zərurətə çevrilmişdir. "MyGov" platformasının vahid pəncərə prinsipi əsasında inkişafı, biometrik identifikasiya sistemləri və "hökumət buludu" infrastrukturunun qurulması dövlət-vətəndaş münasibətlərinin yeni mərhələyə daxil olduğunu göstərir. Lakin məlumatların pərakəndə saxlanılması, fərqli platformaların koordinasiyasız fəaliyyəti və vahid "data lake" mühitinin formalaşmaması rəqəmsal arxitekturanın effektivliyini məhdudlaşdıran problemlərə çevrilmişdir.

Hazırki dövrdə rəqəmsal transformasiya ilə paralel olaraq kibertəhlükəsizlik riskləri, kiberhücumların miqyası və mürəkkəbliyi də artır. Dövlət və özəl sektorun rəqəmsallaşması fonunda milli kibertəhlükəsizlik sisteminin institusional və texniki baxımdan gücləndirilməsi zəruri şərt kimi çıxış edir. Bu baxımdan sahəvi SOC-ların və CERT strukturlarının yaradılması, normativ bazanın təkmilləşdirilməsi və insan kapitalının gücləndirilməsi strateji əhəmiyyət daşıyır. Bu kontekstdə innovasiya ekosisteminin institusional zəifliyi hiss olunur. Startapların maliyyələşdirilməsi mexanizmlərinin məhdudluğu, vençur kapital bazarının inkişaf etməməsi və rəqəmsal ixracın aşağı səviyyəsi texnoloji iqtisadiyyatın tam potensialının reallaşmasına mane olur. Halbuki texnopark rejiminin tətbiqi, xarici şirkətlərlə əməkdaşlıq innovativ mühitin formalaşdırılması üçün baza yaradır.

Göründüyü kimi, qeyd edilən problemin aktuallığı iqtisadi təhlükəsizlik, milli rəqabət qabiliyyəti və institusional transformasiya kontekstində də özünü göstərmiş olur. Belə ki, yeni nəsil rəqəmsal arxitekturanın formalaşdırılması mövcud normativ-hüquqi baza ilə sıx şəkildə bağlıdır. Son illərdə qəbul edilmiş və ya təkmilləşdirilmiş normativ aktlar isə bu sahədə hüquqi transformasiyanın başlandığını göstərir.

Bu çərçivədə: 1) Rəqəmsal inkişaf və süni intellektin inkişafı konsepsiyasının qəbulu; 2) 200-dən çox normativ-hüquqi aktda dəyişikliklər; 3) İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyalarının təsdiqi; 4) Texnopark rezidentləri üçün xüsusi hüquqi rejimin yaradılması; 5) Startap və innovasiya fəaliyyətinin təşviqinə yönəlmiş qanun layihələrinin hazırlanması və s. rəqəmsal arxitekturanın hüquqi əsaslarını formalaşdırır.

Xüsusilə "sandbox" rejiminin tətbiqi innovativ həllərin məhdud tənzimlənmiş mühitdə sınaqdan keçirilməsi üçün müasir hüquqi mexanizm kimi çıxış edir. Bu model dünya praktikasında fintex, səhiyyə texnologiyaları və rəqəmsal xidmətlər sahəsində geniş tətbiq olunur və Azərbaycan qanunvericiliyinə inteqrasiyası innovasiya ekosisteminin sürətlənməsinə xidmət edir.

Bundan başqa, miqrasiya qanunvericiliyinin rəqəmsal səyyahlar və "freelancer"lər üçün uyğunlaşdırılması, vençur maliyyələşmə mexanizmlərinin hüquqi əsaslarının yaradılması, dövlət satınalmalarında innovativ məhsullar üçün xüsusi prosedurların tətbiqi rəqəmsal iqtisadiyyatın hüquqi dayanıqlığını təmin edən digər amillərdəndir.

Ümumiyyətlə Azərbaycanda son illərdə rəqəmsal inkişafın hüquqi əsaslarının formalaşdırılması istiqamətində mühüm addımlar atılmış, müvafiq sahədə sistemli hüquqi transformasiya proseslərinə başlanılmışdır. Bununla yanaşı, yeni çağırışlar mövcud qanunvericilik bazasının daha da təkmilləşdirilməsini tələb edir:

"Sandbox" hüquqi rejiminin tətbiqi - innovativ texnologiyaların məhdud tənzimləmə şəraitində sınaqdan keçirilməsi üçün çevik mexanizmlərin yaradılması;

"Vençur və kraudfandinq mexanizmlərinin hüquqi tənzimlənməsi - startap maliyyələşməsinin institusionallaşdırılması;

"Miqrasiya qanunvericiliyinin liberallaşdırılması - rəqəmsal səyyah və "freelancer" statuslarının tanınması;

"Verilənlərin mühafizəsi və paylaşımı ilə bağlı vahid standartların müəyyənləşdirilməsi - süni intellekt tətbiqlərinin hüquqi əsaslarının möhkəmləndirilməsi.

Bu kontekstdə qoyulan problemin Azərbaycan qanunvericiliyi ilə məntiqi uzlaşması ondan ibarətdir ki, rəqəmsal arxitekturanın formalaşdırılması artıq normativ səviyyədə qəbul edilmiş prioritet olsa da, onun effektiv reallaşdırılması üçün hüquqi çərçivənin dinamik şəkildə yenilənməsi zəruridir. Hüquqi baza texnoloji inkişafdan geri qalmamalı və innovasiyanı tətbiq edən və riskləri idarə edən mexanizm kimi çıxış etməlidir. Beləliklə elmi-nəzəri kontekstdə problemin qoyuluşunun mahiyyəti ondan ibarətdir ki, ölkənin rəqəmsal transformasiyası yalnız texnoloji modernləşmə kimi deyil, sosial-iqtisadi sistemlərin struktur cəhətdən yenidən qurulması prosesi kimi qiymətləndirilməlidir. Bu prosesdə yeni nəsil rəqəmsal arxitekturası: 1) infrastruktur (enerji, fiber-optik, data mərkəzləri); 2) platforma iqtisadiyyatı (vahid dövlət platformaları); 3) verilənlər ekosistemi (data lake və süni intellekt tətbiqləri); 4) innovasiya ekosistemi (startaplar, vençur fondları, texnoparklar); 5) təhlükəsizlik sistemi (SOC, CERT, milli kibertəhlükəsizlik strategiyası) və s. kimi komponentlərin inteqrativ modelini tələb edir. Göründüyü kimi, problemin mahiyyəti yalnız texniki yenilənmə deyil, institusional, hüquqi və idarəetmə mexanizmlərinin kompleks transformasiyasıdır.

Azərbaycanın texnoloji iqtisadi inkişafının yeni nəsil rəqəmsal arxitekturasının yaradılması məsələsi qlobal rəqabət mühitində ölkənin mövqeyinin möhkəmləndirilməsi, iqtisadi diversifikasiyanın sürətləndirilməsi və dayanıqlı inkişafın təmin olunması baxımından strateji əhəmiyyət daşıyır. Dövlət səviyyəsində irəli sürülmüş təşəbbüslər, formalaşmaqda olan normativ baza və mövcud infrastruktur üstünlükləri problemin həlli üçün əlverişli zəmin yaradır. Lakin bu potensialın reallaşdırılması vahid koordinasiya, hüquqi uyğunlaşdırma, insan kapitalının inkişafı və kibertəhlükəsizlik sisteminin gücləndirilməsi ilə mümkündür. Bu səbəbdən də tədqiqat problemi yalnız aktual deyil, həm də Azərbaycanın uzunmüddətli texnoloji-iqtisadi strategiyasının əsas istiqamətlərindən biri kimi çıxış edir.

**Azərbaycanın texnoloji iqtisadi inkişafının yeni nəsil rəqəmsal arxitekturasının yaradılması problemi milli inkişaf modelinin transformasiyası ilə birbaşa bağlıdır. Dövlət səviyyəsində formalaşdırılmış strateji baxış, enerji və infrastruktur üstünlükləri, beynəlxalq tərəfdaşlıq formatları və mövcud hüquqi baza bu istiqamətdə mühüm imkanlar yaradır. Lakin koordinasiya, insan kapitalı, məlumatların inteqrasiyası və innovasiya maliyyələşməsi kimi sistemli məsələlərin həlli olmadan yeni nəsil rəqəmsal arxitekturanın tam formalaşması da mümkün deyildir. Bütün bunlar bir daha onu təsdiq edir ki, vahid rəqəmsal arxitektura probleminin aktuallığı və həllinin zəruriliyi qlobal və milli transformasiya çağırışlarından irəli gəlsə də onun praktiki realizasiyası Azərbaycan reallığı və qanunvericiliyi ilə məntiqi və strateji uyğunluq şəraitində həyata keçirilə bilər.**

## *Azərbaycanın ən populyar sosial şəbəkələri*

**Bu ilin fevral ayında Azərbaycanda istifadəçilərin"Instagram" sosial şəbəkəsində aktivliyi əvvəlki ayla müqayisədə 4,26 faiz bəndi azalaraq 16,85 faiz təşkil edib.**

Adalet.az bu barədə "Global Stats" Statistik Mərkəzinin məlumatlarına istinadən xəbər verir.

Bu göstərici üzrə ikinci yeri "Facebook" tutur. Hesabat ayında platformanın payı aylıq ifadədə 10,92 faiz bəndi artaraq 39,8 faizə çatıb.

Siyahıda üçüncü yeri 21,93 faiz göstərici ilə "YouTube" tutur (əvvəlki ayla müqayisədə 0,69 faiz bəndi azalma).

Bu göstəriciyə görə dördüncü yerdə "Pinterest" sosial şəbəkəsi qərarlaşıb. Onun yerli bazardakı payı ötən ayla müqayisədə 2,16 faiz bəndi azalaraq 8,83 faiz təşkil edib.

Media platforması "LinkedIn" 5,79 faiz göstərici ilə Azərbaycanın sosial şəbəkələr bazarında populyarlıq üzrə beşinci yeri tutub (ay ərzində 1,94 faiz bəndi azalma).

Reytinqdə altıncı yeri isə 5,38 faiz göstərici ilə "X" platforması tutub (əvvəlki ayla müqayisədə 1,58 faiz bəndi azalma).

## *Sürətli pul köçürmə sistemləri ilə əməliyyatların həcmi məlum olub*

**Bu ilin fevralın 1-nə Azərbaycanda sürətli pul köçürmə sistemləri ilə banklara 209,3 min ədəd əməliyyat üzrə 120,7 milyon manat vəsait daxil olub.**

Adalet.az bu barədə Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə aparılmış əməliyyatlar üzrə 2,6 min ədəd və ya 1,2% az, vəsait həcmi üzrə isə 24,3 milyon manat və ya 25,2% çoxdur.

Hesabat dövrü ərzində bir ödənişin məbləği 576,5 manat təşkil edib ki, bu da 2025-ci ilin fevralın 1-nə olan göstəriciyə nisbətən 121,7 manat və ya 26,8% çoxdur.

Eyni zamanda bu ilin fevralın 1-nə Azərbaycanda sürətli pul köçürmə sistemlər ilə banklardan kənara 57,3 min ədəd əməliyyat üzrə 36,4 milyon manat vəsait köçürülüb. Bu isə 2025-ci ilin eyni dövrü ilə müqayisədə aparılmış əməliyyatlar üzrə 25,9 min ədəd və ya 31,1% az, vəsait həcmi üzrə isə 100 min manat və ya 0,3% çoxdur. Dövr ərzində sürətli pul köçürmə sistemləri ilə banklardan kənara köçürmələr üzrə bir ödənişin məbləği 635,7 manata bərabər olub ki, bu da 2025-ci ilin fevralın 1-nə olan göstəriciyə nisbətən 199,7 manat və ya 45,8% çoxdur.




Vaqif Yusifli
Filologiya elmləri doktoru


# ƏYALƏT ŞAİRİ OLMAYAN TOFİQ HÜSEYN

## (Bölgələrdə ədəbi həyat) silsiləsindən

**Altmışıncı illər idi. "Aman Allah, o illər necə qaynar illər idi. Elə bil Sözün bəxti açılmışdı. Hamı nəinki şeir oxumağa, şeir əzbərləməyə can atırdı. Küçədən keçəndə qulağın misralar eşidirdi. Ədəbiyyat mübahisələri, müzakirələr ara vermirdi. O illər yadındadırsa, sən, mən, digər dostlarımız şeir dərnəklərində iştirak edirdik. O illərin hər günü, hər saatı məndən ötrü qiymətlidir. Mənim üçün "Yazarlar camiəsi" məhz həmin illərdə mövcud idi. Yadındadırsa, cavan şair olan bizləri ali məktəblərə, peşə məktəblərinə, fəhlə yataqxanalarına, lap elə qızlar yataqxanasına görüşə dəvət edirdilər. Şəxsən məndən ötrü o görüşlərdə səslənən alqış sədaları ilahi səs kimi indi də qulağımdadır".**

Altmışıncı illərin qaynar ədəbi həyatında "Yazarlar camiəsi"nin cavanlarını bir yerə toplayan, hamının oraya can atdığı məkanı mən də xatırlayıram- ora Sabir adına kitabxana idi ki, ali məktəblərdə oxuyan şeir sevdaları burada şeirlərini oxuyur, Ağacavad Əlizadənin, Kələntər Kələntərlinin, Tofiq Bayramın, Tofiq Mütəllibovun, Cabir Novruzun -"cavan ustadların" məsləhət və tövsiyələrini dinləyir, ilk şeirlərinin çap olunacağı günü həsrətlə gözləyirdilər. O cavanlardan btiri də Universitet tələbəsi Tofiq Hüseyn idi. İllər keçəndən sonra Sabir Rüstəmxanlı "Şair dostum Tofiq Hüseynə" məqaləsində yazacaq ki: "Başda böyük alimimiz Əkrəm Cəfər olmaqla Siyəzənə getdik. Mədəniyyət sarayında unudulmaz bir görüş oldu, görüşdə biz Xəlil Rzanı daha yaxşı tanıdıq. O, Tofiq Hüseynin son dərəcə səmimi, dağ çeşməsi kimi şeirlərini təriflədi".

Amma mən o illərdə üzünü görməsəm də, Tofiq Hüseyni bir şair kimi altmışıncı illərin ortalarında-Masallı rayonunda çap olunan "Çağırış" qəzetindən tanımışam. Qəzetin redaktoru şair Vaqif Hüseynov Tofiqin bir neçə şeirini oxuculara təqdim etmişdi (səmimi ön söz də yazmışdı).

*Ömrüm əsən külək, çalxanan dəniz,*
*Onun bircə anı bir qərinədir.*
*Ömrümün karvanı saçssiz-səmirsçiz*
*Ömrümün sonuna baş alıb gedir.*

*Çoxusu bilmir ki, yerin üstündə*
*Bizlə bir ünvanlı insan yaşayır.*
*Ömrümün karvanı çiyinlərində*
*İntizar daşıyır, sevinc daşıyır.*

*Yollara baxıram ucsuz-bucaqsız,*
*Yollarda sevinclə kədər görüşür.*
*Bəzən od tuturam odsuz-ocaqsız,*
*Bəzən qismətimə sevinmək düşür.*

*Mən karvan sürürəm, elə karvan ki,*
*Onu görməyibdir çoxusu hələ.*
*Sakitcə gedirəm qum üstündəki*
*Qoca Füzulinin ləpirləriylə.*

*Sıxmayır qəlbimi daha intizar,*
*Sarban eyləmişəm zehni, duyğunu.*
*Adi karvanlardan bircə fərqim var:*
*Bilmirəm hardadır mənzilin sonu.*

Mənzilin əvvəli də, sonu da şeir karvanına yol alırdı və indi 78 yaşına cəlib çatmış Tofiq Hüseyn hələ də o karvanda yol gedir. Tofiq Hüseynin həyat-ömür-gün karvanı isə Əli Bayramlıya (indiki Şirvan şəhərinə) yönəldi və o, "İşıq" qəzetində əmək fəaliyyətinə başladı, sonralar da qəzetçilik - müxbirlik onu tərk etmədi. Bu qəzetdə özünü istedadlı bir jurnalist kimi oxuculara tanıtdı, sonra "Hacıqabul" qəzetinin ilk redaktoru oldu, "Həyat" və "Respublika" qəzetlərinin bölgə müxbiri kimi çalışdı. Amma bu jurnalistika sahəsi onun şairliyinə zərrə qədər də əngəl olmadı. Tofiq Hüseyn əyalətdə yaşasa da, "əyalət şairi" olmadı.

Tofiq Hüseynin altmış illik şeir karvanına nəzər yetirirəm- onun təmsil olduğu ədəbi nəslin kredosunu- şeirdə poetik axtarışlardan irəli gələn başlıca xüsusiyyətləri sezirəm: Azərbaycan dilinin şeirdə reallaşan obrazlı ifadəsi, fikirlə hissin-ağılla ürəyin vəhdəti, bədii təsvir vasitələrinin rəngarəngliyi, hər şeirində yeni söz demək istəyi və nəhayət, "Həyat hardadırsa, poeziya da oradadır və deməli, poeziya üçün məzmun da oradadır" (Belinski) prinsipinə əməl etmək səyi...

Sovet dönəmində əksər şairlər fəhlə həyatını təsvir edən çoxlu şeirlər yazmışlar. Amma bu çoxsaylı şeirlərin içində Qabilin "Tramvay parka gedir" və Əli Kərimin "Fəhlələr" şeirləri tamamilə fərqli idilər, bu şeirlərdə Sovet fəhləsi deyil, İnsan-Fəhlə obrazları canlandırılırdı -Tofiq Hüseynin də "Fəhlə əlləri" adlı bir şeiri var. Və Tofiq bu şeirdə şablon ifadələrdən qaçır, bir fəhlənin şan-şöhrətli əməyindən, döşündəki medallardan deyil, yalnız onun əllərindən söz açır:

***Əllərin elə bil nəhəng binadır-***
***Barmaqlarınsa mərtəbələri.***
***Bu mərtəbələr səni ucaldır.***
***Əllərin neft yatağıdır,***
***Əllərin marten sobası,***
***polad əridirlər sankti orada.***

Beləliklə, Tofiq Hüseyn ustadlardan, onların poetik təcrübəsindən öyrənə-=öyrənə və təbii ki, özünün də fərdi şair duyumu ilə (özünəməxsusluqla) şeirə yanaşırdı. Obyektə, hər hansı nəsnəyə, həyatda baş verən hadisələrə şair baxışı yeni olmalıdır, bu yenilik, Füzulinin "Ver sözə ehya ki.." poetik andı deməkdir. Fikirləşirsən ki, şair gecə lampalarından nə yaza bilər? Amma yazır: "Gecə lampaları-işıq kədəri..Toplayır başına pərvanələri, Baməzə, nağılbaz nənələr kimi". Fikirləşirsən ki, şeirimizdə unudulan adamlar haqqında daha nə yazmaq olar? Amma yazır:

***Unudulan o kövşənlər, düzlər-cəhənnəm,***
***Unudulan o cığırlar, izlər-cəhənnəm.***
***Adamlar da unudulur, söhbətli-sözlü,***
***Adamlar da unudulur, dircə gözlü.***

Fikirləşirsən ki, özündən böyüyə döyülən bir uşağın ağlamağına şeirdə nə məna vermək olar? Nəsihətdən bir kar aşarmı? Amma o uşağın ağlamağını bir ömür yolunun başlanğıcı kimi mənalandırır şair:

***Sən hələ uşaqsan, dünya qocadır,***
***Yol göstərən ömrün harayda, hayda.***
***Sənə dəyən zərbə çox balacadır,***
***Hələlik bir uşaq yumruğu boyda.***

***Bir yumruq nədir ki, ulduz işığı,***
***Çəkici yupyüngül, ağrısı asan.***
***Ağlama, ağlama, gözüm işığı,***
***Tale adlı namərd səni döyəndə,***
***Döyüb üzünə də gülümsəyəndə -***
***Bu yumruqdan ötrü darıxacaqsan.***

Tofiq Hüseynin neçə belə şeirini ("Bir ovuc torpaq", "Od", "Qış axşamı", "Tala", "Yağış yağar", "Pələng", "Yoldaş-səni kim apardı", "Tikan", "Sinəm ürəyimin tabutu imiş", "Sənin sol ayağın", "Yağışdan əvvəl") misal gətirə bilərəm ki, o şeirlərdə də məhz poetik axtarışların şahidi oluruq.

Tofiq Hüseyn Masallının Məmmədxanlı kəndində doğulub və o kənd ərazisinə və əhalisinin sayına görə digər kəndlərlə müqayisədə çox balacadır. Təbii ki, kənd elə kənddir - out-otlağı ilə, ağaclarıyla, kövşənləriylə və babaları-nənələriylə, dünəni-bugünü ilə. Tofiq Hüseynin "Kövşən bayatısı" şeirini mən təbiət-cəmiyyət qarşılığının poetik təcəssüsü hesab edirəm: "Kəndimizin qabağında, göz işlədikcə uzanan otlağı (biz ona köbvşən deyirik) pay torpağı kimi fermerlərə verəndən sonra bu torpaqda kimin ağlına nə gəldi əkdi, uşaqlığımızın xatirələri şum edildi".

***Bilmirəm nə oldu güllü kövşənə,***
***Bilmirəm kim çəkər belə zülümü.***
***Ən yaxın adamtək ağırdır mənə***
***O güllü kövşənin vaxtsız ölümü.***

***Çobanın çaldığı o tütək hanı,***
***Dillənə, könlümüz ilhama gələ.***
***Nə tütək? Sahibkar işə haylayır***
***Qızları "Mersedes" siqnalı ilə.***

Tofiq Hüseyn müasir dövrün, yaşadığımız bu gerçək həyatın şairidirməlakətimizdə, cəmiyyətimizdə, dünyada baş verən hadisələrə-olaylara bir çox şeirlərində şair sözünü deyir. Amma müharibə və şəhidlik mövzusu ön plandadır.

Tofiq Hüseyn əsl təbiət adamıdır ("Təbiət şairi" demirəm) və bu təbiət adamı heç bir şeirində dağın, dənizin, çölün-çəmənin, gülün-çiçəyin, dərənin-təpənin, bulağın şəninə təriflər yağdırmayıb, amma kövşəndən, dağdan, quşlardan, ağaclardan danışanda şeirlərinə bir həzinlik çökür, ("Yaz gələndə ağ libasda, Mat qoyurdun ağ buludu. Heyif sənə gözəl ağac Heyif sənə tez qurudun" "Kefə baxırlar indi vura bilmədiyim quşlar. Ölümlərin üstündən uçurlar, ölümlərinə üstdən aşağı baxırlar".

Onun şeirlərində sevgi notlarına da rast gəlirəm və bu da təbiidir. Amma bu şeirləri sevginin payız ya qış fəslinə oxşatmıram. Bahar ahənginə bürünən sevgi şeirləri də var ("Mən sənin eşqinə cavab verməsəm, Kəsilləm ürəyin imtahanından" "Bir qızın əlində görsən çiçək var, Demək üzüzəsən möcüzə ilə" "Damarlar dolaşan qan yerindəsə Mənə bu sevgini çox görmə Allah" və s. Amma bu bircə misra şeir isə biz yaşlıların etirafı deyilmi: "Qızlar gözəlləşir Biz qocalırıq"..

Mən Tofiq Hüseynin ən yaxın dostlarının ona səmimi münasibətini əks etdirən yazıları da oxudum. Nəbi Xəzri, Tofiq Bayram, Sabir Rüstəmxanlı, Məmməd İsmayıl, İsa İsmayılzadə, Qulu Xəlilov, Tofiq Abdin, İlyas Tapdıq, Əjdər Ol, Rasim Qaraca Tofiq Hüseyn və onun şeirləri barədə yazılar yazıblar ya adını çəkiblər.

**Mən əyalətdə yaşasa da, Azərbaycan ədəbi mühitində çox yaxşı tanınan bir şair haqqında qısaca söz açdım. O şair bəzi şeirlərində öz taleyindən şikayətlənsə də, böyük hərflərlə yazılan ŞAİR adına layiqdir və müasir poeziyamızda öz şeir karvanıyla böyük şeir karvanında yol gedir.**


Qardaşxan Fərzi,
Lənkəran




# Miniatürlər

## Cənnətin qoxusu

***(Baş leytenant, Vətən müharibəsinin şəhidi***
***Vüsal Kazımovun əziz xatirəsinə)***

Gecədən xeyli keçmişdi. Kənd şirin yuxuda idi. O, evdəkilər oyanmasın deyə astaca qapını açdı. Səsə xanımı səksəkəli halda çarpayıdan qalxdı. Qarşısında mərd, cəsur, bir az da zarafata meyilli olan baş leytenant durmuşdu. Əynindəki hərbi geyim çırağın altında daha işıqlı, parlaq görünürdü.

- Xoş gəldin, - xanımın ürəyi sevincdən titrədi. Baş leytenant hərzamankı kimi gülümsədi.
- Niyə yatmamısan? - soruşdu.
- Sən gedəndən...

Xanım ardını gətirə bilmədi. Səsi qırıldı. Gözlərindən axan iki damla yaş yanaqlarında qurudu. Nəfəsi daraldı, havası çatmırdı. Həyacandan əsən əllərini gizlətməyə çalışdı.

Baş leytenant uşaqların yataq otağına boylandı. Dözmədi, barmaqlarının ucu ilə içəri keçdi. İki qız balası mışıl-mışıl yatırdı. Yavaşca dodaqlarını onların alnına qoyub öpdü və...

Xanım örtülmüş qapının səsinə oyandı. Əvvəlcə heç nə anlamadı. Sonra ani olaraq otağa göz gəzdirdi. Bu an az qala ürəyi qopub ağzına gələcəkdi. Qapıya yaxınlaşdı. Bir göz qırpımında titrək barmaqlarını nəyisə itirəcəyindən qorxurmuş kimi dəstəyin üzərində gəzdirdi. Qapının dəstəyi hələ də isti idi. Baş leytenant getmişdi.

Xanımla otaqda baş-başa cənnətin qoxusu qalmışdı...

## Pozulmuş nizam

İnanırdım. İnanırdım ədalətin itmədiyinə. Geniş, yaraşıqlı kabinetdə haqsızlığa dönə-dönə üsyan etdim. Üsyan etdim haqsızlığa. Çünki inanırdım ədalətə. Dediklərim səbirlə, təmkinlə dinlənilirdi. Nə yaxşı, dediyim hər söz baş hərəkəti ilə təsdiqlənirdi. Amma və lakin... Sonda dediklərimin heç biri qəbul olunmadı.

Kabinetdən əsəbi çıxdım. Qaranlıq düşmüşdü. Küçələrdə adamlar seyrək görünürdü. Sahibsiz itlər ara vermədən hey hürürdülər. Kimə, bilinmirdi. Birdən ayaq saxladım. Qeyri-ixtiyari başımı qaldırıb səmaya boylandım. Sayrışan ulduzların arasında mizanı pozulmuş bir tərəzi gördüm, lap yerdəki mizanı pozuulmuş tərəzilər kimi.

## Baş

Keçmiş sinif yoldaşımla "Al Market"in qarşısında rastlaşdım. Əvvəlcə hal-əhvalını, sonra isə yeni təyin olunmuş rəisini soruşdum. Sifəti birdən-birə pörtdü. Əlini təzə qırxılmış üzünə aparıb dedi:

- Pis, çox pis! Oyuna düşmüşük, vallah.
- Nə olub? - təəccüblə soruşdum.
- Olan olub, bundan artıq nə olacaq ki? - suala sualla cavab verdi.

Hövsələdən çıxdım, yenidən soruşdum:

- Axı nə baş verib?

Bu yerdə sinif yoldaşım dərindən ah çəkdi. Gözlərini gözlərimə dikib yenə suala sualla cavab verdi:

- Bir ayaqlı rəis ola bilərmi?
- Əlbəttə, olar.
- Bir qollu necə?
- O da olar.

Ölənlərinə rəhmət! Mən də həmişə belə düşünmüşəm. Axı həmimiz insanıq, həyatda hər şey ola bilər. Amma...

- Nə amma? - səbirsizlik edib sözünü yarımçıq qoydum. - Bəs səni narahat edən nədir?

Sinif yoldaşım bir anlıq susdu. Sonra gicgahını qaşıya-qaşıya cavab verdi:

- Baş, əzizim baş! Kişinin hər şeyi var, amma çiyinlərinin üzərində gəzdirdiyi başı yoxdur.

## Çəpər

Mahmud kişi həyətin ortasındakı iri tut ağacının kölgəsində yerini təzə rahatlamışdı ki, nəvəsi Fərruxla qonşuluqda yaşayan Elçin ona yaxınlaşdılar.

- Salam, babacan.
- Ay salam sizi saxlasın, - deyə Mahmud kişi uşaqları sinəsinə sıxdı.
- Baba, nə olar e, bizim üçün ev tik də. - Fərrux babasının qolunu şıltaqlıqla dartdı.

Mahmud kişi gülümsədi:

- İkinizə bir ev tikim, yoxsa?..
- Hərəmiz üçün ayrı-ayrı, - deyə Fərrux babasının sözünü yarımçıq qoydu.

Mahmud kişi bir azdan iki yaraşıqlı evciyi uşaqların istifadəsinə verdi. O, "ev"ləri çəpərə də salmağı unutmamışdı. Bu vaxt nəvəsi Aynurənin səsi eşidildi:

- Baba, ay baba.
- Eşidirəm, qızım.
- Telefona çağırırlar.

Mahmud kişi telefon danışığından qayıdanda gözlərinə inanmadı. Çəpər sökülmüşdü. İki "qonşu" əl-ələ verib, çəpərin yerinə gül çubuqları sancırdılar...

# 85-Cİ BAHARIN GÖZAYDINLIĞI

## Təbrik ovqatlı düşüncələr

Mənim üçün inandığım və əmin olduğum bir həqiqət var. Bu da hər bir qələm adamının özünü yazmağıdır. Yəni istər nəsr, istər nəzm sahəsi olsun, burada qələm çalan, oxucu ilə təmas quran hər kəs özünü və öz sözünü deyir, çatdırır. Sadəcə olaraq, deyim üslubları, həmçinin fikrin özü söz sahibinin istedad və qabiliyyətindən, həyat təcrübəsindən qaynaqlanır və ona da söykənir.

Bu mənada yaradıcılığına bələd olduğum, imzasını zaman-zaman izləyib və həm yazıçı, həm də şair kimi dəyər verdiyim Şövkət xanım Zərinin kitabxanamda olan ədəbi nümunələri yurd niskili ilə, Qarabağ həsrəti ilə, yaşadığımız 30 illik Vətənsizliyimizlə bağlı ağrılar xatırlananda, necə deyərlər, ötən günlər göz önünə gələndə dərhal məni özünə çəkir. Bunun da iki səbəbi var. Təbii ki, bu səbəbi mən özüm üçün müəyyənləşdirmişəm. O səbəblərdən biri Şövkət xanımın da Vətəndə mənim kimi vətənsiz yaşamasıdır. Bir az da açıqlasam 30 il Cəbrayıla həsrət qalmaq, Horovlu kəndini ziyarət edə bilməmək niskilidir.

İkinci səbəb isə Şövkət xanımın keşməkeşli həyatı və onun bu həyatdan misqalmisqal qopub sözə çevrilən yaradıcılığıdır. Çünki Şövkət xanım öz həyatında kifayət qədər sıxıntılar yaşamış yaradıcılarımızdan, aydınlarımızdan biridir. O, 1941-ci ildə Cəbrayıl rayonu Horovlu kəndində doğulub. Ona görə Sovet-Alman müharibəsinin də acılarından dadıb. Sonra həyat elə gətirib ki, ölkə hüdudlarından kənarda yaşayıb, işləyib. Bu da ona Şərq dünyası ilə təmasda həmin dünyanın özəlliklərindən və gözəlliklərindən xəbərdar olmaqda bir vasitə olub. Və sonra da torpaqlarımızın işğalı, qaçqınlıq, çadır həyatı, bütövlükdə Cəbrayılsız, Horovlusuz illər...

Mən bu həyat yolu cizgilərini ona görə xatırlatdım ki, oxucu özüm üçün müəyyənləşdirdiyim iki səbəbin məğzini anlasın.

İndi masamın üzərində olan "Salam, ömür" şeirlər kitabı ötən ilin sonlarında işıq üzü görüb. Kitabdakı şeirlər 5 bölümdə oxucuya təqdim olunur. Mən bir oxucu olaraq hər dəfə bu kitabı əlimə götürəndə qarşıma hansısa şeiri axtarıb tapmaq məqsədini qoymuram. Eləcə kitabı açıram və səhifələrdən mənə baxan şeiri oxumağa başlayıram. İndi də belə etdim. Açdım və oxudum:

*Ümidim kəm, arzum bölük,*
*Ömür qısa, tale dönük,*
*Tək səndə gördüm böyüklük,*
*Biraz da rüsxət ver, Tanrım!*

*...................................*

*Əlinə yetişsin əlim,*
*Diz çöküb səcdə eləyim,*
*Vətənsiz mən necə ölüm,*
*Biraz da rüsxət ver, Tanrım!*

İlk və son bəndlərini təqdim etdiyim şeirdə mən vətənsizlik yaşamış bir oxucu kimi müəllifin səmimiyyətinə də inandım, o misralara yüklənmiş fikirləri də qəbul etdim. Hətta kəndimizin həsrəti ilə dünyasını dəyişən atamın, anamın hər gün Haramı düzündən üzü Ərgünəşə tərəf boylanıb ah çəkməsini də, öz ocağında torpağa qovuşmaq duasını da xatırladım. Biraz da qabağa gedib deyim ki, 1995-ci ildə yazdığım "Vəsiyyət" şeirimi də xatırladım. Orda vurğulamışdım ki, "üzümü kəndimə tərəf çevirin!".

Bu şeirin fikir tutumu oxucuya həm müəllifin öz yurd niskili ilə yanaşı, həm də bu torpağa ziyarətgah kimi, müqəddəs ünvan kimi qovuşmaq istəyini də sərgiləyir.

*Qollarım açılıb xəzan çağına,*
*Yenə də payızla qucaqlaşmışıq.*
*Qoşulub bozaraq küləklərinə,*
*Ömürdən gör necə illər aşmışıq.*

*Necə yol ötürüb qarlı qışı biz,*
*Necə yol bahara salam vermişik.*



*Bəzən də sarılıb bir-birimizə,*
*Həsrətdən kövrəlib qəhərlənmişik.*
*.................................................*

*Payız yarpağıdır son ümidlərim,*
*Neçə cür dərdimin yuvası onda.*
*Payızı əynimə elə geymişəm,*
*Yayda da gəzirəm payız donunda.*

Bəli, üç bəndini oxuduğunuz bu şeir 2016-cı ildə Strasburqda kağıza köçürülüb. Ürək pıçıltıları və müəllifin Vətəndən uzaqda ömrün payızını vərəqləməsi bir-birinə sarılıb şeirə çevrilib. Və müəllif oxucuya xatırladıb ki, yayda da, qışda da eyni niskillə, eyni həsrətlə ümidi payız yarpağına çevirmək böyük dözüm, iradə və bir də özündə əminlik ifadə edən ümid tələb edir. O ümid ki, payızdan sonra qışın gəldiyini bilsək də bizdə yaza çıxacağımıza şübhə yeri qoymasın. Zənnimcə, elə bu ümid də təkcə Şövkət xanımı yox, bütün Azərbaycanı Böyük Zəfərə - 44 günlük Vətən Savaşına gətirib çıxartdı. Qələbəni xəyaldan, arzudan gerçəkliyə çevirdi.

Kitabdakı ilk şeir əslində elə kitabın adıdır. Və mən bu şeiri oxuyanda özüm özümə sanki bir daxili hesabat verirəm. Çünki Allahın verdiyi ömür, zənnimcə, yüzəyüz öz ixtiyarımızda deyil. Lap konkret desəm, biz bəzən düşünmədən, fərqinə varmadan həyatımızda iynə ucu boyda da izi olmayacaq nəsnələrə, işlərə ömürdən zaman ayırırıq. Bu, israfçılıqdır, ömürə dəyər verməməkdir. Bax bu mənada deyirəm ki, ömür bütünlüklə öz ixtiyarımızda olmur. Amma düşünən, yazan, yaradan, qurub tikən aydınlarımız ömrün tutumunu da bilir, dəyərini də, qədrini də. Bax, Şövkət xanımın "Salam, ömür" şeirində mənim nəql etdiyim düşüncələrim poetik bir üslubda oxucuya xatırladılır. Şair yazır ki:

*Yaz ömrünü qış yaşayıb*
*Ağılar tökdük yollara.*
*Gözümüzdə yaş qovurduq*
*Şəhid düşən oğullara.*

*Qürbət ovutdumu bizi?*
*İnada durdu zaman da.*
*İndi bizdən gedənləri*
*Axtarırıq əlim yanda.*

Bəli, 1941-ci ilin mart ayında, Novruz bayramı günlərində dünyaya gələn Şövkət xanım indi ömrünün 85-ci ilini tamamlayır. Mən əzizim Şövkət xanımı bu münasibətlə təbrik edir və ona öz misraları ilə təbrikimi çatdırıram:

*Davamız yoxdu ki, bəxti yazanla,*
*İstəyi vermirsə o, sənin olmur.*
*Hamının dərdinə uçub gedirsən,*
*Səni sənin qədər gəzənin olmur.*

Bəli, Şövkət xanım, siz hamının, doğmalarınızın, çevrənizin, söz adamlarının həmişə hayına tələsmisiniz, yanında olmusunuz. Maddi, mənəvi dəstəyinizi onlardan əsirgəməmisiniz. Həm də yazmısınız, yaratmısınız. Deməli, 85-ə SALAM! - demək halal haqqınızdır. İnşallah, hələ qarşıda Cəbrayıllı, Horovlu günlərin yubileyləri sizi və sizi istəyənləri gözləyir.

**Əbülfət MƏDƏTOĞLU**

# Azərbaycanın turizm potensialı "ITB Berlin 2026" sərgisində təbliğ olunur

**Azərbaycanın turizm potensialı Almaniya paytaxtında keçirilən Berlin Beynəlxalq turizm sərgisində (ITB Berlin 2026) təbliğ olunur.**

Turizm sahəsində dünyanın ən nüfuzlu sərgilərindən olan "ITB Berlin"də ölkəmizin turizm imkanları Dövlət Turizm Agentliyinin və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə milli stenddə təqdim edilir. Milli stenddə "Azərbaycan Hava Yolları" QSC (AZAL), hotellər, turizm agentlikləri daxil olmaqla 13 sənaye tərəfdaşının iştirakı ilə ölkə turizminin təbliği və təşviqi məqsədilə B2B görüşlər keçirilir və əməkdaşlıq imkanları müzakirə olunur.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev, bir sıra xarici şirkətlərin nümayəndələri milli stendimizi ziyarət ediblər.

Azərbaycan Turizm Bürosunun Avropa və Yaxın Şərq üzrə iş sektorunun müdiri Xədicə Nəsirova milli stendimizə xüsusi marağın müşahidə olunduğunu vurğulayaraq deyib: "Almaniyalı turistlər və almandilli ölkələrin nümayəndələri Azərbaycanda daha çox mədəniyyət, mədəni irs, "İpək Yolu" və təbiət turizminə maraq göstərirlər. Ona görə də milli stendimizdə əsasən bu sahələrlə maraqlanırlar. Son illər Azərbaycanda qış turizminə də maraq artıb. Keçən ildən etibarən Azərbaycan Dövlət Turizm Agentliyi Beynəlxalq Xizək Federasiyası ilə tərəfdaşlığa başlayıb. Artıq ölkəmizdə xizəkçilik üzrə də yarışlar keçirilir. Eyni zamanda, Azərbaycanın brendi müxtəlif ölkələrdə bu yarışlarda reklam olunur".

"ITB Berlin"in özünəməxsusluğu ilə seçildiyini vurğulayan X.Nəsirova sərgi çərçivəsində keçirilən görüşlərdə Azərbaycana satışların və ölkəmizə gələn turistlərin sayının artırılmasına dair müzakirələrin aparıldığını, əsasən "İpək Yolu" marşrutu, qastronomiya, sağlamlıq, biznes turizmi sahələrində imkanların təqdim olunduğunu vurğulayıb.




Azərbaycan stendini ziyarət edən "Inspirational Adventures" şirkətinin nümayəndəsi Harri Kasvel AZƏRTAC-a müsahibəsində bildirib: "Biz səyahəti səvən kiçik qrupları dünyanın autentik və unikal məkanlarına aparmağa fokuslanırıq. Biz kütləvi turistik istiqamətlərə diqqət yetirmirik. Qərb ölkələrindən - Böyük Britaniya, ABŞ, Kanada, Avstraliyadan gələn səyahətçilərə əsasən daha az araşdırılmış regionların yerli mədəniyyətini göstərmək istəyirik. Çünki insanlar fərqli bir şey axtarırlar.

Azərbaycan məhz bu baxımdan maraqlıdır. Azərbaycanı mədəniyyəti, "İpək Yolu" üzərində yerləşməsi, Qafqaz dağları və bölgələr, fərqli ləhcələri olan bənzərsiz kəndlər, - bütün bunlar yeni yerlər kəşf etmək öz mədəniyyətindən tamamilə fərqli mədəniyyət görmək istəyən insanlar üçün çox maraqlıdır".

Fransada fəaliyyət göstərən "Addeom" şirkətinin təsisçisi Fransua Brianson-Marjole də Azərbaycanın əcnəbi turistlər üçün maraqlı olduğunu vurğulayaraq bildirib: "Mənim şirkətim ölkələrin Fransada və Avropada tanıdılmasına imkan yaradır. İnsanlar yeni istiqamətləri kəşf etmək istəyirlər. Fransız turistlər Azərbaycan haqqında elə də çox məlumatlı deyil, buna görə də yeni ölkələri kəşf etmək onların marağına səbəb ola bilər. Azərbaycanın turizm imkanları böyükdür, amma Azərbaycan hələ tam kəşf edilməyib, öyrənilməyə ehtiyacı var. Biz fransızlar bu ölkə haqqında daha çox öyrənmək istəyirik. Ölkənizdə həm inkişaf, həm də geniş imkanlar var".

Dünyanın ən böyük turizm sərgilərindən olan "ITB Berlin"i hər il 100 min nəfər ziyarət edir. Bu il 60 illiyini qeyd edən sərgiyə 190 ölkədən turizm sahəsində fəaliyyət göstərən 5800-dən çox qurum və turist şirkəti qatılıb. Sərgi çərçivəsində Azərbaycan milli stendində "Gizli xəzinələr: təcrübələrin kəşfi" mövzusunda Azərbaycanın dağ piyada marşrutlarını və tarixi "İpək Yolu" irsini əks etdirən təqdimatın da nümayişi planlaşdırılır.

**Qeyd edək ki, ötən il Almaniyadan Azərbaycana gələn turistlərin sayı 11 faiz artaraq 24 minə çatıb.**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 9 (2481) 6 mart 2026-cı il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi




# İMİŞLİDƏ MÖHTƏŞƏM ABADLIQ İŞLƏRİ




**Bu gün çox sevindirici haldır ki, ölkəmizin bütün rayonlarında, qəsəbələrində və kəndlərində abadlıq işləri həyata keçirilir. Əlbəttə, bunları birdən-birə gerçəkləşdirmək elə də asan deyil. Düz 30 ildən çoxdur ki, regionların sosial-iqtisadi inkişafı dövlətin və hökumətin daim diqqət mərkəzindədir. Təbii ki, hər hansı bir işi, böyük layihəni, quruculuq və abadlıq tədbirlərini həyata keçirmək üçün öncədən maddi vəsait lazımdır. Bu maddi vəsaiti də Azərbaycan Respublikası öz daxili imkanları hesabına əldə edib. Heç kim deyə bilməz ki, istər müharibə dövründə, istərsə də dinc dövrdə, hansısa ölkə bizə maddi köməklik göstərib. Yəni bütün məsələlər öz ölkəmizin büdcəsi hesabına geçəkləşdirilib.**

Onu da qeyd edək ki, ölkəmiz öz ərazi bütövlüyünü İkinci Qarabağ savaşında və antiterror əməliyyatında tam bərpa edəndən sonra regionların inkişafına və eləcə də işğaldan azad olunmuş rayonların dirçəlişi üçün böyük məbləğdə, daha doğrusu, milyardlarla manat vəsait ayırdı. Heç şübhəsiz, bu vəsaitin təyinatı üzrə xərclənməsi və eləcə də düzgün xərclənməsi ən önəmli məsələlərdən biridir. İndi Azərbaycanda işğaldan azad olunmuş rayonlar yenidən tikilməklə, qurulmaqla yanaşı, digər regionlarımız da bu böyük quruculuq işlərindən kənarda qalmır.

Ölkəmizdə möhtəşəm abadlıq, quruculuq, tikinti işləri gedən rayonlardan biri də İmişlidir. İmişli daim birmənalı olaraq deyə bilərik ki, Ümummilli Lider Heydər Əliyevin və prezident İlham Əliyevin diqqət mərkəzində olub. Ona görə ki, 1993-cü ildə torpaqlarımız ermənilər tərəfindən işğal olunarkən Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının əhalisinin böyük bir hissəsi məcburi köçkün və qaçqın olaraq bu rayonda yerləşdirildi. Çətin vəziyyətdə olan insanlara qayğı göstərmək, qucaq açmaq, onlara yer vermək elə də asan deyildi. Elə bizim Böyük Bəhmənli kəndindən onlarla ailə İmişli şəhərində və kəndlərində məskunlaşdılar. Onlara yerli camaat öz doğması, əzizi kimi baxdı. Çünki vaxtilə, daha doğrusu İkinci Dünya Müharibəsində, yəni 1941-45-ci illərdə Füzuli rayonu aclıq, çətin vəziyyət olan dövrdə İmişliyə və onun əhalisinə arxa durmuşdu. Və İmişli camaatı da bu yaxşılığı heç vaxt unutmamışdı.

Son 30 ildə İmişlidə çox möhtəşəm abadlıq, quruculuq və tikinti işləri görülüb. Burda bir-birindən gözəl sosial obyektlər, xəstəxanalar, uşaq bağçaları, məktəblər inşa edilib. Və o məktəblərdə hər cür müasir texnologiya və texnika istifadəyə verilib. Aydındır ki, yeni sistemlə və yeni texnologiya ilə işləmək, şagird hazırlamaq və onları vətənpərvərlik ruhunda tərbiyə etmək daha əlverişlidir. Bu gün demək olar ki, İmişlidə həm də müasir inzibati binalar, dövlət və digər qurumlar üçün hər cür tələblərə və standartlara cavab verən binalar inşa edilib.

Onu da qeyd edək ki, İmişlidə yeni infrastrukturun, yolların çəkilməsinə, su, qaz və işıq xəttinin qurulmasına da böyük önəm verilib. Bununla yanaşı, şəhərin və qəsəbənin mərkəzi küçələri, prospektləri əsaslı surətdə yenidən təmir edilib və insanların istifadəsinə verilib. Bir-birindən gözəl parklar, xiyabanlar və yaşıllıqlar zolağı salınıb. Nə az-nə çox, bu yerlərdə minlərlə müxtəlif növ ağaclar, yaşıllıqlar, bəzək kolları, güllər-çiçəklər əkilib. Bu gülləri, çiçəkləri, ağacları əkmək nə qədər çətindirsə, onu qorumaq, becərmək və yaşatmaq da bir o qədər zəhmət tələb edir. Bunun da əziyyətini təbii ki, Mənzil Kommunal Təsərrüfatının əməkdaşları çəkirlər.

Heç uzağa getməyək, səhər saatlarında İmişli şəhərinə kimin yolu düşsə dediyimiz hadisələrin şahidi ola bilər. Yəni səhər saatlarında şəhərin küçə və prospektləri birmənalı olaraq kommunal işçilər tərəfindən süpürülüb təmizlənir və abad vəziyyətə salınır. İsti yay günləri isə küçələri tozdan təmizləmək üçün maşınla sulayırlar. Eyni zamanda yeni əkilmiş ağacları da hər səhər suvarmaq yaddan çıxmır. Çünki bu ağaclar şəhərə gözəllik gətirmək, sərinlik verməklə yanaşı, həm də qayğı və diqqət istəyir.

İmişlinin ən gözəl yerlərindən biri Heydər Əliyev parkıdır. Bu park son dərəcə milli və memarlıq üslubunda inşa edilib. Bütün mərmərlər yüksək keyfiyyəti ilə fərqlənir. Heydər Əliyevin abidəsi isə daha möhtəşəmdir. Bu möhtəşəmlik onu göstərir ki, İmişli camaatı Ulu Öndərin onlara göstərdiyi diqqət və qayğını heç vaxt unutmayıb və yaddan çıxarmayıb.

Səhər saat 11-12 radələrində biz də bu möhtəşəm parka baş çəkdik. Orda neçə-neçə insanın dincəldiyini və istirahət etdiyini gördük. 85 yaşlı Əliş Nəbiyev bizimlə çox səmimi söhbət elədi. Üstəlik də biləndə İmişliyə qonaq gəlmişik, ürəyi lap açıldı. Dedi ki, durun gedək bizə yaxşı bir qonalıq verim. Baxmayın ki, pensionerəm ey, amma imkanımız yaxşıdır. Yaxşı evimiz-eşiyimiz və şəraitimiz var. Əlli qonaq gəlsə yeməyə çörəyimiz, yatmağa yerimiz var.

Birdən elə bilərsiniz, şəkililərin sözü olmasın, ağızucu sizi qonaq dəvət edirəm. Allaha and olsun, tam ürəkdən deyirəm.

Biz də onun səmimiyyətinə və qonaqpərvərliyinə inandıq və dedik ki, Əliş kişi, elə bil ki gedib çörəyinizi yemişik, çayınızı içmişik. Bəs, camaatın dolanışığı nətərdir? Oğul, işləyən adam həmişə yaxşı dolanır, gərək tənbəl olmayasan, çalışasan, vuruşasan çörək qazanasan. Mənim övladlarım da özüm kimi çox zəhmətkeşdir, hamısı da işləyir. Şükür Allaha, rayonumuzda da vəziyyət lap yaxşıdır. Bir az çətinliyimiz olur, onu da yerli icra orqanları yoluna qoyur.

Əliş kişinin yanındakı başqa bir insanla - Arif Əliyevlə də tanış olduq. O deyir ki, orta sahibkarlıqla məşğuldur. Müəyyən bir iş qurub, özündən başqa altı nəfəri də bu işə cəlb edib. Daha doğrusu, icarəyə torpaq götürüb orda əkin-biçin işləri ilə məşğuldur. Arif kişi deyir ki, işimiz pis getmir, dövlət də bizə iş görmək üçün maddi köməklik göstərir, yəni sahibkarların inkişafına İmişlidə icra hakimiyyəti tərəfindən köməklik olunur.

Və biz də lazım gələndə rayonumuzun tikinti-quruculuq və abadlıq işlərində yaxından iştirak edirik.

**Bəli, bu gün də İmişlidə hara baxsan çox möhtəşəm quruculuq-tikinti işlərinin şahidi olarsan. Çünki bu quruculuq işləri tək İmişli şəhərində deyil, onun kəndlərində, qəsəbələrində uğurla davam edir. Belə ki, qəsəbələrə, kəndlərə yeni asfalt yollar çəkilib, orda məktəblər, uşaq bağçaları, xəstəxanalar inşa edilib. Bütün bu möhtəşəm işlərə görə İmişli camaatı prezident İlham Əliyevə minnətdardır. Onlar deyirlər ki, şükür olsun ki, ölkəmizdə əmin-amanlıqdır, rahatlıqdır. Və əmin-amanlıq, rahatlıq olan yerdə isə həmişə rahatlıq, sakitlik, dinclik və ruzi bolluğu olur!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Kulturoloq: "Gələcəkdə bununla bağlı cərimələrin tətbiqi də mümkündür"

**”Azərbaycan dilinin lüğət xəzinəsində ad yaratma ilə bağlı çox maraqlı prosseslərin şahidi oluruq. Filoloq alimlər və tətqiqatçılar bilirlər ki, vaxtilə Azərbaycanda yaşayan həm türklər, həm də digər xalqlar bir-birilə təmasda olduqca , xüsusəndə imperiyaların tərkibində olan zaman din yayılanda müxtəlif adverma, adqoyma prosessləri gedib”.**

Bu sözləri Adalet.az-a açıqlamasında İctimai və mədəniyyət xadimi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxananın yaradıcısı, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov söyləyib:

”Qədim zamanlarda yeni doğulan uşaqlara doğulan kimi adqoyma mərasimi etmirdilər. Bəzi bölgələrdə uşağın çiləsi çıxanda, bəzi bölgələrdə uşağın 1 yaşı tamam olanda, bəzi bölgələrdə isə müəyyən yaş dövrü gəlib çatanda, yeni uşaqlıqdan yeniyetməliyə keçid dövründə adqoyma mərsimləri keçirilirdi.Bu prosess qızlarda və oğlanlarda fərqli baş verirdi. Xüsusən islamı qəbul edəndə sünnət vaxtı oğlan uşaqlarına ad qoyulurdu.

Qədim türklərdə isə daha çox hər hansı bir igidliyi göstərəndən sonra onlara adlar verilirdi. Ancaq 10 yaşdan sonra artıq hər bir şəxsin özünəməxsus adqoyma mərasimi olurdu.Sözsüz ki, adla bağlı ana dilimizdə olan sözlər və kəlmələrdən istifadə olunur. Digər xalqlara rəğmən bizdə həmişə çox gözəl adlar qoyulub. Çox az sayda ad və soyadlarda heyvan adları, təbiət adlarından istifadə olunub. Hətta ad və ya soyad olaraq istifadə olunan heyvan adları da çox gözəl heyvanların adlarından



ibarətdir. Siz heç vaxt görə bilməzsiniz ki, insana ”köpək”, ”pişik” adı qoyulsun.Bəli, ”Məstan” sözü var, ancaq o da bir əzizləmə mənasını verir. Ona da çox az adam müraciət edir.Təbiətdən götürülmüş çiçək adları gözəlliyi tərənnüm edir. Heç birinin xoşagəlməz mənası yoxdur.Ümumiyyətlə, adlar insanın taleyini müəyyənləşdirir. Son illərin tətqiqatları göstərir ki, insan beynində nəyə adaptasiya olursa, onu da icra etməyə çalışır. Əməl və onun reallaşması çox vacib məqamdır. Bu, adqoymaya da aiddir.Azərbaycanda islamın qəbul edilməsi ilə əlaqədar ərəb və fars dilindən çoxsayılı sözlər, kəlmələr və adlar gəldi. Bu adlar bəziləri millilləşdirildi, bəziləri unuduldu, bəziləri isə Azərbaycan adları ilə birləşdirildi.Çox maraqlıdır ki, bu, uzun müddət həm islam düşüncəmizin, həm də ərəb xilafətinin və fars imperiyasının tabeliyində, Şahsevərlər imperiyasının tərkibində yaşamağımızdan irəli gəlirdi. Bu səbəbdən qonşu xalqlardan aldığımız adlar da kifayət qədərdir. Əsas adlarımız sözsüz ki, Azərbaycan türkcəsindən götürülmüş sözlərdir. Bu sözlər tam aydın formada insanın taleyini müəyyənləşdirə biləcək enerjini özündə ehtifa edir”.

Aydın Xan Əbilov adların formalaşmasında Azərbaycan Ədəbiyyatının mühüm rolunun olduğunu söyləyib:

”XX əsrdə, ondan biraz əvvəl Hüseyn Cavid, Mirzə Cəlil, Mirzə Ələkbər Sabir kimi mütəfəkkirlərin əsərində, Səməd Vurğun, Rəsul Rza və o nəsildən olan şair və yazıçılarımız, 60-cı illərdə isə yazıçı Anar və digər yazıçılar ad yaradılması ilə bağlı çox böyük təkan verə biləcək bir mərhələni yaratmış oldular. Bu ədiblərin arasında xüsusilə Cəfər Cabbarlını xatırlamaq kifayət edir. ”Aydın”, ”Gülər”, ”Sevinc” v.s kimi adlar məhz həmin yazıçıların zamanında müəyyənləşdi və zaman- zaman xalqın yaddaşına möhürləndi. Yazıçılarımızın ədəbi cəhdi adların leksik vahid olaraq formalaşmasına təkan verdi.Qeyri- etik səslənən adlar da var. İndi bizə qeyri-etik səslənsədə, hansı ki həmin adlar sovetlər dönəmində çox istifadə olunurdu. ”Traktor” ”Tavat”, ”Sovet”, ”Qızqayıt”, ”Qulbeçə”, ”Qızyetər” v.s kimi adlar var ki, indi leksikonumuzda unudulmaqdadır. Bunlar və bu kimi adlar artıq arxaik adlara çevrilməkdədir.Valideynlər uşaqlarına ad seçəndə kifayət qədər məsuliyyətli olmalıdırlar. Valideyn bilməlidir ki, uşağa cəmiyyətlə adla müraciət olunur. Ad insan həyatının həlledici hissəsidir. Valideynlər öz arzuları ilə yanaşı onların parlaq gələcəyinin olması üçün müsbət xarakter daşıyan adlar seçməlidirlər.Uşaqlara elə adlar verilməlidir ki, onlar adları ilə çağrılanda utanmasınlar.Toyda, nigah mərasimində, yasda həmin ad səslənəndə ad gülüş obyektinə çevrilməsin”.

Kultroloq qeyd edib ki, Ədliyyə Nazirliyi bununla bağlı informasiya bankı hazırlayıb:

”Adların mənalarını özün ehtifa edən elektron və kağız varinatında informasiya bankı hazırlayıb. Həmin informasiya bankında Azərbaycan cəmiyyətinə, xüsusəndə nigah bağlayan cütlüklərin, uşağın dünyaya gəlməsini rəsmiləşdirən qurumların nəzərinə çatdırıb . Bununla bağlı bəzi normativ aktlar da var. Ancaq əsas məsələ isə icitmai qınaqdır. Düşünürəm ki, bu məsələdə ictimai qınaq mühüm rol oynayır. Valideyn inzibati məsuliyyət daşıyır. Gələcəkdə bununla bağlı cərimələrin tətbiqi də mümkündür.Ancaq düşünürəm ki, cərimələnmədən əvvəl, maarifləndirici söhbətlər aparmalıyıq”.

Əntiqə KƏRİMZADƏ

# Kapadokiyanın bu qəsəbəsi Sakit Şəhərlər şəbəkəsinə üzv qəbul edildi

**Kapadokiyanın mərkəzində yerləşən tarixi Ortahisar qəsəbəsi Beynəlxalq Cittaslow (Sakit Şəhərlər) şəbəkəsinə rəsmi olaraq üzv qəbul edilib. Uzun və məqsədyönlü hazırlıq prosesindən sonra Ortahisar yüksək nəticə ilə qiymətləndirilərək şəbəkəyə daxil olub. Bu status qəsəbənin davamlı şəhər inkişafı prinsiplərinə və zəngin mədəni irsinin qorunmasına sadiqliyinin göstəricisi kimi dəyərləndirilir.**

Ortahisarın qoşulması ilə Türkiyədə Cittaslow statusuna malik şəhərlərin sayı 29-a yüksəlib və ölkənin qlobal Sakit Şəhərlər hərəkatındakı mövqeyi daha da möhkəmlənib.

Kapadokiyanın ən cəlbedici məkanlarından biri olan Ortahisar, ”Forbes” jurnalının 2025-ci il üçün açıqladığı ”Dünyanın ən gözəl 50 kəndi” siyahısında da yer alaraq bölgənin mütləq görülməli ünvanlarından biri kimi diqqət çəkir. Ürgüpdən təxminən 6 kilometr məsafədə yerləşən qəsəbə özünəməxsus qayalara oyulmuş memarlığı, qədim qalası və səmada süzülən hava şarları ilə tamamlanan mənzərəsi ilə seçilir.

Qəsəbənin mərkəzində ucalan Ortahisar Qalası tari-



xi mənbələrə görə Het dövrünə qədər uzanır. Bu gün qala Kapadokiyanın ən hündür nöqtələrindən biri sayılır və bölgənin möhtəşəm landşaftını panoramik şəkildə izləmək imkanı yaradır. Qayalara oyulmuş qala kompleksi mağaralar, göyərçinliklər və dolaşıq tunellər sistemi ilə zəngindir və dünyanın ən qədim çoxmərtəbəli yaşayış məskənlərindən biri kimi qiymətləndirilir. Qalanın ətrafında Kapadokiyanın ənənəvi memarlıq üslubunu əks etdirən təsirli tikililər sıralanır. Daş döşənmiş dar küçələr, ərik piştaxtaları və qızılgül ətirli çay bağları qonaqları vaxtilə bölgənin kənd təsərrüfatında mühüm rol oynamış mənzərəli vadilərə aparır. Bu vadilərdə qayalara oyulmuş anbarlar tarixən yerli məhsulların - alma və kartofun, eləcə də Aralıq dənizi bölgəsindən gətirilən portağal və limon kimi sitrus meyvələrinin saxlanması üçün istifadə olunub. Ortahisar eyni zamanda zəngin dini irsi ilə də seçilir. Qəsəbə ərazisində yerləşən Sarıca kilsəsi, Cambazlı kilsəsi, Tavşanlı kilsəsi, Balkan Dərəsi kilsələri və Hallaç Dərəsi Monastırı Kapadokiyanın dərin mənəvi və mədəni köklərini bu günədək yaşadan mühüm abidələr hesab olunur. Qloballaşmanın şəhər həyatını eyniləşdirməsi və yerli kimliyi arxa plana keçirməsi ilə bağlı narahatlıqlar fonunda yaranan Cittaslow hərəkatı bu gün dünyanın bir çox ölkəsində geniş yayılıb. Bu şəbəkəyə daxil olan şəhərlərdə həyat daha sakit axarda davam edir, yerli mətbəx, memarlıq üslubu, adət-ənənələr və tarixi irs xüsusi diqqətlə qorunur.

Türkiyədə Cittaslow şəbəkəsinin əsası 2009-cu ildə Seferihisarın bu statusu qazanan ilk şəhər olması ilə qoyulub. Sonrakı illərdə yeni şəhərlərin qoşulması ilə şəbəkə ardıcıl şəkildə genişlənib.

Hazırda Cittaslow Türkiyə şəbəkəsi ölkənin yeddi coğrafi bölgəsini əhatə edən 24 vilayətdə yerləşən 29 rayonu birləşdirir. Bu şəhərlər sırasında Ahlat, Akyaka, Arapgir, Çameli, Demre, Daday, Eğirdir, Finike, Foça, Gökçeada, Gerze, Göynük, Güdül, Halfeti, İbradı, İznik, Kemaliye, Köyceğiz, Mudurnu, Ortahisar, Perşembe, Safranbolu, Şarköy, Şavşat, Uzundere, Vize, Yalvaç və Yenipazar yer alır.

## *Aparıcı: “Qonaq haqqınızda elə söz deyər ki...”*



**Aparıcı Mətanət Əliverdiyeva həmkarlarının son günlər verilişlərində yaşanan neqativ hallara səssiz qalmayıb.**

Adalet.az bildirir ki, o, icazəsiz heç kimin ”mətbəxinə” müdaxilə edilməz:

”Mən etik normaları gözləyən bir insanam. Verilişimə gələn qonaqdan nəyisə soruşacağamsa, reklam zamanı bu mövzuya toxunmaq istədiyim barədə icazə alıram. Bəlkə xoşuna gəlməyəcək, mənim qonağımdır, axı niyə xətrinə dəyməliyəm?

Elə şeylər var ki, qonağın ”mətbəxi”dir, birbaşa soyuducunu açıb baxmaq olmaz. Bəlkə heç nə yoxdur, niyə mənim yanımda utanmalıdır? Hər şeyi gözləmək lazımdır. Aparıcılar, icazəsiz heç kimin mətbəxinə girməyin. Çünki qonaq sizin haqqınızda elə şey bilər və üzünüzə qaytarar ki, özünüz pis vəziyyətdə qalarsınız. Sizə elə söz deyər ki, qarşılığında deməyə söz tapmazsınız”.

## *Tarix Əliyev: “Hər şeydə şansım var, xoşbəxtəm”*



**Bildiyimiz kimi Tarix Əliyevin aparıcısı olduğu ”Tarixin bir günü” proqramının yayımı dayandırılıb.**

Məsələ ilə bağlı Adalet.az-a danışan Tarix Əliyev yenidən aparıcı kimi efirə qayıtmaq istəmədiyini söyləyib:

”Hamı məndən danışır. Hər kəs mənə zəng edir. Ancaq ölkədə daha qlobal problemlər var. Mənim proqramım üç gündür bağlanıb. Uşağımla evdə dincəlirəm. Evimdə rahat oturmuşam, xoşbəxtəm . Efirə qayıtmaq fikrim yoxdur Mənim həyatda hər şeydə, hər yerdə şansım var. Digər həmkarlarımın da verilişləri dayandırılıb. Kazım Sübhani, Elgiz Əkbər də bura daxildir. Təkcə məndən yox, onlardan da fikir soruşun”.

## *Qumral: “Biz efirlərin yaraşığıyıq”*



**Son zamanlar sosial şəbəkələrdə və xəbər saytlarında efir qadağası qoyulan müğənnilərin adlarından ibarət siyahılar açıqlanır. Bu siyahıda Musa Musayev, Təranə Qumral və Qumral Musayevanın da adı var.**

Məsələ ilə bağlı Adalet.az-a danışan Qumral Musayeva bu haqda ona və ailəsinə rəsmi xəbərdarlıq olunmadığını söyləyib:

”Mən artıq bu mövzu ilə bağlı danışmaqdan bezmişəm. Hara gedirəm bununla bağlı suallar verirlər. Rəsmi olaraq bizə bir məlumat verilməyib. Yalnız sosial şəbəkələrdə və xəbər saytlarında müəyyən bir siyahı görürük. Rəsmi heç bir xəbərdarlıq olunmadığı üçün bunun səhv və ya doğru xəbər olduğunu bilmirəm.

Bu işin üzərinə düşmürəm, hər şeyi zamana buraxıram. Bu siyahıda təkcə mənim və ailəmin adı yoxdur. Orda onlarla sənətçilərin adını oxuyuruq.

Nə baş verdiyini başa düşmürəm. Hələ ki, gözləyirik. Görək bizə rəsmi olaraq nə deyiləcək.

Əgər bu qərar rəsmiləşsə, düşünmürəm ki, efirə çıxmamaq mənim sənətimə təsir etsin. Çünki mən təkcə toy müğənnisi deyiləm, həm də sosial şəbəkədə müəyyən bir izləyici kütləm var. Gün ərzində məkanlarda keçirilən şou-proqramlarda çıxışlarım olur.

Davamlı toya gedən müğənnilər bəlkə də bu qərardan narahatlıq keçirə bilərlər.

Məlum məsələdir ki, efirin də öz gözəlliyi var. Olsa, əlbəttə, gözəl olar. Düşünürəm ki, mənsiz efir çox darıxdırıcı olar. Biz efirlərin yaraşığıyıq.

Bəlkə də bu qadağalar müvəqqəti olacaq. Müəyyən müddətdən sonra aradan qaldırılacaq. Yenə əvvəlki vəziyyətimizə qayıdacağıq”.

Əntiqə KƏRİMZADƏ


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 269
Çapa imzalanmışdır: 05.03.2026